RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 133 (10153) 29 iyul 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Etibarlı tərəfdaş, lider dövlət, sülhün ünvanı



## Ölkəmiz böyük təşkilatlara üzvlüyü və sədrliyi, dünyamiqyaslı tədbirlərin uğurlu məkanı olması ilə qlobal səviyyədə diqqət çəkir

Bu gün Azərbaycan beynəlxalq miqyasda həlledici qərarların verildiyi, strateji təşəbbüslərin irəli sürülüb icra olunduğu və dünyamiqyaslı mötəbər tədbirlərin keçirildiyi önəmli mərkəzə çevrilib. Ölkəmizdə regional və beynəlxalq səviyyəli forumların, sammitlərin təşkili artıq ənənə halını alıb. Bu ənənə, təbii ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən məqsədyönlü və uzaqgörən xarici siyasət kursunun, Azərbaycanın sürətlə artan beynəlxalq nüfuzunun və qlobal miqyasda qazanılmış böyük etimadın parlaq göstəricisidir.

Beynəlxalq müstəvidə qazanılan uğurlar təsadüfi olmayıb, illər boyu ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən strateji fəaliyyətin, uğurlu sədrlik təcrübəsinin nəticəsidir. 2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu dövrdəki sədrlik fəaliyyəti diplomatiyamızın böyük uğurlarındandır. Həmin dövrdə Azərbaycanın sədrliyi ilə terrorizmlə mübarizəyə dair yüksəksəviyyəli iclaslar keçirilib, qlobal sülh və təhlükəsizliyin qorunmasında hüququn aliliyi prinsipi qətiyyətlə müdafiə olunub.

2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə altıaylıq sədrliyi dövründə Avropanın hüquqi və humanitar məkanında mühüm gündəlik formalaşdıran Azərbaycanın sədrliyinin əsas prioritetləri korrupsiya ilə mübarizə, mədəniyyətlərarası dialoq və gənclər siyasəti idi.

2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına sədrlik dövrü türk dünyasının birliyinin möhkəmlənməsində mühüm mərhələ oldu.

Ölkəmiz bəşəri qərarların qəbuluna və icrasına birbaşa töhfələr verir. Buna dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatının (QH) da məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşaması nümunədir.

2019-cu ildə Bakıda QH-nin Zirvə toplantısını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan 2022-ci ilə qədər sədrliyi üzərinə götürdü. Yenə də ölkəmizə böyük hörmət və yüksək etimadın nəticəsi olaraq 120 ölkənin yekdil qərarı ilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilin axırınadək uzadıldı. Hərəkata sədrlik etdiyi dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirildi. Xüsusən dövlətimizin rəhbərinin təşəbbüsləri ilə QH-nin pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olundu. 2021-ci ilin dekabr ayında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edildi.

Bu uğurlu xarici siyasət kursunun məntiqi davamı olaraq, ölkəmiz 2024-cü ildən etibarən Asiyanın ən böyük dialoq platformalarından biri sayılan AQEM-ə uğurla sədrlik edir. 28 üzv dövlətin yekdil konsensusu ilə rəhbərliyə seçilən Azərbaycan öz fəaliyyətini "Daha güclü AQEM: rəqəmsallaşma, bağlantılar və Asiyada dayanıqlı inkişaf" konseptual xətti üzərində qurub. Azərbaycan bu il keçiriləcək Zirvə görüşünədək təşkilatın məşvərətçi platformadan tamhüquqlu beynəlxalq təşkilata çevrilməsi üçün Nizamnaməni yekunlaşdırmağı və institusiyalaşmanı tamamlamağı hədəfləyir.

5

## Vladimir Putin İlham Əliyevə zəng edib



İyulun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İkitərəfli və beynəlxalq gündəliyə dair aktual məsələləri müzakirə edən liderlər Azərbaycan-Rusiya əlaqələrinin konstruktiv xarakter daşıdığını, hökumətlərin və müvafiq strukturların xətti ilə fəal dialoqun aparıldığını qeyd ediblər.

Faydalı əməkdaşlığın daha da genişlənməsinə dair qarşılıqlı maraq təsdiqlənib.

***Prezidentin Mətbuat Xidməti***

## Sabitlik və etimad məkanı

### Prezident İlham Əliyevin praqmatik siyasəti Azərbaycanın təhlükəsizliyinin, dayanıqlı inkişafının və etibarlı tərəfdaş statusunun əsas təminatıdır



Azərbaycanın təhlükəsizlik və sabitlik unvanına çevrilməsi Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən, milli maraqlara söykənən dövlətçilik kursunun birbaşa nəticəsidir. Dövlətimizin başçısının qəbul etdiyi qərarların uzunmüddətli hədəflərə hesablanması, daxili və xarici risklərin vaxtında neytrallaşdırılması Azərbaycanı böyük güclərin toqquşma poliqonu olmaqdan xilas edib.

İndiki dönəmdə ən böyük problemlərdən biri etibarlı dialoq platformalarının azlığıdır. Azərbaycan isə şərqlə qərbin, şimalla cənubun kəsişməsində yerləşərək fərqli siyasi qütblərin maraqlarını ortaq nöqtəyə gətirməyi bacaran birləşdirici rol oynayır.

5

## İnsan hüquqları bütün bəşəriyyət üçün ortaq dəyər olmalıdır

### Təəssüf ki, bəzi Qərb dairələri bu universal dəyər üzərindən də manipulyativ siyasət həyata keçirirlər

Müasir beynəlxalq münasibətlər sisteminin qarşısında duran əsas çağırışlardan biri insan hüquqları anlayışının yenidən öz universal mahiyyətinə qaytarılmasıdır. İnsan hüquqları siyasi rəqabətin, geosiyasi təsir mexanizmlərinin və ya ideoloji qarşıdurmaların alətinə çevrilməməlidir.



Prezident İlham Əliyev çıxışlarında Azərbaycanın Yeni Kaledoniya, Fransız Polineziyası, Martinika və Sen-Marten kimi ərazilərdə yaşayan xalqların azadlıq və öz müqəddəratını müəyyən etmək hüququna göstərdiyi dəstəyə də toxunur. Bu mövqe Azərbaycanın hansısa dövlətə qarşı yönəlmiş siyasətindən deyil, tarixi təcrübəsindən və beynəlxalq hüququn prinsiplərinə hörmətindən qaynaqlanır. Ölkəmiz hesab edir ki, müstəmləkəçilik yalnız tarixdə qalmalı, xalqlar öz gələcəklərini azad şəkildə müəyyən etmək imkanına malik olmalıdırlar. Bakı Təşəbbüs Qrupunun fəaliyyəti də məhz bu yanaşmanın praktik ifadəsi kimi qiymətləndirilməlidir. Azərbaycan da məhz bu platforma vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətini müstəmləkəçilikdən irəli gələn problemlərə yönəltməyə çalışır.

4

## ABŞ Konqresinin növbəti qərəzli addımı erməni lobbisinin çirkin maraqlarına xidmət edir



ABŞ Konqresinin ayrı-ayrı üzvlərinin erməni lobbisinin təsiri altında atdığı bu addımlar Cənubi Qafqazda formalaşan yeni sülh reallıqlarına zərbə vurmaq cəhdidir. Beynəlxalq hüquq normalarını və Azərbaycanın suveren hüquqlarını görməzdən gələnlər anlamalıdırlar ki, heç bir qərəzli qanunvericilik təşəbbüsü və ya siyasi təzyiq aləti ölkəmizi öz milli maraqlarını qorumaq xəttindən və müstəqil xarici siyasət kursundan çəkindirə bilməz. Vaşinqtondakı bəzi siyasi dairələr erməni şovinist qruplarının dar maraqlarına xidmət etməkdən əl çəkməli və bölgədə dayanıqlı sülhün bərqərar olunması üçün yaranmış tarixi imkana mane olmamalıdırlar. Bir sözlə, Azərbaycan öz xarici siyasətini müstəqil şəkildə yürüdür və heç bir kənar təzyiq və ya qərəzli qanunvericilik təşəbbüsü ölkəmizin milli maraqlarını qorumaq iradəsinə təsir göstərə bilməz.

6

## Ölkə iqtisadiyyatının daha bir aparıcı sektoru - yüngül sənaye

### Bu sahə üzrə yeni müəssisələrin əksəriyyəti işğaldan azad olunmuş ərazilərdə fəaliyyətə başlayır

2021-ci il mayın 28-də yaradılmış Ağdam Sənaye Parkının qarşısında duran vəzifə də regionda yüngül sənayenin və istehsalat sahələrinin bərpasıdır. Parkda yerli tələbatı ödəmək və ixrac potensialı yaratmaq məqsədilə bir sıra yüngül sənaye və istehsal müəssisələri fəaliyyətə başlayıb və yenilərinin təşkili üzrə iş davam edir.



Ağdam Sənaye Parkında yerləşən "BAFCO İnvest" MMC-nin ayaqqabı istehsalı fabrikində 2024-cü il aprelin 1-dən müxtəlif təyinatlı ayaqqabılar və poliuretan çəkmələr istehsal edilir. Hazırda fabrikdə gündə yüzlərlə cüt məhsul buraxılır.

"BAFCO İnvest"ə ümumi 12 milyon manat sərmayə qoyulub. Bütün avadanlıqlar Almaniyanın "Desma" markasına məxsusdur. Fabrikin istehsal gücü xüsusi təyinatlı ayaqqabılar üzrə ildə 360 min cüt, poliuretan çəkmələr üzrə isə ildə 150 min cütdür.

İndi artıq bu müəssisələr də ölkə iqtisadiyyatına, o cümlədən qeyri-neft sahəsinin inkişafına dəstək verir.

7

## Ə.Q.Əskərovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əlimirzamin Qəvvam oğlu Əskərov Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## Ə.Q.Əskərovun Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əlimirzamin Qəvvam oğlu Əskərov Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## E.N.Hüseynlinin Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Nəriman oğlu Hüseynli Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## E.N.Hüseynlinin Azərbaycan Respublikasının Hindistan Respublikasında, eyni zamanda Banqladeş Xalq Respublikasında, Butan Krallığında, Maldiv Respublikasında, Nepalda və Şri-Lanka Demokratik Sosialist Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Nəriman oğlu Hüseynli Azərbaycan Respublikasının Hindistan Respublikasında, eyni zamanda Banqladeş Xalq Respublikasında, Butan Krallığında, Maldiv Respublikasında, Nepalda və Şri-Lanka Demokratik Sosialist Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## E.C.Qəhrəmanın Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elxan Cahangir oğlu Qəhrəman Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## A.R.Atamoğlanovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ağalar Rahim oğlu Atamoğlanov Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009, № 12 (I kitab), maddə 1118; 2026, № 1, maddələr 11, 14, 15, 16, 21, № 2, maddə 111; Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 396-VIIQD nömrəli və 26 may tarixli 413-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 13.2.40-cı maddəyə "büdcəsinə" sözündən sonra ", habelə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyiciləri tərəfindən dövlət sosial müdafiə fonduna" sözləri əlavə edilsin;

1.2. 175.8-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"2027-ci il yanvarın 1-dən 4 il müddətinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyiciləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və şərtlərlə ƏDV-nin depozit hesabından dövlət sosial müdafiə fonduna vəsait köçürülə bilər.".

**Maddə 2.** Bu Qanun 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2026-cı il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 445-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 445-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 175.8-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 175.8-ci maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 175.8-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyiciləri tərəfindən əlavə dəyər vergisinin depozit hesabından dövlət sosial müdafiə fonduna vəsaitin köçürülməsi qaydasını və şərtlərini üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 445-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddələr 1018, 1023, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 35, № 2, maddələr 123, 125; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli 689 nömrəli və 25 iyun tarixli 697 nömrəli fərmanları) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "birinci cümlələrində," sözlərindən sonra "175.8-ci maddəsinin üçüncü cümləsində," sözləri əlavə edilsin;

3.2. 1.7-ci bənddə ", 175.9-cu maddələrində" sözləri "maddələrində, 175.8-ci maddəsinin üçüncü cümləsində, 175.9-cu maddəsində" sözləri ilə əvəz edilsin.

4. Bu Fərmanın 1-ci və 3-cü hissələri 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 133 (Cild I); 2025, № 4 (I kitab), maddə 306, № 6, maddə 521) 56.5-ci maddəsinə "qaydalarını" sözündən sonra ", habelə çox yüngül uçuş aparatlarının hava məkanından istifadə və uçuş qaydalarını" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

## "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 467-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 467-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. çox yüngül uçuş aparatlarının hava məkanından istifadəsi və uçuşu ilə bağlı tələblərin pozulmasına görə məsuliyyətin müəyyən edilməsi ilə əlaqədar təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 56.5-ci maddəsinə uyğun olaraq, çox yüngül uçuş aparatlarının hava məkanından istifadə və uçuş qaydalarını, Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin və Azərbaycan Respublikası Turizm Agentliyinin təklifləri nəzərə alınmaqla, üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 467-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Fərmanın 1.2-ci bəndində nəzərdə tutulan qaydalarda çox yüngül uçuş aparatlarının istifadəsi və uçuşu ilə bağlı aşağıdakılar öz əksini tapmalıdır:

2.1. uçuş aparatlarının texniki göstəricilərinə dair tələblər;

2.2. uçuş aparatlarının və istismarçılarının qeydiyyatı, habelə qeydiyyatdan azad edilmə halları;

2.3. uçuş aparatlarını idarə edən şəxslərə dair yaş, hazırlıq, tibbi yararlılıq və peşə hazırlığı tələbləri, habelə onların uçuş aparatını idarə etmək hüququ verən sənədlə təmin olunması mexanizmi;

2.4. uçuşların həyata keçirilməsi üçün icazə verilən, məhdudlaşdırılan və qadağan edilən ərazilərin dəqiq müəyyən olunması meyarları, o cümlədən dövlət sərhədi, hərbi obyektlər, strateji infrastruktur obyektləri, hava limanları və digər xüsusi rejimli zonalar üzərində uçuşların tənzimlənməsi;

2.5. uçuş aparatlarından kommersiya və ya qeyri-kommersiya, o cümlədən şəxsi, idman, turizm məqsədləri ilə istifadənin xüsusiyyətləri;

2.6. təhlükəsizlik tələbləri, o cümlədən uçuşların təhlükəsiz həyata keçirilməsi məqsədilə uçuşların əvvəlcədən razılaşdırılması və məlumatlandırma prosedurları;

2.7. uçuş aparatlarının texniki yararlılığına, istismarına və dövri yoxlanılmasına dair tələblər;

2.8. uçuş aparatları istismarçılarının və uçuşlarda iştirak edən şəxslərin hüquq və vəzifələri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I); 2024, № 7, maddə 771, № 8, maddə 932; 2025, № 1, maddə 16, № 2, maddə 94, № 6, maddə 523, № 12 (I kitab), maddə 1125; 2026, № 4, maddə 292; Azərbaycan Respublikasının 2026-cı il 17 mart tarixli 379-VIIQD nömrəli və 1 may tarixli 402-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 30-cu maddənin VIII hissəsinin ikinci abzasının üçüncü cümləsində, üçüncü və dördüncü abzaslarının birinci cümlələrində "mərkəzi" sözü "müəyyən etdiyi orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin.

2. 46-2-ci maddənin I hissəsinin 5-ci və 6-cı bəndlərində "mərkəzi" sözü "müvafiq" sözü ilə əvəz edilsin.

3. 53-cü maddə üzrə:

3.1. VII hissənin beşinci cümləsində "mərkəzi" sözü "müvafiq" sözü ilə əvəz edilsin;

3.2. XIX hissənin ikinci cümləsində "125.2-ci" sözləri "57-1.1-ci" sözləri ilə əvəz edilsin.

4. 84-cü maddənin birinci hissəsi üzrə:

4.1. 6-1-ci bənddə "operativ nəqliyyat vasitəsində quraşdırılmış bort-kompyuter vasitəsilə tərtib edərək dərhal, yaxud belə kompyuter olmadıqda həmin günün sonunadək" sözləri "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 124.4-cü maddəsində nəzərdə tutulmuş qaydada tərtib etmək və" sözləri ilə əvəz edilsin;

4.2. 6-2-ci bəndə "inzibati tənbeh" sözlərindən əvvəl "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 124.4-cü maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilmiş" sözləri əlavə edilsin.

5. 85-ci maddənin birinci hissəsinin 9-cu bəndində "surəti" sözü "habelə protokola əlavə kimi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sistemində yerləşdirilir, ikinci nüsxəsi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 471-VIIQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 471-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin VIII hissəsinin ikinci abzasının üçüncü cümləsində, üçüncü abzasının birinci cümləsində və dördüncü abzasının birinci cümləsində (birinci halda) və 85-ci maddəsinin birinci hissəsinin 9-cu bəndində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 30-cu maddəsinin VIII hissəsinin ikinci abzasının üçüncü cümləsində, üçüncü abzasının birinci cümləsində və dördüncü abzasının birinci cümləsində, 46-2-ci maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərində, 53-cü maddəsinin VII hissəsinin beşinci cümləsində və 85-ci maddəsinin birinci hissəsinin 9-cu bəndində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 471-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, № 10, maddə 1138; 2025, № 6, maddə 542, № 11, maddələr 1018, 1036, № 12 (I kitab), maddə 1150; 2026, № 1, maddə 24, № 4, maddə 306) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "Qeyd"inin üçüncü cümləsində" sözlərindən sonra "30-cu maddəsinin VIII hissəsinin ikinci abzasının üçüncü cümləsində, üçüncü abzasının birinci cümləsində və dördüncü abzasının birinci cümləsində (birinci halda)" sözləri əlavə olunsun və həmin bənddə "və birinci hissəsinin" sözləri ", birinci hissəsinin 9-cu bəndində (ikinci halda)," sözləri ilə əvəz edilsin;

3.2. 2.6-cı bəndə "85-ci maddəsinin" sözlərindən sonra "birinci hissəsinin" sözləri, "9-cu bəndində" sözlərindən sonra "(birinci halda)" sözləri əlavə edilsin;

3.3. 2.7-ci bənddə "müvafiq icra hakimiyyəti orqanının mərkəzi" sözləri "orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin;

3.4. 2.31-1-ci bənddə "mərkəzi" sözü "müvafiq" sözü ilə, "Nazirliyi" sözü "Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi" sözləri ilə əvəz edilsin və həmin bənddən "(ikinci halda)" sözləri çıxarılsın;

3.5. 2.36-5-ci bəndə "bəndində" sözündən sonra "və 85-ci maddəsinin birinci hissəsinin 9-cu bəndində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## "Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə"nin təsdiq edilməsi barədə"

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2026-cı il aprelin 25-də Qəbələ şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

## "Gəmilərin ballast sularının və çöküntülərinin idarəedilməsi və nəzarətinə dair" Beynəlxalq Konvensiyaya qoşulmaq haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2004-cü il fevralın 13-də London şəhərində imzalanmış "Gəmilərin ballast sularının və çöküntülərinin idarəedilməsi və nəzarətinə dair" Beynəlxalq Konvensiyaya qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

## Milli Məclisin Sədri Efiopiyaya rəsmi səfərə gedib





**Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Əddis-Əbəbə Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrinin başçılıq etdiyi nümayəndə heyətini Efiopiya Parlamenti Xalq Nümayəndələr Palatası sədrinin müavini Lomi Bedo, Xarici İşlər Nazirliyinin dövlət naziri Berhanu Tsegaye və Protokol xidmətinin rəisi Melaku Bedada, Azərbaycanın Efiopiyadakı səfiri Ruslan Nəsibov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın ölkə rəsmiləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

*"Azərbaycan"*

## Azərbaycan-Almaniya münasibətlərində strateji gündəliyin əhəmiyyəti vurğulanıb

**İyulun 28-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyanın ölkəmizə yeni təyin olunmuş səfiri Dirk Lölke ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, səfir Dirk Lölke etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək, ona fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı Azərbaycan-Almaniya münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, siyasi dialoq, iqtisadi-ticari əlaqələr, enerji təhlükəsizliyi, "yaşıl enerji", sənaye, nəqliyyat-kommunikasiya, humanitar və mədəni əməkdaşlıq məsələləri müzakirə olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya son səfərinin ikitərəfli münasibətlərdə yeni mərhələnin əsasını qoyduğu, İkitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamənin, Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasının vacibliyi, mövcud əməkdaşlıq mexanizmlərinin daha da inkişafının və qarşılıqlı yüksəksəviyyəli təmasların davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər Azərbaycan və Almaniya xalqlarını birləşdirən iki əsrə yaxın tarixi əlaqələrin və zəngin irsin bu gün də münasibətlərin inkişafı üçün mühüm təməl rolunu oynadığını qeyd edərək, qarşılıqlı hörmətə və etimada əsaslanan əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində mövcud potensialı müzakirə ediblər.

Görüşdə regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov postmünaqişə dövründə Cənubi Qafqazda mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi və dayanıqlı sülhün təmin olunması istiqamətində aparılan səylər barədə məlumat verib.

## Azərbaycan-Serbiya arasında növbəti siyasi məsləhətləşmələr aparılıb

**İyulun 28-də Belqrad şəhərində Azərbaycan və Serbiya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanın nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Serbiyanın nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyinin dövlət katibi Damyan Yoviç rəhbərlik edib.

Görüş zamanı iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi, siyasi, iqtisadi, energetika və humanitar sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər həmçinin beynəlxalq platformalarda qarşılıqlı fəaliyyət, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi, eləcə də iki ölkə arasında müqavilə-hüquq bazasının genişləndirilməsi istiqamətində görüləcək işlər ətrafında fikir mübadiləsi aparıblar. Siyasi məsləhətləşmələr çərçivəsində Azərbaycanın regionda dayanıqlı sülh və əməkdaşlığın təşviqi istiqamətində atdığı addımlar, işğaldan azad edilmiş ərazilərdə mina təhlükəsinin yaratdığı humanitar çağırışlar, eləcə də həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri barədə ətraflı məlumat verilib.



Səfər çərçivəsində F.Rzayev həmçinin Serbiya Prezidentinin müşaviri Tatyana Yoviç və Serbiya Milli Assambleyası sədrinin müavini, Xarici İşlər Komitəsinin sədri Marina Raquş ilə görüşlər keçirib, eləcə də Serbiyanın Beynəlxalq Siyasət və İqtisadi Araşdırmalar İnstitutunda tədqiqatçılar və ekspertlərlə təşkil olunmuş "dəyirmi masa" müzakirələrində iştirak edib.

## Efiopiya Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verir

### Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiya Xalq Nümayəndələri Palatasının Sədri Tagasse Çaffo ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində iyulun 28-də bu ölkənin Xalq Nümayəndələri Palatasının Sədri Tagasse Çaffo ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ölkəsinin Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verdiyini deyən Tagasse Çaffo bildirib ki, Azərbaycan parlamentinin spikerinin bu səfəri qanunvericilik orqanları arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə töhfə verəcək.

Milli Məclisin Sədri Sahibə Qafarova da öz növbəsində qeyd edib ki, bu səfər Azərbaycanın qarşılıqlı münasibətlərə verdiyi yüksək dəyərin göstəricisidir.

Görüşdə Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Taye Atske Sellasiye və Baş nazir Abiy Əhməd Əlinin Azərbaycana səfərləri, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdikləri görüşlər zamanı ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı müzakirələrin aparıldığı xatırladılıb.

Söhbət zamanı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın 2026-cı ilin yanvar ayında Efiopiyaya səfərinin əhəmiyyəti vurğulanıb.

Ölkələrimiz arasında turizm, biznes, qarşılıqlı investisiya qoyuluşu, mədəni və humanitar sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu qeyd edilib. Bu əməkdaşlığın uğurlu göstəricisi kimi, "ASAN xidmət" modelinin Efiopiyada da tətbiq olunması, bu modelin Efiopiyada Azərbaycanın izi kimi qiymətləndirildiyi bildirilib.

Görüşdə parlamentlərarası münasibətlərin daha da inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova Tagasse Çaffonu Azərbaycana rəsmi səfərə dəvət edib və dəvət məmnunluqla qəbul olunub.

Vurğulanıb ki, parlamentlərimiz arasında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün böyük potensial mövcuddur. Bu baxımdan parlament sədrlərinin və dostluq qruplarının qarşılıqlı səfərlərinin əhəmiyyəti qeyd edilib. Həmçinin parlament komitələri və aparatları arasında əməkdaşlığın genişləndirilməsinə maraq ifadə olunub.

Efiopiya Parlamenti Xalq Nümayəndələri Palatasının Sədri, hazırda ölkəsinin qanunvericilik orqanında islahatlar həyata keçirildiyini bildirib və Azərbaycanın bu sahədəki təcrübəsinin onlar üçün maraqlı olduğunu vurğulayıb.

Tərəflər həmçinin BMT, Parlamentlərarası İttifaq, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və digər beynəlxalq təşkilatlarda əməkdaşlığın əhəmiyyətini qeyd ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## *Çinin hərbi attaşesi:* "Azərbaycan ilə hərbi əməkdaşlıq ikitərəfli münasibətlərin mühüm hissəsidir"

**"Çin və Azərbaycan arasında qarşılıqlı hörmət və qarşılıqlı fayda prinsiplərinə əsaslanan tərəfdaşlıq uğurla inkişaf edir. Hərbi mübadilə və əməkdaşlıq isə ikitərəfli münasibətlərin mühüm tərkib hissəsini təşkil edir".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Çinin Azərbaycandakı hərbi attaşesi, polkovnik Sun Çjun Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 99-cu ildönümü münasibətilə keçirilən tədbirdə çıxışı zamanı səsləndirib.

Polkovnik bildirib ki, Çin Xalq Azadlıq Ordusu ölkə tarixinin taleyüklü dövründə formalaşıb və ötən illər ərzində Çinin müstəqilliyinin möhkəmləndirilməsinə, milli inkişafına və davamlı sülhün təmin olunmasına mühüm töhfələr verib.

Onun sözlərinə görə, bu gün Çin Xalq Azadlıq Ordusu modernləşmənin yeni mərhələsinə qədəm qoyub və əsas missiyası ölkənin suverenliyini, təhlükəsizliyini və inkişaf maraqlarını qorumaqla yanaşı, regional və qlobal sülhün möhkəmləndirilməsinə töhfə verməkdir.

Sun Çjun qeyd edib ki, son illərdə Çin ordusu dünyanın müxtəlif ölkələrinin silahlı qüvvələri ilə əməkdaşlığı genişləndirib, BMT-nin sülhməramlı əməliyyatlarında, dəniz quldurluğuna qarşı beynəlxalq missiyalarda, humanitar yardım və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması tədbirlərində fəal iştirak edib.

"Bu fəaliyyət Çinin digər ölkələrlə birlikdə ümumi təhlükəsizlik çağırışlarının həllinə töhfə vermək əzmini nümayiş etdirir", - deyə hərbi attaşe vurğulayıb.

Polkovnik bildirib ki, Çin və Azərbaycan arasında hərbi əməkdaşlıq yüksəksəviyyəli qarşılıqlı səfərlər, peşəkar dialoq, hərbi kadrların hazırlanması və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq vasitəsilə ardıcıl şəkildə inkişaf edir.

"Bu mübadilə qarşılıqlı anlaşmanı daha da möhkəmləndirib və gələcək əməkdaşlıq üçün etibarlı zəmin yaradıb", - deyə o qeyd edib.

Sun Çjun həmçinin Azərbaycanın regional bağlantının və beynəlxalq əməkdaşlığın təşviqində oynadığı rolu yüksək qiymətləndirib.

"Avropa ilə Asiyanın kəsişməsində yerləşən mühüm ölkə kimi Azərbaycan regional inkişaf və sabitliyə dəyərli töhfələr verir. Biz əməkdaşlığımızı daha da dərinləşdirmək, regionda və dünyada sülhə və rifaha yeni töhfələr vermək üçün Azərbaycanla birgə işləməyi səbirsizliklə gözləyirik", - deyə hərbi attaşe bildirib.

O vurğulayıb ki, gələn il Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 100 illiyi qeyd olunacaq və Çin bundan sonra da bütün ölkələrlə sülh, qarşılıqlı hörmət və ümumi inkişaf prinsipləri əsasında əməkdaşlığı davam etdirəcək.

Çıxışının sonunda Sun Çjun qonaqları Çin səfirliyi tərəfindən hazırlanmış qısametrajlı videoçarxa baxmağa dəvət edərək bildirib ki, video iştirakçılara Çin Xalq Azadlıq Ordusunun hazırlıq sistemi haqqında ümumi təsəvvür formalaşdıracaq.

## Milli Məclisdə parlamentlərarası münasibətlər müzakirə olunub

**İyulun 28-də Milli Məclisin Yaponiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əminə Ağazadə Yaponiya parlamentinin Müşavirlər Palatasının üzvü Miçihiro İşibaşinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Əminə Ağazadə qonaqları salamlayaraq, bu səfərin ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, həmçinin parlamentlərarası dialoqun inkişafına töhfə verəcəyinə əminliyini bildirib. O, Azərbaycan-Yaponiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və uzunmüddətli tərəfdaşlıq prinsipləri üzərində qurulduğunu, son dövrdə siyasi dialoqun intensivləşməsinin və yüksəksəviyyəli qarşılıqlı təmasların əlaqələrimizə yeni dinamika qazandırdığını deyib. Qeyd olunub ki, iki ölkə arasında iqtisadiyyat, enerji, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq yeni mərhələyə yüksəlib.

Yaponiya parlamentinin Müşavirlər Palatasının üzvü Miçihiro İşibaşi göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, Azərbaycan ilə əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını ifadə edərək, qarşılıqlı səfərlərin və təmasların ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsində əhəmiyyətini qeyd edib.

Görüşdə Milli Məclisin Yaponiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Nizami Səfərov, Yaponiya Konstitusional Demokratik Partiyasının üzvü Şoci Namba və Yaponiyanın ölkəmizdəki səfiri Katsuya Vatanabe çıxış edərək Azərbaycan və Yaponiya arasında münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini səsləndiriblər, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlər üzrə daha da genişləndirilməsinin vacibliyini qeyd ediblər.

Söhbətdə parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafındakı rolundan bəhs olunub. Qanunverici orqanlar arasında müntəzəm dialoqun, həmçinin qanunvericilik sahəsində təcrübə mübadiləsinin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

*"Azərbaycan"*




# İnsan hüquqları bütün bəşəriyyət üçün ortaq dəyər olmalıdır

## Təəssüf ki, bəzi Qərb dairələri bu universal dəyər üzərindən də manipulyativ siyasət həyata keçirirlər

**İnsan hüquqları anlayışı bəşəriyyətin ən böyük universal dəyərlərindəndir. Birləşmiş Millətlər Təşkilatının Dünya İnsan Hüquqları Bəyannaməsi və digər fundamental beynəlxalq sənədlər bu hüquqların bütün insanlar üçün bərabər və ayrılmaz xarakter daşıdığını təsbit edir. Lakin son onilliklərin siyasi praktikası göstərir ki, bu prinsip hər zaman eyni şəkildə tətbiq edilmir. Bir sıra hallarda insan hüquqları anlayışının öz ilkin mahiyyətindən uzaqlaşdırılaraq geosiyasi rəqabətin və siyasi təsir mexanizmlərinin tərkib hissəsinə çevrilməsi böyük təəssüf doğurur.**

Bu gün beynəlxalq münasibətlərdə müşahidə olunan əsas ziddiyətli məqamlardan biri məhz insan hüquqları mövzusunun fərqli şəkildə gündəmə gətirilməsidir. Ayrı-ayrı dövlətlərə münasibətdə sərt tənqidlər səsləndirilərkən digər ölkələrdə baş verən analoji və ya daha ağır hüquq pozuntuları müxtəlif səbəblərlə diqqətdən kənarda qalır. Belə yanaşma insan hüquqlarının universallığı prinsipini zəiflədir, bu anlayışın beynəlxalq nüfuzuna xələl gətirir və onun siyasi təsir vasitəsi kimi qəbul edilməsinə səbəb olur.

Azərbaycan da müstəqilliyini bərpa etdikdən sonra uzun illər ərzində bu cür yanaşmanın təsirlərini öz üzərində hiss edən dövlətlərdən olmuşdur. Xüsusilə ölkənin müstəqil xarici siyasət yürütməsi, enerji təhlükəsizliyi sahəsində strateji layihələr reallaşdırması, regional əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış etməsi və milli maraqlara əsaslanan qərarlar qəbul etməsi fonunda insan hüquqları mövzusu tez-tez siyasi müzakirələrin əsas alətlərindən birinə çevrilmişdir. Diqqətçəkən məqamlardan biri də odur ki, insan hüquqları ilə bağlı bəyanatlar, qətnamələr və müxtəlif hesabatlar əksər hallarda məhz Azərbaycanın mühüm geosiyasi qərarlar qəbul etdiyi və ya strateji layihələr həyata keçirdiyi dövrlərdə daha intensiv xarakter almışdır. Bu isə belə kampaniyaların təsadüfi deyil, müəyyən siyasi məqsədlərə xidmət etdiyini göstərən amillərdən biri kimi qiymətləndirilməlidir.

### İkili yanaşmanın mahiyyəti

İnsan hüquqları heç vaxt dövlətlərə siyasi təzyiq göstərmək vasitəsinə çevrilməməlidir. Əgər bu anlayış geosiyasi maraqların alətinə çevrilirsə, onun mənəvi və hüquqi məzmunu zəifləyir, beynəlxalq hüquqa inam azalır və qlobal etimad mühiti zədələnir.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda jurnalistlərin suallarını cavablandırarkən bir sıra mühüm geosiyasi məsələlərlə yanaşı, insan hüquqları mövzusunda Qərb dövlətlərinin tətbiq etdiyi ikili standartlar, müstəmləkəçilik siyasətinin müasir təzahürləri və beynəlxalq münasibətlər sistemində ədalətin təmin olunması problemlərinə də diqqət yönəltdi.

İnsan hüquqları ilə bağlı beynəlxalq diskussiyalarda ən ciddi problemlərdən biri fərqli və ikili yanaşmadır. Uzun illər müxtəlif beynəlxalq təşkilatlar və bəzi Qərb dövlətləri "insan hüquqları heç bir dövlətin daxili işi hesab edilə bilməz" prinsipini əsas gətirərək müxtəlif ölkələrin daxili proseslərinə münasibət bildiriblər. Amma eyni prinsipin heç də bütün hallarda qorunmadığına hər birimiz şahidik. Bu paradoks xüsusilə müstəmləkəçilik problemi müzakirə edilərkən daha aydın nəzərə çarpır. Əgər insan hüquqları doğrudan da ümumbəşəri dəyərdirsə, onda görəsən, niyə Yeni Kaledoniya, Fransız Polineziyası, Martinika, Sen-Marten və digər dənizaşırı ərazilərdə yaşayan xalqların hüquqları eyni həssaslıqla gündəmə gətirilmir? Niyə onların siyasi hüquqları, sosial problemləri və öz müqəddəratını müəyyən etmək tələbləri beynəlxalq informasiya məkanında lazımi diqqəti almır? Bu cür ziddiyətli yanaşma məhz burada özünü bütün çılpaqlığı ilə göstərir və belə bir həqiqət ortaya çıxır ki, insan hüquqları yalnız siyasi maraqlara uyğun gəldiyi hallarda fəal şəkildə müdafiə edilirsə, bu artıq universal prinsip deyil, geosiyasi alətə çevrilmiş mexanizmdir.

Əsl insan hüquqları müdafiəsi heç bir siyasi blokdan, heç bir regional maraqdan və ya iqtisadi tərəfdaşlıqdan asılı olmamalıdır. Universal prinsiplər yalnız bütün dövlətlərə və bütün xalqlara eyni meyarlarla tətbiq edildiyi halda öz dəyərini qoruyur. Əks halda beynəlxalq sistemdə ikili standartlar dərinləşir, beynəlxalq hüququn legitimliyi zəifləyir və insan hüquqları anlayışına ictimai etimad azalır.

Prezident İlham Əliyev IV Şuşa Media Forumunda Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə xüsusi yer ayırdı. Müasir dünyamızda bu təşkilat müstəmləkəçilik mövzusunu beynəlxalq müzakirələrin mərkəzinə çıxaran ən fəal və səmərəli qeyri-hökumət təşəbbüslərindən biridir. Dövlətimizin başçısı insan hüquqları ilə bağlı məsələlərin ümumbəşəri məsələlər olduğunu vurğuladı: "Bakı Təşəbbüs Qrupu isə bu mövzunu qlobal gündəliyə çıxaran, bəlkə də ilk və ən səmərəli qeyri-hökumət təşkilatıdır. Uzun illər ərzində Fransanın qondarma dənizaşırı əraziləri, əslində isə faktiki müstəmləkələri təzyiqlərə məruz qalıblar. Orada müxtəlif qanunsuz əməllər törədilib, o cümlədən nüvə sınaqları keçirilib. Polineziyada nə qədər nüvə sınağı keçirilib? Bəlkə 100, bəlkə 200, bəlkə də daha çox. Bunun nəticəsində çox sayda insan zərər çəkib. Çox sayda insan həyatını itirib, sağlamlığına ciddi zərər dəyib. Bakı Təşəbbüs Qrupu isə bu məsələni gündəmə gətirdiyinə görə, təəssüf ki, əsassız olaraq hansısa hibrid müharibə aparmaqda ittiham edilir. Bu, tamamilə ədalətsizdir".

### Dekolonizasiya hələ də tam başa çatmayıb

XX əsrdə dekolonizasiya prosesi dünya tarixinin ən mühüm hadisələrindən biri hesab olunsa da, müstəmləkəçilik problemi tamamilə aradan qalxmış hesab edilə bilməz. Bu gün də müxtəlif bölgələrdə siyasi, iqtisadi və institusional asılılıq münasibətlərinin müxtəlif formaları mövcuddur. Yeni Kaledoniya buna ən aydın nümunələrdən biridir. Burada kanak xalqı uzun illərdir siyasi hüquqlarının genişləndirilməsi və öz gələcəyini sərbəst müəyyən etmək uğrunda mübarizə aparır. Son illər baş vermiş hadisələr göstərdi ki, bu problem hələ də aktuallığını itirməyib.

Fransız Polineziyasında da müstəqillik tərəfdarları beynəlxalq platformalarda öz hüquqlarının tanınmasını tələb edirlər. Martinikada sosial bərabərsizlik və iqtisadi asılılıq problemləri qalmaqdadır. Sen-Marten və digər dənizaşırı ərazilərdə də oxşar problemlər müşahidə olunur. Bu faktlar göstərir ki, insan hüquqları məsələsinə yanaşma yalnız müəyyən regionlarla məhdudlaşmamalıdır. Əgər hər hansı xalqın fundamental hüquqları pozulursa, həmin problem dünyanın harasında baş verməsindən asılı olmayaraq eyni prinsipiallıqla qiymətləndirilməlidir. Dünyanın harasında olursa-olsun, müstəmləkəçilik təzahürlərinə qarşı mübarizə bəşəri öhdəlikdir.

Bu baxımdan, Bakı Təşəbbüs Qrupunun fəaliyyəti bütün dünyaya nümunə sayıla bilər. Təşkilat müxtəlif beynəlxalq konfranslar, müzakirələr və platformalar vasitəsilə müstəmləkəçilik mövzusunu beynəlxalq gündəmdə saxlayır, hələ də siyasi asılılıq şəraitində yaşayan xalqların problemlərinin müzakirəsinə çalışır. Bu fəaliyyət tarixi ədalətin bərpasına, insan hüquqlarının həqiqətən universal prinsiplər əsasında qiymətləndirilməsinə xidmət edir.

### İkili standartların nəticələri

Beynəlxalq hüququn seçmə qaydada tətbiq olunması yalnız ayrı-ayrı dövlətlər üçün deyil, bütövlükdə beynəlxalq sistem üçün təhlükə yaradır. Halbuki beynəlxalq hüququn əsas prinsiplərindən biri dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət göstərilməsidir. Bu prinsiplərin bir regionda müdafiə olunması, digər regionda isə siyasi maraqlardan çıxış edərək fərqli şərh edilməsi beynəlxalq münasibətlərdə etimadsızlıq yaradır.

Azərbaycan da uzun illər ərzində beynəlxalq hüququn selektiv (ikili standartlar) tətbiqinin mənfi nəticələri ilə üzləşib. Xüsusilə Ermənistan-Azərbaycan münaqişəsi dövründə beynəlxalq hüququn norma və prinsiplərinin ardıcıl tətbiq edilməməsi regionda uzunmüddətli qeyri-sabitliyin əsas səbəblərindən biri idi. Bu "təcrübə" bir daha göstərdi ki, beynəlxalq hüquq siyasi maraqlardan asılı vəziyyətə salındıqda nə ədalətə, nə də davamlı sülhə xidmət edə bilir.

Prezident İlham Əliyev sözügedən forumdakı çıxışında Fransanın Cənubi Qafqaz siyasətinə də toxundu və qeyd etdi ki, uzun illər ərzində rəsmi Paris Ermənistanı açıq şəkildə dəstəkləyən siyasət yürüdüb, Azərbaycanın ərazi bütövlüyünə münasibətdə qərəzli mövqe nümayiş etdirib. Xüsusilə bəzi Fransa şəhərlərinin və yerli idarəetmə strukturlarının qondarma "Dağlıq Qarabağ respublikası" ilə bağlı qəbul etdikləri qərarlar, eləcə də Fransada uzun müddət qondarma "Dağlıq Qarabağ"ın nümayəndəliyi kimi təqdim olunan strukturun fəaliyyət göstərməsi ölkəmizin haqlı etirazına səbəb olub.

Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq öz ərazi bütövlüyünü bərpa edəndən sonra Fransa tərəfindən nümayiş olunan qərəzli yanaşma iki ölkə arasında münasibətlərdə ciddi etimadsızlıq yaradıb. Dövlətimizin başçısı IV Şuşa Media Forumunda dedi: "Bilirsiniz, Fransa ilə münasibətlərimizə gəlincə, bəli, Fransanın ölkəmizin suverenliyinə münasibəti və qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınması ilə bağlı Fransada qəbul edilmiş qərarlar münasibətlərimizə müəyyən dərəcədə mənfi təsir göstərib. Hətta bu gün də Fransada mövcud olmayan qondarma "Dağlıq Qarabağ"ın qondarma səfirliyi fəaliyyət göstərir. Lakin bunlar nisbətən kiçik məsələlərdir. Söhbət Fransa ilə münasibətlərimizdən getmir. Söhbət beynəlxalq davranışın fundamental prinsiplərindən gedir".

XIX və XX əsrlərin Azərbaycanı xarici siyasi mərkəzlərdən idarə olunan, milli iradəsini tam ifadə edə bilməyən bir ölkə idi. Dövlətimizin iqtisadi sərvətləri üzərində qərarlar başqa paytaxtlarda qəbul olunur, siyasi taleyi xalqın iradəsindən kənarda müəyyən edilirdi. Bugünkü Azərbaycan isə tamamilə fərqlidir. Dövlətimiz öz daxili və xarici siyasətini müstəqil şəkildə müəyyənləşdirir, iqtisadi resurslarına özü sahib çıxır, regional və qlobal layihələrin əsas təşəbbüskarlarından biridir. "Bu gün də Bakının ətrafındakı çirklənmiş ərazilərin təmizlənməsi ilə məşğuluq. Sərvətlərimizi istismar edənlərin təbiətimizə vurduğu zərərin aradan qaldırılması üçün milyardlarla vəsait xərcləyirik. Ötən otuz ildən çox müddətdə isə Azərbaycan, artıq qeyd olunduğu kimi, orta gücə malik dövlətə çevrilib. Məhz müstəqilliyin bəhrəsi budur. Sovet İttifaqı dağılanda xatırlayıram ki, Rusiyada bir çox analitiklər deyirdilər: "Bu respublikalar məhv olacaq. Onlar mərkəz olmadan yaşaya bilməyəcəklər". Bəs nə baş verdi? Onların hamısı normal həyat yaşayır. Bəziləri daha firavan, bəziləri isə nisbətən az firavan yaşayır, amma onların heç biri məhv olmadı. Müstəqilliyin üstünlüyü də məhz budur", - deyə dövlətimizin başçısı IV Şuşa Media Forumunda xüsusi qeyd etmişdir.

Prezident İlham Əliyevin fikrincə, bu inkişaf yolu Azərbaycanın müstəqillik dəyərlərinə sadiqliyinin nəticəsidir və məhz buna görə ölkə bu gün azadlıq uğrunda mübarizə aparan xalqların səsini eşitməyə çalışır. Söhbət hansısa dövlətə qarşı siyasətdən deyil, beynəlxalq hüququn fundamental prinsiplərinə hörmətdən və bütün xalqların bərabər hüquqlara malik olması ideyasından gedir.

### Müstəqilliyə can atan xalqlarla həmrəylik

Müstəmləkəçilikdən əziyyət çəkən xalqların hüquqlarının beynəlxalq gündəmdə saxlanılması müasir insan hüquqları konsepsiyasının mühüm tərkib hissəsidir. İnsan hüquqları yalnız fərdi azadlıqlarla məhdudlaşmır. Bura xalqların azad yaşamaq, öz siyasi gələcəyini müəyyənləşdirmək, milli kimliyini qorumaq və iqtisadi inkişaf yolunu müstəqil seçmək hüququ da daxildir. Bu hüquqların hər hansı siyasi maraq naminə kölgədə saxlanılması beynəlxalq hüququn ruhuna uyğun gəlmir.

Müasir beynəlxalq münasibətlər sisteminin qarşısında duran əsas çağırışlardan biri insan hüquqları anlayışının yenidən öz universal mahiyyətinə qaytarılmasıdır. İnsan hüquqları siyasi rəqabətin, geosiyasi təsir mexanizmlərinin və ya ideoloji qarşıdurmaların alətinə çevrilməməlidir.

Prezident İlham Əliyev çıxışlarında Azərbaycanın Yeni Kaledoniya, Fransız Polineziyası, Martinika və Sen-Marten kimi ərazilərdə yaşayan xalqların azadlıq və öz müqəddəratını müəyyən etmək hüququna göstərdiyi dəstəyə də toxunur. Bu mövqe Azərbaycanın hansısa dövlətə qarşı yönəlmiş siyasətindən deyil, tarixi təcrübəsindən və beynəlxalq hüququn prinsiplərinə hörmətindən qaynaqlanır. Ölkəmiz hesab edir ki, müstəmləkəçilik yalnız tarixdə qalmalı, xalqlar öz gələcəklərini azad şəkildə müəyyən etmək imkanına malik olmalıdırlar. Bakı Təşəbbüs Qrupunun fəaliyyəti də məhz bu yanaşmanın praktik ifadəsi kimi qiymətləndirilməlidir. Azərbaycan da məhz bu platforma vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətini müstəmləkəçilikdən irəli gələn problemlərə yönəltməyə çalışır.

Xüsusi vurğulanmalıdır ki, IV Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin insan hüquqları və müstəmləkəçilik mövzusunda səsləndirdiyi fikirlər Azərbaycanın xarici siyasətində son illər formalaşan mühüm istiqamətlərdən birini əks etdirir. Bu yanaşmanın mərkəzində insan hüquqlarına universal prinsip kimi yanaşılması, beynəlxalq hüququn birtərəfli tətbiqinə etiraz və müstəmləkəçilikdən əziyyət çəkən xalqların hüquqlarının müdafiəsinə dəstək dayanır.

Universal dəyərlərin etibarı yalnız onların hamıya bərabər şəkildə tətbiq edilməsi ilə qoruna bilər. İnsan hüquqları müxtəlif regionlar üçün fərqli meyarlarla qiymətləndirilirsə, bu zaman həm beynəlxalq hüququn legitimliyi, həm də qlobal ədalət anlayışı zədələnir. Buna görə də insan hüquqları ilə bağlı yanaşmalar siyasi maraqlardan deyil, beynəlxalq hüququn fundamental prinsiplərindən, dövlətlərin suverenliyinə hörmətdən və bütün xalqların bərabər hüquqlara malik olması ideyasından çıxış etməlidir. Yalnız bu halda insan hüquqları həqiqətən də bütün bəşəriyyət üçün ortaq dəyər kimi qəbul edilə və beynəlxalq münasibətlərdə ədalətli, etibarlı və sabit sistemin formalaşmasına real töhfə verə bilər.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Özbəkistan münasibətləri qarşılıqlı hörmət və etimada əsaslanır

**Azərbaycan və Özbəkistan arasında münasibətlər yüksək səviyyədədir. Tarixi, mədəni və mənəvi bağlara söykənən əlaqələr siyasi, iqtisadi və geostrateji əməkdaşlığın vacib nümunəsi kimi inkişaf edir. Dövlət başçılarının qarşılıqlı etimada əsaslanan intensiv təmasları, müntəzəm səfərləri və qəbul olunan mühüm qərarlar bu münasibətləri türk dünyasında dinamik inkişaf edən tərəfdaşlıqlardan birinə çevirib.**

**Milli Məclisin deputatı Nigar MƏMMƏDOVA** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin doğum günü münasibətilə Özbəkistanın dövlət başçısı Şavkat Mirziyoyevə ünvanladığı təbrikdə də ölkələrimiz arasında formalaşmış yüksək siyasi etimad və strateji tərəfdaşlıq xüsusi qeyd olunub. Telefon danışığı zamanı Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətinə toxunulub, əlaqələrin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub. "Son illər qarşılıqlı dövlət səfərləri, beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlər və Ali Dövlətlərarası Şuranın fəaliyyəti münasibətlərin institusional əsaslarını daha da gücləndirib. Nəticədə, iki ölkə arasında əməkdaşlıq geniş sahələri əhatə edir. Müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanması isə əlaqələrin inkişafında tarixi mərhələ hesab olunur. Bu sənəd göstərir ki, Bakı və Daşkənd uzunmüddətli strateji maraqlarını uzlaşdıraraq regional və beynəlxalq məsələlərdə daha sıx koordinasiya etməyə hazırdır. Belə yanaşma Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın güclənməsinə də mühüm töhfə verir. Cənab Prezidentin söylədiyi kimi, Azərbaycan ilə Özbəkistan arasında münasibətlər qardaşlıq, qarşılıqlı hörmət və etimada əsaslanır. Bizim əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək", - deyə Nigar Məmmədova əlavə edib.



Deputat qeyd edib ki, Özbəkistan Azərbaycanı özünə ən yaxın ölkələrdən biri hesab edir. Bu, Özbəkistanın dövlət başçısı Ş.Mirziyoyev tərəfindən də dəfələrlə bəyan edilib. Ölkələrimiz arasında siyasi əlaqələrlə yanaşı, iqtisadi əməkdaşlıq da yüksələn xətt üzrə inkişaf edir. Qarşılıqlı investisiyaların artırılması, birgə sənaye layihələrinin həyata keçirilməsi, Orta dəhliz və Trans-Xəzər nəqliyyat marşrutlarının inkişafı iki ölkənin iqtisadi maraqlarını daha da yaxınlaşdırır.

N.Məmmədova vurğulayıb ki, Azərbaycanın logistika imkanları ilə Özbəkistanın Mərkəzi Asiyadakı iqtisadi potensialının vəhdəti regionun yeni geoiqtisadi xəritəsində mühüm rol oynayır: "Yeri gəlmişkən, qardaş Özbəkistanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına verdiyi dəstək də yüksəksəviyyəli münasibətlərin əyani ifadəsidir. Füzulidə məktəbin tikintisi, Xankəndidə fəaliyyət göstərən tikiş fabriki kimi birgə təşəbbüslər dostluğun konkret layihələrdə öz əksini tapdığını göstərir. Azərbaycan-Özbəkistan münasibətləri həm də türk dünyasının birliyinin və həmrəyliyinin nümunələrindən biridir. Bakı ilə Daşkənd arasında artan təmaslar, yeni iqtisadi layihələr və siyasi koordinasiya bütövlükdə türk dünyasının inkişafına, regional sabitliyə və əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Rusiya-Ermənistan münasibətlərinə aid mövzuların Azərbaycanla əlaqəli şəkildə şərh edilməsi təcrübəsinə son qoyulmalıdır



**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın Qarabağ bölgəsi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib.**

AZƏRTAC xəbər verir ki, XİN-in mətbuat katibi Ayxan Hacızadə yerli medianın bu barədə sualını cavablayıb.

Qeyd olunub ki, Mariya Zaxarovanın keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı növbəti dəfə səsləndirdiyi fikirlər reallığın təhrif olunmasıdır.

Qarabağ bölgəsi beynəlxalq ictimaiyyət, o cümlədən Rusiya Federasiyası tərəfindən hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb. Bu səbəbdən, KTMT mexanizmlərinin 30 il ərzində Ermənistanın işğalı altında saxlanmış Azərbaycanın suveren ərazilərinə münasibətdə tətbiq edilməsi məsələsini davamlı şəkildə gündəmdə saxlamaq cəhdi və bunun Qarabağ bölgəsinin Ermənistan tərəfindən tanınıb-tanınmaması ilə əlaqələndirilməsi Rusiya tərəfinin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı rəsmi mövqeyinə zidd olmaqla yanaşı, tamamilə əsassızdır.

Vurğulanıb ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini beynəlxalq hüququn tələblərinə uyğun olaraq bərpa edib və bununla keçmiş münaqişə həll olunub. Bu çərçivədə, Rusiya-Ermənistan münasibətlərinə aid mövzuların Azərbaycanla əlaqəli şəkildə şərh edilməsi təcrübəsinə son qoyulmalıdır.




# Etibarlı tərəfdaş, lider dövlət, sülhün ünvanı

## Ölkəmiz böyük təşkilatlara üzvlüyü və sədrliyi, dünyamiqyaslı tədbirlərin uğurlu məkanı olması ilə qlobal səviyyədə diqqət çəkir

**Azərbaycanın beynəlxalq platformalara uğurlu sədrliyi qlobal müzakirə mövzularına və əməkdaşlıq formatına yeni məzmun, dinamika və etimad mühiti gətirən strateji missiyadır. Bakı sədrlik etdiyi hər bir beynəlxalq təşkilatı qlobal həmrəyliyin və tərəfdaşlığın unikal platformasına çevirir. Bu yanaşma ölkəmizin yalnız regionda deyil, qlobal miqyasda sülhün, təhlükəsizliyin və çoxşaxəli əməkdaşlığın həlledici mərkəzi olduğunu bir daha təsdiqləyir. Azərbaycanın 2024-cü ildən etibarən Asiyanın ən böyük dialoq platformalarından biri sayılan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) uğurla sədrlik etməsi də bu uğurlu xarici siyasət kursunun məntiqi davamıdır.**

### Artan beynəlxalq nüfuz

Bu gün Azərbaycan beynəlxalq miqyasda həlledici qərarların verildiyi, strateji təşəbbüslərin irəli sürülüb icra olunduğu və dünyamiqyaslı mötəbər tədbirlərin keçirildiyi önəmli mərkəzə çevrilib. Ölkəmizdə regional və beynəlxalq səviyyəli forumların, sammitlərin təşkili artıq ənənə halını alıb. Bu ənənə, təbii ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən məqsədyönlü və uzaqgörən xarici siyasət kursunun, Azərbaycanın sürətlə artan beynəlxalq nüfuzunun və qlobal miqyasda qazanılmış böyük etimadın parlaq göstəricisidir.

Beynəlxalq müstəvidə qazanılan uğurlar təsadüfi olmayıb, illər boyu ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən strateji fəaliyyətin, uğurlu sədrlik təcrübəsinin nəticəsidir. 2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu dövrdəki sədrlik fəaliyyəti diplomatiyamızın böyük uğurlarındandır. Həmin dövrdə Azərbaycanın sədrliyi ilə terrorizmlə mübarizəyə dair yüksəksəviyyəli iclaslar keçirilib, qlobal sülh və təhlükəsizliyin qorunmasında hüququn aliliyi prinsipi qətiyyətlə müdafiə olunub.

2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə altıaylıq sədrliyi dövründə Avropanın hüquqi və humanitar məkanında mühüm gündəlik formalaşdıran Azərbaycanın sədrliyinin əsas prioritetləri korrupsiya ilə mübarizə, mədəniyyətlərarası dialoq və gənclər siyasəti idi.

2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına sədrlik dövrü türk dünyasının birliyinin möhkəmlənməsində mühüm mərhələ oldu.

Ölkəmiz bəşəri qərarların qəbuluna və icrasına birbaşa töhfələr verir. Buna dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatının (QH) da məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşaması nümunədir.

2019-cu ildə Bakıda QH-nin Zirvə toplantısını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan 2022-ci ilə qədər sədrliyi üzərinə götürdü. Yenə də ölkəmizə böyük hörmət və yüksək etimadın nəticəsi olaraq 120 ölkənin yekdil qərarı ilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilin axırınadək uzadıldı. Hərəkata sədrlik etdiyi dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirildi. Xüsusən dövlətimizin rəhbərinin təşəbbüsləri ilə QH-nin pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olundu. 2021-ci ilin dekabr ayında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edildi.

Bu uğurlu xarici siyasət kursunun məntiqi davamı olaraq, ölkəmiz 2024-cü ildən etibarən Asiyanın ən böyük dialoq platformalarından biri sayılan AQEM-ə uğurla sədrlik edir. 28 üzv dövlətin yekdil konsensusu ilə rəhbərliyə seçilən Azərbaycan öz fəaliyyətini "Daha güclü AQEM: rəqəmsallaşma, bağlantılar və Asiyada dayanıqlı inkişaf" konseptual xətti üzərində qurub. Azərbaycan bu il keçiriləcək Zirvə görüşünədək təşkilatın məşvərətçi platformadan tamhüquqlu beynəlxalq təşkilata çevrilməsi üçün Nizamnaməni yekunlaşdırmağı və institusiyalaşmanı tamamlamağı hədəfləyir.

### Qlobal etimadın təzahürü

Ölkəmizin beynəlxalq müstəvidə artan çəkisi və diplomatik nüfuzu yalnız təşkilatlara sədrlik etməsi ilə bitmir. Dünya siyasətinin əsas güc mərkəzləri və strateji alyansları Azərbaycanı öz sıralarında görməkdə yekdildirlər. Son dövrlər əldə olunan tarixi üzvlük uğurları bunun bariz sübutudur.

30 ilə yaxın fəaliyyət göstərən, 8 böyük müsəlman ölkəsini və 1,2 milyarddan çox əhalini bir araya gətirən D-8 təşkilatı yarandığı gündən bəri öz sırasına heç bir əlavə üzv qəbul etməmişdi. Təşkilatın tarixi boyunca genişlənmə haqqında birinci qərarı və qəbul etdiyi ilk tamhüquqlu üzv məhz Azərbaycan oldu.

Bütün üzv dövlətlərin yekdil konsensusu ilə qəbul edilən bu tarixi qərar islam dünyasının və böyük iqtisadi potensiala malik dövlətlərin Azərbaycana, onun iqtisadi modelinə və geosiyasi çəkisinə olan sonsuz etimadının göstəricisidir. Azərbaycanın D-8-ə qoşulması təşkilatın coğrafiyasını Qafqaz və Xəzər regionuna qədər genişləndirməklə yanaşı, Orta dəhliz və qlobal ticarət marşrutları üzərində Bakının əvəzsiz rolunu bir daha təsdiqləyir.

Ötən il Azərbaycanın tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə qəbul edilməsi ölkəmizin növbəti diplomatik uğurudur. Regional çərçivədən kənarda yerləşməsinə baxmayaraq, ölkəmizin bu formata tamhüquqlu iştirakçı kimi daxil edilməsi Cənubi Qafqaz ilə Mərkəzi Asiyanın vahid bir geostrateji və iqtisadi məkan kimi birləşdiyini, Azərbaycanın isə bu iki böyük region arasında əvəzolunmaz körpü və lokomotiv rolu oynadığını rəsmiləşdirir.

Ölkəmizin ardıcıl və məqsədyönlü sədrlik təcrübəsi Azərbaycanı həm də qlobal miqyaslı nəhəng tədbirlərin təşkil olunduğu etibarlı məkana çevirib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ilə bağlı beynəlxalq ictimaiyyət tərəfindən yekdil qərar verilməsi də ölkəmizə göstərilən böyük etimadın təzahürü idi.

Bütün bu tarixi nailiyyətlər göstərir ki, Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən və çevik diplomatiya sayəsində Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində özünəməxsus mövqeyini qətiyyətlə möhkəmləndirib. BMT Təhlükəsizlik Şurasından Qoşulmama Hərəkatına, TDT-dən AQEM-ə qədər müxtəlif coğrafiyaları və siyasi qütbləri əhatə edən nəhəng platformalara uğurlu sədrlik təcrübəsi ölkəmizi qlobal dialoqun aparıcı mərkəzinə çevirib.

Bütün bu uğurlu sədrliklər və qlobal fəaliyyət Azərbaycanın dünya miqyasında etibarlı tərəfdaş, lider dövlət və sülhün ünvanı olduğunu bir daha sübut edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Sabitlik və etimad məkanı

## Prezident İlham Əliyevin praqmatik siyasəti Azərbaycanın təhlükəsizliyinin, dayanıqlı inkişafının və etibarlı tərəfdaş statusunun əsas təminatıdır

**Dünya öz tarixinin qeyri-müəyyən və münaqişələrlə zəngin dövrünü yaşayır. Böyük güclər arasında rəqabətin kəskinləşməsi və qarşıdurma coğrafiyasının genişlənməsi beynəlxalq münasibətləri arzuolunmaz həddə gətirib. İllərdir davam edən Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə yenidən alovlanan hadisələr göstərir ki, BMT kimi qurumlar və təsdiqlənən beynəlxalq hüquq normaları artıq çəkindirici funksiyalarını itirib. Heç şübhəsiz, "güclünün haqlı olduğu" bu mürəkkəb dövrdə hərbi-siyasi qarşıdurmaların ən ciddi zərbəsi dünya iqtisadiyyatına və sivil əhaliyə dəyir.**

Planetin bir çox məkanının iflic vəziyyətə düşdüyü bir şəraitdə Azərbaycan tamamilə fərqli siyasət ortaya qoyur. Ölkəmiz ətraf bölgələrdə cərəyan edən gərgin proseslərin ortasında daxili nizamını qoruyan, sosial-iqtisadi dayanıqlılığını artıran, eləcə də dünya üçün etibarlı tərəfdaş olan unikal bir dövlətə çevrilir və sabitlik adası kimi dəyərləndirilir. Təsadüfi deyil ki, Almaniya Prezidenti Frank-Valter Ştaynmayer də dövlətimizin başçısı ilə görüşündə Azərbaycanı dünyadakı proseslər fonunda "sabitlik adası" kimi xarakterizə edib.

Azərbaycanın təhlükəsizlik və sabitlik unvanına çevrilməsi Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən, milli maraqlara söykənən dövlətçilik kursunun birbaşa nəticəsidir. Dövlətimizin başçısının qəbul etdiyi qərarların uzunmüddətli hədəflərə hesablanması, daxili və xarici risklərin vaxtında neytrallaşdırılması Azərbaycanı böyük güclərin toqquşma poliqonu olmaqdan xilas edib.

İndiki dönəmdə ən böyük problemlərdən biri etibarlı dialoq platformalarının azlığıdır. Azərbaycan isə şərqlə qərbin, şimalla cənubun kəsişməsində yerləşərək fərqli siyasi qütblərin maraqlarını ortaq nöqtəyə gətirməyi bacaran birləşdirici rol oynayır. Heç bir hərbi bloka daxil olmadan Qoşulmama Hərəkatına uğurla sədrlik edən rəsmi Bakı bütün tərəflərlə bərabərhüquqlu və açıq diplomatiya yürüdür. NATO və Rusiya generallarının, yaxud ABŞ və Rusiya rəsmilərinin ən gərgin vaxtlarda məhz Bakıda görüşmələri də ölkəmizə olan qlobal etimadın bariz nümunəsidir.

Azərbaycanın hərb tarixinə yazılan 44 günlük Vətən müharibəsindəki Zəfəri və 2023-cü ilin lokal antiterror tədbirləri dövlətimizin gücünün bütün dünyaya nümayişi oldu. Bir çox münaqişənin illərlə "dondurulmuş" halda saxlanılmasına baxmayaraq, Azərbaycan öz torpaqlarını işğaldan azad edərək suverenliyini tam bərpa etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu mütləq qələbə beynəlxalq güclərin münaqişədən təzyiq aləti kimi istifadə etmək cəhdlərini də birdəfəlik iflasa uğratdı. Azərbaycan böyük Zəfərdən sonra Ermənistana davamlı sülhü və əməkdaşlığı təklif etdi. Bu gün Cənubi Qafqazda yaranmış yeni reallıqlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyinə söykənir. Hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri isə ölkəmizin qurucu gücünü göstərir.

Ölkəmizin dünya sülhünə verdiyi töhfələr qlobal problemlərin həllinə yönəlmiş irimiqyaslı təşəbbüslərdə də özünü göstərir. İşğaldan azad edilmiş ərazilərdə müasir standartlara uyğun quruculuq işləri aparılır ki, bu da Azərbaycanın şəhərsalma sahəsində qabaqcıl təcrübəsini ortaya qoyur. Məhz bu unikal təcrübənin nəticəsi olaraq ölkəmizdə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü Sessiyası keçirildi. İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübəyə malik olan Azərbaycan bu cür platformalar sayəsində həm də özünün qurucu və bəşəri dəyərlərə söykənən inkişaf modelini dünyaya təqdim edir.

Azərbaycanın təhlükəsizlik və sabitlik mühiti dünya nəhənglərinin də diqqət mərkəzindədir. Hazırda ABŞ, Avropa İttifaqı və Çin kimi böyük güclər rəsmi Bakı ilə əlaqələri dərinləşdirməyə xüsusi önəm verirlər. Avropa İttifaqı üçün Azərbaycan alternativ enerji mənbəyi və Mərkəzi Asiyaya açılan qapıdır. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycan qazını alır, "yaşıl enerji" layihələri tərəfdaşlığı daha da möhkəmləndirir. O cümlədən, Çin tərəfindən ölkəmiz qlobal "Bir kəmər, bir yol" layihəsinin risklərdən uzaq önəmli mərkəzi kimi dəyərləndirilir. Eyni zamanda ABŞ-nin nəzərində Azərbaycan Avrasiyanın enerji və nəqliyyat xəritəsində mühüm mərkəzdir.

Ənənəvi beynəlxalq marşrutların təhlükəsizliyini itirdiyi bir vaxtda Orta dəhlizin önəmi dəfələrlə artıb. Azərbaycan illər öncədən reallaşdırdığı Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, müasir yollar və hava limanları infrastrukturu ilə dünya ticarətinin əsas xilaskarlarından birinə çevrilib. Çindən çıxan yüklərin Avropaya qısa və təhlükəsiz çatdırılması, eyni zamanda Zəngəzur dəhlizi (TRIPP) kimi perspektivli layihələr ölkəmizin əhəmiyyətini daha da artırıb.

Bir dövlətin daxili təhlükəsizliyinin və siyasi sabitliyinin ən önəmli amili cəmiyyətin öz rəhbərinə inamıdır. Ölkəmizdə keçirilən rəy sorğularının nəticələri də birmənalı nümayiş etdirir ki, Azərbaycanın bütün uğurlarının arxasında sarsılmaz xalq-lider həmrəyliyi durur. Davamlı həyata keçirilən sosialyönümlü siyasət, vətəndaş rifahının daim diqqətdə saxlanılması və multikultural dəyərlərin qorunması cəmiyyətin möhkəm birliyini formalaşdırır. Məhz bu birlik Azərbaycanı daxili və ya xarici təhdidlərdən qoruyan qalxan rolunu oynayır.

Nəticə etibarı ilə, dünyanı bürüyən böhranlar fonunda Azərbaycanın nümayiş etdirdiyi inkişaf və sabitlik formulu bir daha sübuta yetirir ki, həqiqi güc müstəqil siyasi iradə nümayiş etdirmək və milli maraqları qətiyyətlə qorumaq bacarığı ilə ölçülür. Doğru seçilmiş kurs ölkəni hər cür riskdən sığortalamağa qadirdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan bu uğurlu model Azərbaycanın gələcək inkişafının, təhlükəsizliyinin və beynəlxalq müstəvidəki yüksək statusunun ən etibarlı zəmanətidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# *İsmail ERMAĞAN:* "Orta dəhlizin əhəmiyyəti Azərbaycanın liderliyi ilə daha da artır"

**"Dünya ticarət marşrutları yenidən formalaşır. Xüsusilə Çinin "Bir kəmər, bir yol" təşəbbüsü tarixi İpək yolunun müasir versiyası kimi qiymətləndirilir. Bu marşrutda Orta dəhliz mühüm əhəmiyyət kəsb edir. Bunun əsas səbəbi isə "Cənub" dəhlizinin Hörmüz və Babülməndəb boğazlarında mövcud olan müharibə riskləri səbəbindən əvvəlki əhəmiyyətini itirməsidir. Bu baxımdan həm "Bir kəmər, bir yol" təşəbbüsündə, həm də "Şərq-Qərb" nəqliyyat marşrutunda Mərkəzi Asiya dövlətlərinin rolu daha da artıb. Bu çərçivədə Azərbaycanın liderliyi ilə Orta dəhlizin əhəmiyyətinin daha da yüksəldiyini müşahidə edirik".**




Bu fikirləri AZƏRTAC-a açıqlamasında **İstanbul Mədəniyyət Universitetinin professoru, beynəlxalq münasibətlər üzrə elmlər doktoru İsmail ERMAĞAN** deyib.

Onun sözlərinə görə, Mərkəzi Asiya, Cənubi və Qərbi Asiya, həmçinin Avropaya uzanan nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycan son illərdə həyata keçirdiyi çoxşaxəli xarici siyasətin nəticələrini həm energetika, həm ticarət, həm də logistika sahələrində görür. Bu xüsusda Türkiyə ilə birgə reallaşdırdığı enerji layihələri xüsusi əhəmiyyət daşıyır. Azərbaycan, xüsusilə Türkiyə ilə həyata keçirdiyi təşəbbüslər sayəsində Orta dəhlizin Avropa ölkələri və Asiya-Sakit okean regionu tərəfindən qəbul olunmasında önəmli rol oynayır.

İ.Ermağan qeyd edib ki, gələcəkdə ticarət marşrutlarının daha çox şimala, Arktika regionuna yönəlməsi ehtimalı Orta dəhlizin həm əhəmiyyətinin, həm də yükdaşıma həcminin daha da artacağını göstərir.

"Məsələn, Qazaxıstanın enerji ixracı ilə bağlı çətinlikləri nəzərə alsaq, Azərbaycan və Türkiyə ilə Orta dəhliz vasitəsilə ortaq bir strateji baxış formalaşdırılsaydı, hazırda bəzi regionlarda neft axtarışlarının dayandırılması baş verməzdi. Bu layihə region dövlətləri üçün strateji nailiyyətdir. Böyük dövlətlərin təsirinin azalması fonunda orta və kiçik dövlətlərə mühüm üstünlüklər qazandıracaq. Orta dəhlizin strateji, iqtisadi, siyasi və geoiqtisadi əhəmiyyəti qarşıdakı dövrdə daha da artacaq.

Azərbaycanın Almaniya kimi Avropanın aparıcı ölkələri, Yaxın Şərq dövlətləri, o cümlədən İsrail, Türkiyə və digər türk dövlətləri ilə inkişaf etdirdiyi nümunəvi əməkdaşlıq modeli də Orta dəhlizin gələcəkdə daha fəal fəaliyyət göstərəcəyini nümayiş etdirir", - deyə İ.Ermağan vurğulayıb.

# ONESXM təşkilatı Fransanın müstəmləkəçilik siyasətini pisləyərək Bakı Təşəbbüs Qrupuna dəstəyini ifadə edib

**Fransa və Niderland tərəfindən 2 hissəyə bölünərək faktiki işğal altında saxlanılan Saint Martin adasının azadlığı uğrunda barışmaz mübarizə aparan nüfuzlu ONESXM təşkilatı Azərbaycana dəstək ifadə edən bəyanat yayıb.**

Təşkilat Fransa Milli Assambleyasının 3 deputatının Azərbaycanın və Bakı Təşəbbüs Qrupunun dekolonizasiya prosesinə dəstəyini hədəf alan ittihamlarını qətiyyətlə rədd edib. Müstəqillik hərəkatı tərəfdarları fransız parlamentarilərin Azərbaycan Prezidentinin fikirlərini "Fransanın daxili işlərinə qarışmaq" kimi qələmə verməsinə sərt reaksiya göstəriblər.

AZƏRTAC xəbər verir ki, bu barədə ONESXM Assosiasiyasının Fransanın müstəmləkəçilik siyasətinə qarşı mövqeyini və Bakı Təşəbbüs Qrupuna dəstəyini əks etdirən bəyanatında bildirilib.

Bəyanatda vurğulanıb ki, müstəmləkəçilik və xalqların öz müqəddəratını təyin etməsi Fransanın daxili işi sayıla bilməz. Bu məsələlər beynəlxalq hüquq normaları, BMT Nizamnaməsinin 1-ci maddəsi (xalqların bərabər hüquqluluğu və öz müqəddəratını təyin etməsi prinsipi) və BMT Baş Assambleyasının 1960-cı ildə qəbul etdiyi müstəmləkə idarəçiliyinə son qoyulmasını tələb edən 1514 saylı qətnaməsi ("Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında Bəyannamə") ilə tənzimlənir. Bu baxımdan, assosiasiya müstəmləkə idarəçiliyindən əziyyət çəkən xalqların səsini dünyaya çatdıran Bakı Təşəbbüs Qrupunun missiyasını tamamilə legitim, qanuni və təqdirəlayiq hesab edir.




Yeni Kaledoniya və Fransız Polineziyası kimi bölgələrin hələ də BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısında qaldığını xatırladan ONESXM təşkilatı rəsmi Parisin "fransız təbəəliyi" adı altında apardığı siyasətin real bərabərsizliyi və yerli xalqların fundamental hüquqlardan məhrum edilməsini gizlədə bilmədiyini vurğulayaraq, Saint Martində xalqa tam müstəqillik üçün "bəli" yaxud "xeyr" seçimi veriləcək rəsmi referendumun dərhal təşkil olunmasını tələb edir.

ONESXM Assosiasiyasının bəyanatı bir daha göstərir ki, Parisin təhdid, təzyiq və "daxili işlərə qarışma" bəhanəsi dekolonizasiya tələblərini susdurmağa qadir deyil. Karib hövzəsindən Sakit okeanadək Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparan xalqlar öz səslərini məhz Bakı Təşəbbüs Qrupunun yaratdığı beynəlxalq platforma vasitəsilə daha geniş auditoriyaya çatdırır, mövqelərini uzlaşdırır və qlobal həmrəylik nümayiş etdirirlər. Bakı Təşəbbüs Qrupu bu mübarizəni ayrı-ayrı ərazilərin lokal etirazı çərçivəsindən çıxararaq beynəlxalq dekolonizasiya gündəliyinin mühüm istiqamətlərindən birinə çevirir. ONESXM-in mövqeyi Parisə ünvanlanan aydın mesajdır: müstəmləkəçilik dövrü başa çatmalı, xalqların azad seçim və öz müqəddəratını təyinetmə hüququ isə heç bir siyasi təzyiq, təhdid və manipulyasiya ilə əngəllənməməlidir.

# "Azərbaycan Prezidentinin Almaniya səfəri və imzalanan sənədlər ölkəmizin enerji siyasətinin uzaqgörən olduğunu deməyə əsas verir"

**"Hazırda baş verən iki qlobal xarakterli müharibə dünya iqtisadiyyatını böhranlı vəziyyətə salaraq istehlak mallarının qiymətlərini artırmaqla yanaşı, inflyasiyaya səbəb olur. Həm Rusiya ilə Ukrayna, həm də İran ilə ABŞ arasında baş verən silahlı toqquşmalar dünya enerji bazarına birbaşa mənfi təsir göstərir. İqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan enerji resurslarının qiymətlərinin artması isə zəncirvari reaksiya kimi bütün məhsulların qiymətlərinin yüksəlməsinə gətirib çıxarır ki, bu da yanacağı idxal edən ölkələr üçün daha böyük çətinliklər yaradır".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Sadiq QURBANOV** deyib. O bildirib ki, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri və səfər çərçivəsində imzalanan sənədlər rəsmi Bakının həyata keçirdiyi enerji siyasətinin nə qədər dəqiq və uzaqgörən olduğunu deməyə əsas verir. Dünyada Azərbaycandan da çox neft və qaz ehtiyatlarına malik olan ölkələr var. Lakin bu ölkələri ayrı-ayrılıqda nəzərdən keçirsək görərik ki, onlar praqmatik siyasi xətt yürüdə bilməyib, təbii ehtiyatlar yalnız şəxsi varlanmaq üçün və daxili siyasətdə alət olaraq istifadə edilib. Təbii ehtiyatlar heç bir strategiya olmadan xammal kimi xaricə satılıb və əldə edilən gəlirlər milli iqtisadiyyatı deyil, siyasi qrupların hakimiyyət uğrunda mübarizəsinə sərf olunub: "Lakin Azərbaycanda əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası ölkəmizin inkişafına xidmət edir. Prezident İlham Əliyev müasir dövrün trendini diqqətlə izləyərək təbii qazın ixracını həm iqtisadi, həm də siyasi dividendlər qazanmaq üçün istifadə edir".

Deputat deyib: "İlk növbədə ölkədə geniş infrastruktur yaradılıb ki, bu da iqtisadiyyatın digər sahələrinin də inkişafına stimul verir. Məhz neft gəlirləri hesabına Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və bir sıra başqa beynəlxalq ticarətdə əhəmiyyətli rol oynayan layihələr həyata keçirilib. Bu layihələr Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) yaranmasına və Avropa ilə Çin arasındakı ticarət əlaqələrinin inkişafında ölkəmizin mühüm logistika mərkəzinə çevrilməsinə gətirib çıxarıb. Mütəxəssislərin hesablamasına görə, 2030-cu ilə kimi Orta dəhlizlə yükdaşımanın həcmi 11 milyon tona çatacaq. Konteyner tranzitinin həcmi isə 130 min TEU-yə qədər arta bilər. Bu qədər yükün daşınması üçün Orta dəhlizin davamı kimi Zəngəzur dəhlizinin aktuallığı daha da artacaq. Yüklər Avropadan Türkiyəyə və Zəngəzur dəhlizi ilə Mərkəzi Asiya və Çinə çatdırılacaq. Orta dəhlizin dünya siyasətində və Avrasiyada artan önəmi, keçdiyi marşrutun təhlükəsizliyi, qısalığı və ucuzluğu, eləcə də hansı dövlətlərə aid olması baxımından əhəmiyyətlidir. Məsələyə bu aspektdən yanaşdıqda Prezident İlham Əliyevin Almaniyaya səfəri zamanı "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə"nin imzalanmasının təsadüfi xarakter daşımadığını görərik".

Sadiq Qurbanov qeyd edib ki, Birgə Bəyannamədə enerji ilə yanaşı, nəqliyyat, tranzit, investisiya, kənd təsərrüfatı və başqa sahələrdə də strateji xarakter daşıyan əməkdaşlıq nəzərdə tutulub: "Bu da qeyd etdiyimiz kimi, ölkəmizə iqtisadi dividendlə yanaşı, həm də siyasi dəstək qazandırır. Bu siyasi dəstək ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi Avropa institutları tərəfindən qarant altına alınır. Çünki başda Almaniya olmaqla, Avropa iqtisadi maraqlarını siyasi ambisiyalara qurban verərək Azərbaycana qarşı hər hansı bir təhdidin reallaşmasına imkan verməz. Bu, Prezident İlham Əliyevin Azərbaycana beynəlxalq aləmdə qazandırdığı ən böyük uğurdur".

# Orta dəhliz Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm təsir göstərir

**"Orta dəhliz Asiya ilə Avropanı birləşdirən mühüm beynəlxalq nəqliyyat və ticarət layihələrindən biridir. Azərbaycanın əlverişli coğrafi mövqeyi, Şərq ilə Qərb arasında yerləşməsi və inkişaf etdirdiyi nəqliyyat infrastrukturu ölkəmizi bu dəhlizin əsas iştirakçılarından birinə çevirir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Novruzəli ASLANOV** söyləyib.

O bildirib ki, son illərdə qlobal ticarət əlaqələrinin genişlənməsi, yeni logistika marşrutlarına ehtiyacın artması və təhlükəsiz nəqliyyat yollarının əhəmiyyət qazanması Orta dəhlizin rolunu daha da artırıb. Bu baxımdan Azərbaycan üçün Orta dəhliz yalnız nəqliyyat layihəsi deyil, həm də iqtisadi inkişafı, beynəlxalq əməkdaşlığı və strateji mövqeyi gücləndirən mühüm amildir.

## Orta dəhlizin Azərbaycan üçün əhəmiyyəti və iqtisadi faydaları

"Orta dəhlizin əsas üstünlüklərindən biri Azərbaycanın tranzit imkanlarını genişləndirməsidir. Ölkəmizin yerləşdiyi coğrafi mövqe onu Avropa ilə Asiya arasında təbii körpüyə çevirir. Azərbaycan ərazisindən keçən nəqliyyat xətləri müxtəlif regionlar arasında yükdaşımaların daha sürətli və səmərəli həyata keçirilməsinə imkan yaradır.

Bu layihə Azərbaycanın nəqliyyat-logistika sahəsində rolunu artırır və ölkəni beynəlxalq ticarət yollarının mühüm mərkəzlərindən birinə çevirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, müasir avtomobil yolları və logistika mərkəzləri Orta dəhlizin fəaliyyətində mühüm əhəmiyyət daşıyır. Bu infrastruktur layihələri Azərbaycanın regional və qlobal nəqliyyat sistemində mövqeyini gücləndirir", - deyə N.Aslanov vurğulayıb.

Deputat qeyd edib ki, Orta dəhlizin inkişafı Azərbaycan iqtisadiyyatına mühüm töhfələr verir. İlk növbədə, tranzit daşımaların artması ölkəyə əlavə gəlirlər gətirir və nəqliyyat sektorunun inkişafına şərait yaradır. Yükdaşıma həcminin artması logistika, gömrük, xidmət və digər əlaqəli sahələrin inkişafına səbəb olur.

Dəhliz, eyni zamanda qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərir. Yeni logistika mərkəzlərinin yaradılması, nəqliyyat xidmətlərinin genişlənməsi və xarici investisiyaların cəlb olunması iqtisadiyyatın şaxələndirilməsinə imkan verir. Bu proses yeni iş yerlərinin yaranmasına, sahibkarlıq fəaliyyətinin genişlənməsinə və ölkənin iqtisadi imkanlarının artmasına şərait yaradır.

Orta dəhliz Azərbaycanın ixrac potensialının artırılması baxımından da əhəmiyyətlidir. Bu marşrut vasitəsilə yerli məhsulların xarici bazarlara daha rahat çıxışı təmin olunur, ölkənin beynəlxalq ticarət əlaqələri genişlənir.

## Orta dəhlizin Azərbaycanın beynəlxalq nüfuzuna təsiri və inkişaf imkanları

"Orta dəhliz Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm təsir göstərir. Bu layihə ölkəmizi Avropa və Asiya arasında etibarlı tərəfdaş və mühüm nəqliyyat qovşağı kimi tanıdır. Azərbaycan müxtəlif dövlətlərlə iqtisadi və siyasi əməkdaşlığını genişləndirərək regional əlaqələrin inkişafında fəal rol oynayır.

Dəhlizin həyata keçirilməsi Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Ölkəmiz Şərq ilə Qərb arasında əlaqələrin möhkəmlənməsinə töhfə verir və beynəlxalq layihələrdə mühüm tərəfdaş kimi çıxış edir. Bu isə Azərbaycanın qlobal miqyasda tanınmasına və beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsinə şərait yaradır.

Orta dəhliz həmçinin Azərbaycanın regional sabitliyə və əməkdaşlığa verdiyi töhfəni nümayiş etdirir. Müxtəlif ölkələrin bu layihə ətrafında birləşməsi qarşılıqlı iqtisadi maraqların artmasına və uzunmüddətli tərəfdaşlıq əlaqələrinin formalaşmasına kömək edir.

Gələcəkdə Orta dəhlizin daha da inkişaf etdirilməsi Azərbaycanın nəqliyyat və logistika imkanlarını artıracaq. Yeni texnologiyaların tətbiqi, rəqəmsal həllərin genişləndirilməsi və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi yükdaşımaların daha səmərəli təşkilinə imkan verəcək.

Bu layihənin inkişafı Azərbaycanın regionda mühüm logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirə bilər. Eyni zamanda ölkənin iqtisadi əlaqələrinin genişlənməsinə, yeni investisiya imkanlarının yaranmasına və beynəlxalq əməkdaşlığın daha da güclənməsinə şərait yaradacaq", - deyə deputat əlavə edib.

# ABŞ Konqresinin növbəti qərəzli addımı erməni lobbisinin çirkin maraqlarına xidmət edir

**Bakı ilə Vaşinqton arasında enerji, təhlükəsizlik və strateji tərəfdaşlıq müstəvisində qarşılıqlı maraqlara söykənən yüksəksəviyyəli dialoqun davam etdiyi bir vaxtda, ABŞ Konqresinin Nümayəndələr Palatasında ölkəmizə qarşı növbəti qərəzli qanun layihəsinin müzakirə edilməsi dərin təəssüf doğurur. Sənəddə yer alan əsassız ittihamlar Cənubi Qafqazdakı obyektiv reallıqları əks etdirmir, beynəlxalq hüququn təməl prinsiplərinə ziddir və tamamilə daxili siyasi konyunkturaya xidmət edir.**



**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, ABŞ administrasiyası ilə Azərbaycan arasında rəsmi diplomatik müstəvidə qurulan konstruktiv əməkdaşlığın ruhuna zidd olan bu addım Nümayəndələr Palatasındakı bəzi dairələrin Cənubi Qafqazdakı yeni geosiyasi reallıqları qəbul etmək istəmədiyini bir daha göstərir: "Təəssüf ki, Konqresin müəyyən üzvləri beynəlxalq hüquq normalarını və iki dövlət arasındakı qarşılıqlı maraqları deyil, erməni lobbisinin və təzyiq qruplarının dar siyasi maraqlarını rəhbər tuturlar. ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində H.R. 9087 saylı qanun layihəsinin müzakirəsi zamanı ölkəmizə qarşı irəli sürülən düzəlişlər və əsassız ittihamlar ABŞ-dəki müəyyən dairələrin regiondakı reallıqlardan nə qədər uzaq və qeyri-obyektiv olduğunu bir daha göstərir. Keçmiş konqresmen Robert Menendesin korrupsiyalaşmış siyasi xəttini davam etdirən Bred Şerman kimi şəxslərin bu addımı sırf qarşıdan gələn seçkilər ərəfəsində erməni lobbi qruplarının maliyyə və siyasi dəstəyini qazanmağa hesablanıb. Bu cür satqın və birtərəfli mövqe ABŞ qanunverici orqanının nüfuzuna ciddi xələl gətirir".

Deputat xatırladıb ki, Milli Məclis sözügedən təşəbbüsü qətiyyətlə rədd edərək öz kəskin narazılığını və etirazını bildirib. Qanunverici orqan bəyan edib ki, bu addım beynəlxalq hüquq normalarına kobud etinasızlıqdır və Konqresdən erməni lobbisinin maraqları naminə siyasi təzyiq aləti kimi istifadə etmək cəhdidir. Parlament, xüsusilə Azərbaycan məhkəmələri tərəfindən hərbi təcavüz, terrorçuluq və müharibə cinayətlərinə görə sübutlar əsasında məhkum edilmiş şəxslərin "hərbi əsir" kimi qələmə verilməsini ədalət mühakiməsinə birbaşa müdaxilə və faktların bilərəkdən təhrifi kimi qiymətləndirib.

K.Bayramov diqqətə çatdırıb ki, bu cür qərəzli təşəbbüslər Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin ardıcıl və məqsədyönlü şəkildə irəliyə aparıldığı, habelə ABŞ Prezidenti Donald Trampın vasitəçilik səyləri və birbaşa dəstəyi ilə ciddi imkanların yarandığı bir mərhələdə baş verir: "Luis Moreno Okampo, Frank Şvabe və Bred Şerman kimi anti-Azərbaycan fiqurların əlaqələndirilmiş çirkin kampaniyaları Cənubi Qafqazda etimad mühitini pozmağa xidmət edir. ABŞ-nin bəzi konqresmenləri lobbi qruplarının əlində alət olmaqdan əl çəkməli, Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və bölgədəki sülh prosesinə hörmətlə yanaşmalıdırlar. Regionda 30 il davam etmiş işğal faktını, bir milyondan çox azərbaycanlının tapdanmış fundamental hüquqlarını, yerlə yeksan edilmiş şəhər və kəndlərimizi görməzdən gələnlərin bu gün Azərbaycanın öz suveren ərazilərində hüquqi qayda-qanunu və ədaləti bərpa etməsini hədəf alması açıq-aşkar ikili standartların təzahürüdür. Bu cür birtərəfli sənədlər nəinki regionda dayanıqlı sülhün bərqərar olmasına töhfə vermir, əksinə, Amerikanın regiondakı neytral mövqeyinə və vasitəçilik imicinə ciddi zərbə vurur".

Deputat əlavə edib ki, ABŞ Konqresinin ayrı-ayrı üzvlərinin erməni lobbisinin təsiri altında atdığı bu addımlar Cənubi Qafqazda formalaşan yeni sülh reallıqlarına zərbə vurmaq cəhdidir. Beynəlxalq hüquq normalarını və Azərbaycanın suveren hüquqlarını görməzdən gələnlər anlamalıdırlar ki, heç bir qərəzli qanunvericilik təşəbbüsü və ya siyasi təzyiq aləti ölkəmizi öz milli maraqlarını qorumaq xəttindən və müstəqil xarici siyasət kursundan çəkindirə bilməz. Vaşinqtondakı bəzi siyasi dairələr erməni şovinist qruplarının dar maraqlarına xidmət etməkdən əl çəkməli və bölgədə dayanıqlı sülhün bərqərar olunması üçün yaranmış tarixi imkana mane olmamalıdırlar. Bir sözlə, Azərbaycan öz xarici siyasətini müstəqil şəkildə yürüdür və heç bir kənar təzyiq və ya qərəzli qanunvericilik təşəbbüsü ölkəmizin milli maraqlarını qorumaq iradəsinə təsir göstərə bilməz.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Kraudfandinq haqqında" qanun Azərbaycanın maliyyə sektorunda nəyi dəyişəcək?

**Bu gün qlobal iqtisadiyyatda əsas dəyəri innovativ ideyalar, rəqəmsal həllər və startap təşəbbüsləri yaradır. Lakin hər bir böyük layihənin reallaşması üçün ilk növbədə dayanıqlı maliyyə qaynağı tələb olunur. Bu məqsədlə ölkəmizdə mühüm hüquqi islahat həyata keçirilir. Belə ki, Prezident İlham Əliyevin 2026-cı il 24 iyul tarixli fərmanı ilə "Kraudfandinq haqqında" qanunun tətbiqinə start verildi. Bu addım milli maliyyə bazarının şaxələndirilməsi və rəqəmsal ekosistemin keyfiyyətcə yeni mərhələyə keçməsi baxımından əhəmiyyətlidir.**



"Kraudfandinq" hərfi mənada kütləvi maliyyələşdirmə deməkdir. Bu modeldə hər hansı bir biznes ideyası, məhsul və ya sosial layihəsi olan şəxs xüsusi rəqəmsal platforma vasitəsilə öz təşəbbüsünü ictimaiyyətə təqdim edir. Yüzlərlə, hətta minlərlə sıravi vətəndaş və ya kiçik investor bu platforma üzərindən layihəyə kiçik və ya böyük məbləğlərdə vəsait yatırır. Toplanan bu vəsaitlər yekunda böyük bir kapitala çevrilir və ideyanın reallaşmasına imkan verir.

Dünya təcrübəsinə nəzər salsaq görərik ki, bu model Silikon Vadisindən tutmuş Avropa və Asiyanın aparıcı maliyyə mərkəzlərinədək geniş vüsət alıb. Əsas üstünlük ondan ibarətdir ki, kraudfandinq pul toplamaq vasitəsi ilə yanaşı, bazarın nəbzini tutmaq, ideyanın istehlakçılar tərəfindən necə qarşılanacağını öncədən test etmək üçün unikal göstəricidir. Əgər insanlar hələ istehsal olunmamış bir məhsula pul yatırmaq istəyirsə, deməli, bu həmin məhsulun gələcək uğuru üçün demək olar ki, zəmanətdir. Azərbaycanda da insanların informasiya texnologiyaları, süni intellekt, rəqəmsal xidmətlər, aqrar innovasiyalar və yaradıcı sənaye sahələrində böyük potensialı var.

Ölkə prezidentinin imzaladığı fərman qanunun praktiki müstəvidə dəqiq və təhlükəsiz işləməsi üçün dövlət qurumlarının vəzifə bölgüsünü müəyyənləşdirib. Eyni zamanda Nazirlər Kabinetinə tapşırılıb ki, üç ay ərzində kraudfandinq fəaliyyətində istifadəsinə yol verilməyən xarici zonaların siyahısını müəyyənləşdirsin. Əlbəttə, bu tələb maliyyə şəffaflığını təmin etmək, qanunsuz yolla əldə edilmiş vəsaitlərin leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq üçün vacib profilaktik tədbirdir. Eyni zamanda digər qanunvericilik aktlarının yeni qanuna uyğunlaşdırılması üçün vaxt ayrılıb. Fərmana əsasən, DİN informasiya təhlükəsizliyi, kibermühitdə baş verə biləcək dələduzluq halları və hüquqi qayda-qanunun gözlənilməsi sahəsində nəzarət sistemlərinin icrasında yer alacaq. Həmçinin fərmanda ən geniş və məsuliyyətli vəzifələr Azərbaycan Respublikasının Mərkəzi Bankına tapşırılıb. Mərkəzi Bank altı ay ərzində bazarın "oyun qaydalarını" formalaşdıran bir sıra normativ aktları təsdiq etməlidir. Bura müəyyən vacib məsələlər - kraudfandinq platforması operatorunun minimum nizamnamə və məcmu kapitalına qoyulan tələblər, platformaların kiber və texniki təhlükəsizlik standartları, operatorların rəsmi reyestrə daxil edilməsi qaydaları, fərdi investorların riskə düşməməsi üçün onların bir layihəyə və bir platformaya qoya biləcəyi maksimum investisiya limitləri, habelə investorların və layihə müəlliflərinin şikayətlərinə baxılması sistemi ilə hesabatlılıq tələbləri daxildir.

Biznes mühiti üçün bu qanunun qəbulu maliyyələşmə imkanlarının genişlənməsi baxımından əhəmiyyətlidir. Sənəd xüsusilə ali təhsil müəssisələrində təhsil alan, elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan və ya öz startapını qurmaq niyyətində olan gənclər üçün əlverişli ekosistem formalaşdırır. Ənənəvi bank-maliyyə sistemində girov təminatı olmayan gənc sahibkarlar üçün maliyyə resurslarına çıxış imkanları olduqca məhdud idi. Kraudfandinq platformaları isə bu institusional maneəni aradan qaldırır. Artıq gənc təşəbbüskarlar öz ideyalarını və biznes planlarını rəqəmsal platformalar vasitəsilə şəffaf şəkildə təqdim edərək, birbaşa cəmiyyətdən və investorlardan alternativ vəsait cəlb edə biləcəklər. Bu sistem elm, təhsil və biznes sektorları arasında inteqrasiyanı gücləndirməklə yanaşı, universitetlərdə yaranan innovativ ideyaların real iqtisadiyyata kommersiyalaşdırılması prosesini də əhəmiyyətli dərəcədə sürətləndirəcək.

Kraudfandinq həm də pulunu dəyərləndirmək istəyənlər üçün yeni imkandır. Bu vaxta qədər sıravi vətəndaşların öz əmanətlərini dəyərləndirmək üçün seçimləri kifayət qədər məhdud idi, vəsaitlər ya bank depozitlərinə yerləşdirilir, ya da daşınmaz əmlak sektoruna yönəldilirdi. İndi isə hər bir vətəndaş kiçik məbləğlərlə də olsa gələcəyin perspektivli texnologiya, kənd təsərrüfatı və ya xidmət layihələrinə dəstək ola biləcək. Bəlkə də bu gün kiçik bir məbləğlə dəstəklənən startap sabah qlobal miqyaslı böyük bir şirkətə çevriləcək və onun ilkin investorları böyük gəlir əldə edəcəklər.

Sözsüz ki, burada risk faktorunu da unutmaq olmaz. Hər bir yeni biznesin iflas etmək və ya gözlənilən gəliri gətirməmək riski var. Məhz buna görə fərmanda Mərkəzi Banka fərdi investorlar üçün maksimum investisiya limitləri müəyyən etmək tapşırılıb. Bu məhdudiyyət vətəndaşların bütün yığımlarını riskli layihələrə yatırmasının və gözlənilməz maliyyə itkiləri ilə üzləşməsinin qarşısını almağa hesablanıb.

Kraudfandinq bazarının dayanıqlı inkişafı üçün bir neçə mühüm məqam xüsusilə diqqətdə saxlanılmalıdır. Belə ki, rəqəmsal platformaların kiberhücumlardan qorunması və vətəndaşların şəxsi, maliyyə məlumatlarının təhlükəsizliyinin təmin edilməsi birinci dərəcəli məsələdir. Eyni zamanda ideya adı altında yalançı layihələrlə vətəndaşların pulunu mənimsəmək istəyən şəxslərin qarşısını almaq üçün platforma operatorları ciddi filtrləmə və qiymətləndirmə sistemlərinə sahib olmalıdırlar. Bununla yanaşı, əhalinin və gənc sahibkarların kraudfandinq sistemləri, onun riskləri və hüquqi imkanları barədə maarifləndirilməsi işləri də genişləndirilməlidir.

Beləliklə, "Kraudfandinq haqqında" qanun Azərbaycanın maliyyə sektorunda tamamilə yeni bir səhifə açır. Bu, ölkəmizdə təşəbbüskarlıq ruhunu stimullaşdıran, gənclərin yaradıcı potensialını real kapitala çevirən və alternativi olmayan rəqəmsal maliyyə körpüsüdür. Mərkəzi Bankın və digər aidiyyəti qurumların yaxın aylarda hazırlayacağı normativ çərçivə ilə bu daha da şəffaf, etibarlı və cəlbedici olacaq.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Ombudsmanın nümayəndələri Suriyadan repatriasiya olunmuş Azərbaycan vətəndaşları ilə görüşüblər

**Azərbaycan hökuməti tərəfindən həyata keçirilən mərhələli və koordinasiyalı tədbirlər nəticəsində bu ilin iyulun 18 və 19-da Suriya Ərəb Respublikasından 7-si qadın, 9-u uşaq olmaqla, ümumilikdə 16 nəfər Azərbaycan vətəndaşının ölkəmizə repatriasiyası təmin edilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) nümayəndələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin müvafiq müəssisəsində yerləşdirilmiş repatriantlarla görüş keçiriblər.

Görüş zamanı repatriantlarla söhbət aparılıb, onların hüquqlarının təmin olunması vəziyyəti və mövcud ehtiyacları öyrənilib. Həmçinin qadın və uşaqların hüquq və azadlıqlarının müdafiəsi, eləcə də ombudsmanın mandatı barədə onlara ətraflı məlumat verilib. Bununla yanaşı, müəssisənin rəhbəri tərəfindən təsisatın əməkdaşlarına repatriantların reabilitasiyası istiqamətində göstərilən xidmətlər barədə məlumat təqdim olunub. Görüşün yekununda aparılan müzakirələr əsasında müəssisə əməkdaşlarına müvafiq tövsiyələr verilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ölkə iqtisadiyyatının daha bir aparıcı sektoru - yüngül sənaye

### Bu sahə üzrə yeni müəssisələrin əksəriyyəti işğaldan azad olunmuş ərazilərdə fəaliyyətə başlayır



**Bu ilin birinci yarısında Azərbaycanda ötən ilin müvafiq dövrü ilə müqayisədə daha çox sənaye məhsulu istehsal edilib. Qeyri-neft-qaz sektorunda məhsul istehsalı 4,1 faiz artıb.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, qeyri-neft-qaz sektorunun bir sıra sahələrində artım daha çox olub. Əvvəlki ilin eyni dövrünə nisbətən daha çox məhsul buraxılmış emal sənayesinin ağac emalı və ağacdan məmulatların, əczaçılıq məhsullarının, zərgərlik məmulatları,musiqi alətləri, idman malları və tibb avadanlıqlarının istehsalında artım xüsusilə nəzərə çarpır.

Yarım ildə qida sənayesində artım 9,9 faiz təşkil edib. Tütün məmulatlarının, duru bitki yağlarının, siqaretlərin istehsalının artımı müvafiq olaraq belədir: 19,4 faiz, 25,5 faiz və 18,7 faiz.

Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 319,9 milyon manat dəyərində məhsul istehsal edilib. Əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə toxuculuq sənayesində 34, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında 20,6, geyim istehsalında isə 9,4 faiz artım müşahidə olunub.

Qeyri-neft sektorunun bu qolu üzərində dayanaraq qeyd edək ki, Azərbaycanda geyim və tekstil istehsalı, əsasən, Bakı və Sumqayıt şəhərləri ilə yanaşı, Mingəçir, Gəncə və Aran bölgəsindəki pambıqçılıq rayonlarında yerləşən iri fabrik və müəssisələrdə həyata keçirilir. Bunlardan paytaxtın Binəqədi rayonunda yerləşən Bakı Tekstil Fabrikini göstərmək olar. Burada məktəbli, tibbi, xüsusi təyinatlı və idman geyimləri istehsal edilir. Paytaxtda həmçinin uniformalar istehsal edən Afteks, S.I.G.N və digər kiçik və orta istehsal gücünə malik tikiş müəssisələri fəaliyyət göstərir.

"Giltex" isə Sumqayıt Kimya Sənaye Parkında yerləşən, iplikdən hazıra qədər bütün mərhələləri əhatə edən böyük toxuculuq və tikiş kompleksidir. Həmçinin "Alyans Textile" də Sumqayıtda xüsusi korporativ geyimlər istehsal edir.

Digər şəhər və regionlara gəldikdə isə deyə bilərik ki, Gəncədə toxuculuq və tibbi materiallar istehsalı, habelə Aran və digər pambıq istehsal edən bölgələrdə xammal emalı və ilkin ipparça istehsalı mərkəzləri mövcuddur.

Son iki-üç ildə bu müəssisələr sırasına Xankəndi tikiş (toxuculuq) fabriki də qoşulub. Bu sənaye obyekti Azərbaycan-Özbəkistan birgə müəssisəsi olaraq 2024-cü ilin noyabrında rəsmi fəaliyyətə başlayıb. Onun özəlliyi bundadır ki, işğaldan azad olunmuş ərazilərimizdə yaradılmış bir müəssisədir.

Dəyəri 11 milyon manat olan, 1,2 hektar ərazidə yerləşən müəssisə kişi, qadın və uşaq geyimləri istehsal edir, yüzlərlə yerli sakini işlə təmin edir və xarici bazarlara ixrac həyata keçirir. Fabrik Özbəkistanın BUSINESS TEX MMC və yerli qurumları ilə əməkdaşlıq edir.

Fəaliyyətini uğurla davam etdirən müəssisənin hədəfləri də böyükdür: 150 növ kişi, 300 növ qadın və 150 növ uşaq geyimləri, həmçinin idman və trikotaj məhsulları istehsal etmək.

Gələcək planlara görə, burada ildə 3-5 milyon ədəd məhsul istehsal ediləcək, kişi köynəkləri, xüsusi təyinatlı və hərbi geyimlərin istehsalı xətti açılacaq. İstehsal edilən məhsulların əhəmiyyətli hissəsinin xarici ölkələrə ixrac olunması nəzərdə tutulur.

Bir vacib məqam da odur ki, lkin mərhələdə peşəkar təlim keçmiş neçə-neçə sakin (əsasən, işğaldan azad edilən ərazilərə qayıdanlar) işlə təmin olunub. Hədəf isə ümumilikdə 500-800 iş yerinin yaradılmasıdır.

Təqdirəlayiq haldır ki, işğaldan azad olunmuş ərazilərimizdə sənaye müəssisələrinin sayı artır. Elə bu il mayın 28-də Prezident İlham Əliyev Xankəndidə "GP Safety" MMC-nin iş əlcəkləri istehsalı müəssisəsinin açılışını etdi.

Burada müxtəlif təyinatlı 4 növdə iş əlcəkləri istehsal olunacaq. Müəssisənin illik istehsal gücü 25 milyon cüt əlcəkdir. Məhsullar daxili bazarın tələbatını ödəmək üçün nəzərdə tutulur. Gələcəkdə isə onların Avropa bazarına ixracı da planlaşdırılır.

Müəssisədə onlarla insan işlə təmin olunacaq. Bu sənaye obyektinin investisiya həcmi isə 3,5 milyon manatdır. Onun yaradılmasına dövlət dəstəyi də göstərilib. Belə ki, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1 milyon manat güzəştli kredit ayrılıb. Bundan başqa, investisiya təşviqi sənədi əsasında idxal olunan texnika və avadanlıqlar üzrə 238 min manat ƏDV-dən azadolma tətbiq edilib.

Qeyd edək ki, bu müəssisənin yaradılması Xankəndidə yüngül sənaye sahəsinin inkişafına töhfə verməklə yanaşı, şəhərin iqtisadi potensialının bərpasında da rol oynayacaq. Bu cür sənaye infrastrukturunun qurulması yerli əhalinin işlə təmin olunmasına şərait yaradır, həm daxili bazarın tələbatını ödəməyə, həm də ixracyönümlü istehsalın həcmini artırmağa xidmət edir. Bütün bu işlər Azərbaycan dövlətinin Qarabağın və Şərqi Zəngəzurun iqtisadi potensialının bərpası, onun möhkəmləndirilməsi və müxtəlif təyinatlı məhsul istehsalının təşkili istiqamətində atdığı ardıcıl və məqsədyönlü addımların bir hissəsidir.

2021-ci il mayın 28-də yaradılmış Ağdam Sənaye Parkının qarşısında duran vəzifə də regionda yüngül sənayenin və istehsalat sahələrinin bərpasıdır. Parkda yerli tələbatı ödəmək və ixrac potensialı yaratmaq məqsədilə bir sıra yüngül sənaye və istehsal müəssisələri fəaliyyətə başlayıb və yenilərinin təşkili üzrə iş davam edir.

Ağdam Sənaye Parkında yerləşən "BAFCO İnvest" MMC-nin ayaqqabı istehsalı fabrikində 2024-cü il aprelin 1-dən müxtəlif təyinatlı ayaqqabılar və poliuretan çəkmələr istehsal edilir. Hazırda fabrikdə gündə yüzlərlə cüt məhsul buraxılır.

"BAFCO İnvest"ə ümumi 12 milyon manat sərmayə qoyulub. Bütün avadanlıqlar Almaniyanın "Desma" markasına məxsusdur. Fabrikin istehsal gücü xüsusi təyinatlı ayaqqabılar üzrə ildə 360 min cüt, poliuretan çəkmələr üzrə isə ildə 150 min cütdür.

İndi artıq bu müəssisələr də ölkə iqtisadiyyatına, o cümlədən qeyri-neft sahəsinin inkişafına dəstək verir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## KOB klaster şirkətləri sahibkarlar üçün yeni əməkdaşlıq imkanları yaradır

**"KOB klaster şəhadətnaməsi" almış "Frutena", "Naturaoil" və "Healthtech Solutions" KOB klaster şirkətləri artıq müxtəlif sahələrdə fəaliyyət göstərən 20-dən çox mikro, kiçik və orta sahibkarlıq subyektini ətrafında birləşdirib.**




Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, KOB klaster şirkətlərinə yeni iştirakçıların cəlb olunması istiqamətində işlər davam edir. Alma və nar məhsullarının, plastmaslar və onlardan hazırlanan xammal məmulatlarının, müxtəlif növ qablaşdırma məhsullarının istehsalı və keyfiyyətə nəzarət laboratoriya xidmətləri sahəsində fəaliyyət göstərən ixtisaslaşmış KOB subyektləri KOB klasterinin iştirakçısı olmaq üçün müvafiq KOB klaster şirkətinə, həmçinin əlaqələndirmə dəstəyi üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə müraciət edə bilərlər. Müraciətlər KOBİA-nın info@smb.gov.az elektron poçt ünvanı və ya rəsmi internet səhifəsi vasitəsilə qəbul edilir.

## Tovuzlu fermerlər yeni dövlət proqramını əlavə stimul kimi qəbul edirlər

**Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" Tovuz fermerlərinin və sahibkarlarının da üzərinə məsul vəzifələr qoyub.**




Dövlət proqramının icrası çərçivəsində rayonda həyata keçiriləcək işlər üçün tədbirlər planı tərtib edilmişdir. Ən çox diqqət torpaq resurslarının qorunmasına və ondan səmərəli istifadə olunmasına, suvarma suyundan səmərəli istifadə mexanizminin inkişaf etdirilməsinə, intensiv meyvə bağlarının salınmasına, istixana kompleksləri sahələrinin artırılmasına, taxılın məhsuldarlığının yüksəldilməsinə yönəldilmişdir. Balıqçılıq sahəsi üzrə potensialın öyrənilməsi və inkişafı, emal sahəsinin inkişaf etdirilməsi və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi ilə bağlı mövcud vəziyyət təhlil olunaraq rayonun sosial-iqtisadi inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflərə yönələn təkliflərin hazırlanmasına da diqqətlə yanaşılmışdır.

Bununla əlaqədar rayonda keçirilən müşavirədə görülən və görüləcək işlər ətraflı təhlil edilmişdir. Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Nəsrəddin Aslanov çıxış edərək rayonda suvarma infrastrukturunun mövcud vəziyyəti haqqında, sudan istifadə edən birliklərin fəaliyyətində səmərəliliyin artırılması, su itkilərinin qarşısının alınması istiqamətində görüləcək işlər barədə məlumat vermişdir. Tovuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Emin Eyvazov isə aqrar sahədə tətbiq olunan dövlət güzəştlərinin təşviqi ilə bağlı görüləcək işlərdən, eləcə də bəyan edilmiş əkin sahələri ilə "Ev təsərrüfatlarının uçotu kitabı"nda kənd təsərrüfatının statistikasının dürüstləşdirilməsinin əhəmiyyətindən danışmışdır.

Sonda rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək proqramdan irəli gələn vəzifələrin icrasının təmin edilməsi ilə bağlı aidiyyəti təşkilatlara tövsiyələr vermiş, dövlətin bu sahəyə tətbiq etdiyi güzəştlərlə bağlı istehsalçıların maarifləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin və kənd təsərrüfatı statistikasının dürüstləşdirilməsinin vacibliyini vurğulamış və bu sahədə aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar vermişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Orta dəhlizlə Britaniyaya ilk dəfə yük göndərilib



**"Qazaxıstan Dəmir Yolu" Səhmdar Cəmiyyəti (SC) Ekibastuz şəhərindən Böyük Britaniyaya ilk dəfə olaraq multimodal mineral gübrə daşınmasını təşkil edib.**

Daşınma dəmir yolu və dəniz nəqliyyatından istifadə olunmaqla Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) vasitəsilə təşkil edilib. AZƏRTAC xəbər verir ki, yüklər Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçərək Poti və Batumi limanlarından dəniz yolu ilə İngiltərənin Felikstou limanına çatdırılacaq.

Yeni marşrut Qazaxıstanın gübrə istehsalçılarına Böyük Britaniyaya ixracı artırmaq imkanı yaradacaq. Orta dəhlizdən istifadə isə logistikanı şaxələndirməyi və etibarlı yük çatdırılmasını təmin edir.

"Qazaxıstan Dəmir Yolu" SC beynəlxalq daşınma coğrafiyasını ardıcıl olaraq genişləndirir. Şirkət əvvəllər Qazaxıstan məhsullarının Ekibastuz-Mayami marşrutu üzrə ixracını təşkil edib. İndi isə məhsullar Orta dəhliz vasitəsilə Avropa bazarlarına göndərilir.

## Əlilliyi olan 2 100 şəxs işlə təmin olunub

**Dövlət Məşğulluq Agentliyi əlilliyi olan şəxslərin məşğulluğunun artırılması istiqamətində tədbirlərini davam etdirir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki agentliyin dəstəyi ilə cari ildə 2 100 əlilliyi olan şəxs münasib işlə təmin edilib. Eyni zamanda onların əmək bazarına çıxışının artırılması məqsədilə peşə hazırlığı kursları təşkil olunub. Bu il 224 əlilliyi olan şəxs həmin kurslara cəlb edilib və təlimləri uğurla başa vuranların işlə təmin olunmasına dəstək göstərilib.

## Büdcə daxilolmalarında qeyri-neft-qaz sektorunun payı 57,3 faizə çatıb

### İlin birinci yarısında büdcədən yönəldirilən sosialyönümlü xərclər 12,1 faiz artıb

**Maliyyə Nazirliyindən verilən məlumata görə, 2026-cı ilin ilk 6 ayında icmal büdcənin gəlirləri 24 milyard 413,9 milyon manat, xərcləri isə 19 milyard 824,3 milyon manat icra olunub. Hesabat dövründə icmal büdcədə 4 milyard 589,6 milyon manat büdcə artıqlığı (profisit) yaranıb.**

İcmal büdcənin tərkib hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri 4 milyard 295,4 milyon, xərcləri 4 milyard 123,7 milyon, İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri 125,2 milyon, xərcləri 78,1 milyon, İcbari Tibbi Sığorta Fondunun büdcəsinin gəlirləri 1012,3 milyon, xərcləri 1153,8 milyon, Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin gəlirləri 8 milyard 540,2 milyon, xərcləri 6 milyard 434,3 milyon manat məbləğində icra olunub.

Qeyd edək ki, cari ilin ilk altı ayında dövlət büdcəsinin gəlirləri 19 milyard 179,2 milyon, xərcləri 16 milyard 775,5 milyon manat olmaqla 2 milyard 403,7 milyon manat məbləğində dövlət büdcəsinin artıqlığı (profisit) yaranıb. Hesabat dövründə dövlət büdcəsinin gəlirləri 18 milyard 828,9 milyon manat proqnoza qarşı 19 milyard 179,2 milyon, yaxud 350,3 milyon manat çox icra edilib. Bu, cari ilin dövlət büdcəsinin illik proqnozlaşdırılan gəlirlərinin 49,7 faizinə bərabərdir. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri 2,8 faiz çox icra edilməklə 12 milyard 759,2 milyon manat təşkil edib.

Dövlət büdcəsinin gəlirləri, əsasən, vergi orqanlarının xətti ilə daxilolmalar, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfer, gömrük orqanlarının xətti ilə daxilolmalar, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar hesabına formalaşıb.

Cari ilin 6 ayı ərzində 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə vergi orqanlarının xətti ilə daxilolmalar üzrə 139 milyon manat (1,6 faiz), gömrük orqanlarının xətti ilə daxilolmalar üzrə 52,5 milyon manat (1,7 faiz), dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar üzrə 6,3 milyon manat (28,8 faiz), dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar üzrə 38,6 milyon manat (12,4 faiz) çox vəsait daxil olub.

Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə nəhəng sosial infrastruktur layihələri icra olıunur. Bu işlər, əsasən, dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir. İşğaldan



azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə hesabat dövrü ərzində sifarişçi təşkilatlar tərəfindən müvafiq layihələr üzrə təqdim edilmiş kassa sifariş sənədləri əsasında illik nəzərdə tutulmuş vəsaitin 30,4 faizi həcmində və ya 1 milyard 64,1 milyon manat vəsait istifadə olunub.

Maliyyə Nazirliyindən daxil olan məlumatda, həmçinin bildirilib ki, həmin vəsaitdən infrastruktur təyinatlı layihələrin (avtomobil yolları infrastrukturunun layihələndirilməsi, tikintisi, yenidən qurulması, yeni yaşayış komplekslərinin layihələndirilməsi və tikintisi işlərinin aparılması, turizm infrastrukturunun yaradılması, Şuşa, Xankəndi və Laçın şəhərlərində kanat yolunun layihələndirilməsi və tikintisi, işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin elektrik təchizatla təmin olunması, magistral su xətlərinin, tullantı, yağış kollektorlarının və qurğularının tikintisinin layihə-smeta sənədlərinin hazırlanması və tikintinin) həyata keçirilməsinə, sənaye parklarının fəaliyyətinin təşkili və onların ərazisində infrastrukturun yaradılması, səhiyyə və mədəniyyətyönümlü sosial təyinatlı layihələrin maliyyələşdirilməsi, ərazilərin minalardan təmizlənməsi, müdafiə və hüquq-mühafizə təyinatlı obyektlərin tikintisi və təmiri tədbirləri üzrə xərclərə yönəldilib.

Dövlət vətəndaşların sosial müdafiəsinin yaxşılaşmasına xüsusi diqqət yetirir. Bu məqsədlə ildən-ilə dövlət büdcəsindən daha çox vəsait ayrılır. Cari ilin birinci yarısında da bu sahəyə ayrılan vəsait artırılıb. Hesabat dövründə dövlət büdcəsi xərclərinin 52,4 faizi, yaxud 8 milyard 787,1 milyon manatı sosialyönlü xərclər olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 951,3 milyon manat və yaxud 12,1 faiz çoxdur.

Ölkədə qeyri neft-qaz sektorunun inkişafı istiqamətində də ardıcıl tədbirlər görülür. Bunun nəticəsidir ki, ölkədə qeyri neft-qaz sektoru üzrə büdcə daxilolmaları 7 faizə yaxın artıb.

Cari ilin birinci yarısında Azərbaycanın dövlət büdcəsinin qeyri-neft-qaz sektoru üzrə daxilolmaları 10 milyard 981 milyon manat olub ki, bu da proqnozdan 3,1, ötən ilin eyni dövrü ilə müqayisədə isə 6,8 faiz çoxdur. Bununla hesabat dövründə büdcə daxilolmalarında qeyri neft-qaz sektorunun payı 57,3 faizə çatıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

# Zəfər alın yazımızdır

**Azərbaycan əsrlər boyu işğalçıların aramsız və amansız hücumlarına məruz qalıb. Torpaqlarımıza göz dikən işğalçılar ərazilərimizi ələ keçirməyə və bu sərvətlərə sahib çıxmağa çalışıblar. Buna görə də zaman-zaman ölkəmizə qarşı olan işğalçılıq hücumları ara verməyib. Torpaqlarımızı ələ keçirməyə hesablanmış bu hücumların qarşısı qəhrəman xalqımız tərəfindən həmişə qətiyyətlə alınıb.**

Yadellilərə qarşı cəsarətlə mübarizə aparan xalqımız həmişə döyüşlərdən qalib çıxmış, qəsbkarlar üzərində qələbə qazanmışdır. İşğalçıların yurdumuza, sərvətlərimizə sahib çıxmalarına imkan verməmişdir. Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə xalqımızın cəsur oğulları böyük qəhrəmanlıqlar göstərmişlər. Onlar qanları və canları bahasına cəsarətlə döyüşərək adlarını şanlı tariximizin mübarizlik səhifələrinə böyük hərflərlə yazmışlar. Beləcə, ölkəmizin ərazisi bütün zamanlarda cəsur, igid oğullarımızın hesabına yadelli işğalçılardan qorunmuşdur. Hər qarış Vətən torpağı şəhidlərin qanı ilə suvarılmışdır.



Erməni separatçıları ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Azərbaycanın əbədi-əzəli torpaqları olan Qarabağa hücum çəkəndə də cəsur oğullarımız kimsədən çağırış gözləmədən əyinlərinə hərbi forma geyinərək ata-babalarımızın qəhrəmanlıq ənənələrini davam etdirmək, torpaqlarımızı qorumaq üçün silaha sarılaraq döyüşlərə yollandılar. Qarabağa göz dikən erməni qəsbkarlarına qarşı cəsarətlə döyüşdülər, düşmənə sarısıdıcı zərbələr vurdular. Azərbaycan əsgəri gücünü, qüdrətini qəsbkarlara göstərdi. Məhz bu oğulların igidliyi və qəhrəmanlığı sayəsində erməni işğalçılarının hücumlarının qarşısı qətiyyətlə alındı. Gündən-günə güclənən ordumuzun əks-hücumlarının qarşısında dayana bilməyən erməni qəsbkarları 12 may 1994-cü ildə atəşkəs rejimi ilə razılaşmalı oldular.

1993-cü ildə Azərbaycana rəhbərliyə qayıdan Ulu Öndər Heydər Əliyev atəşkəs elan olunandan sonra ordu quruculuğu istiqamətində uğurlara hesablanmış zəruri islahatlar apardı. Yeni hərbi hissə və birləşmələr yaradıldı. Genişmiqyaslı təlimlər keçirildi. Silahlı Qüvvələrin yenidən formalaşması istiqamətində mühüm addımlar atıldı. Qısa müddət ərzində aparılan islahatlar, görülən işlər ürəkaçan nəticələr verdi. Güclü, qüdrətli, torpaqlarımızı erməni işğalçılarından müdafiə etməyə, ölkəmizin müstəqilliyini etibarlı şəkildə qorumağa qadir və hazır olan ordu yaradıldı.

Atəşkəs rejimi elan ediləndən 22 il sonra düşmən Silahlı Qüvvələrimizin gücünü, qüdrətini 2016-cı ildə hərb tariximizə Aprel döyüşləri kimi yazılmış əməliyyatlarda gördü. Cəsur zabit və əsgərlərimiz Cəbrayıl rayonunun ərazisindəki böyük strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etdilər. Talış kəndinin ətrafındakı əlverişli yüksəkliklərdən erməni işğalçılarını təmizlədilər. Beləcə, sabahkı böyük qələbələrə gedən yollar açıldı. Bütün dünya Azərbaycan Ordusunun gücünü, qüdrətini gördü. Aprel döyüşlərində qazanılmış qələbələr xalqımıza ümid verdi ki, ordumuz torpaqlarmızı erməni işğalçılarından azad etməyə hazır və qadirdir.

Amma Azərbaycan daim humanistlik nümayiş etdirərək sülh danışıqlarına sadiq qalırdı. Qan tökülməsinin əleyhinə qarşı çıxır, sülh və danışıqlar yolunu seçirdi. Amma erməni işğalçıları daim müxtəlif bəhanələrlə sülh danışıqlarını pozur, cəbhədə təxribatlar törədirdi. Bütün bunlar Azərbaycanın səbir kasasını daşdırır, ordumuzu qəti addımlar atmağa vadar edirdi.

Nəhayət, 27 sentyabr 2020-ci ildə Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin döyüş əmrinə hazır olan ordumuz 30 ilə yaxın düşmən işğalında qalmış torpaqlarımızın azad olunması üçün əks-hücuma keçdi. Güclü, qüdrətli Azərbaycan Ordusu elə ilk döyüşlərdən erməni işğalçılarına həm havadan, həm də yerdən sarsıdıcı zərbələr vurdu. Bu zərbələr qarşısında dayana bilməyən işğalçılar geri çəkilməyə başladılar. Qısa müddət ərzində Ali Baş Komandan, xalq və ordu birliyi daha da möhkəmləndi. Döyüş əməliyyatları Azərbaycan Ordusunun üstünlüyü və qələbələri ilə 44 gün davam etdi. Qarabağın və Şərqi Zəngəzurun xeyli hissəsi erməni işğalçılarından azad olundu. Saysız-hesabsız itkilər verən düşmən ağ bayraq qaldırmağa məcbur edildi.

2020-ci il noyabrın10-da düşmən təslim oldu. Ermənistan dövləti üzərinə bir çox öhdəlik götürdü. Amma rəsmi İrəvan məkrli, işğalçılıq siyasətindən əl çəkmədi. Yenə də əlində saxladığı Qarabağın bir hissəsində vaxtaşırı təxribatlar törədirdi. Erməni separatizminə birdəfəlik son qoymaq, illərdən bəri Qarabağda kök salmış quldurları və Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini ölkəmizin ərazilərindən qovmaq üçün 2023-cü il sentyabrın 19-20-də ordumuz antiterror əməliyyatı keçirməyə məcbur oldu. 23 saat davam edən və uğurla başa çatan əməliyyat nəticəsində erməni separatizminin Qarabağdakı kökü birdəfəlik kəsildi. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət və qəhrəmanlıqlar göstərən Azərbaycan Ordusunun hərbçiləri qanları və canları bahasına vətənimizin suverenliyini bərpa etdilər.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

● Tarix yazan oğullar

# Qəhrəmanlar zamanın deyil, tarixin övladlarıdır - şəhid Rafiq Heydərov kimi

**Şəhidlik zirvəsi qəhrəmanlığın ən uca məqamı, Vətən sevgisinin ən müqəddəs ifadəsidir. Bu zirvəyə torpağını canından əziz bilən, ölkəsinin ərazi bütövlüyünü, suverenliyini, xalqının gələcəyini həyatından üstün tutan igidlər yüksəlirlər.**

2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanlarımız da bu ucalığa çataraq adlarını tarixə yazdılar. Şəhid Rafiq Rahim oğlu Heydərov da həmin ölməz qəhrəmanlarımızdan biridir.




1995-ci il iyulun 1-də Bakıda dünyaya göz açan Rafiq Heydərov ailənin tək oğlu idi. Valideynləri onu vətənə sevgi ruhunda böyütmüşdülər. Rafiq böyüklərə hörmətlə yanaşmağı, kiçiklərə qayğı göstərməyi, zəhmətə bağlılığı da ata-anasından öyrənmişdi. O, uşaqlıq illərindən öz sadəliyi, səmimiyyəti, mehribanlığı və məsuliyyətli davranışı ilə seçilirdi. 2001-ci ildə Binəqədi rayonundakı 157 nömrəli tam orta məktəbdə təhsil almağa başlayan Rafiq burada da özünü çalışqan və nümunəvi şagird kimi göstərmişdi, müəllimlərinin və sinif yoldaşlarının hörmətini qazanmışdı.

Rafiq Heydərov orta məktəbdə yalnız dərslərini yaxşı oxuması ilə deyil, həm də idmana olan marağı ilə seçilib. O, futbol, basketbol, üzgüçülük və cüdo ilə məşğul olub. İdman onun xarakterindəki iradəni, mübarizə əzmini və qələbəyə inamı daha da möhkəmləndirib. 2012-ci ildə cüdo üzrə beynəlxalq turnirdə uğurla çıxış edən Rafiq final mərhələsinə qədər yüksəlib və erməni rəqibi üzərində qələbə qazanaraq qızıl medal əldə edib. Bu qələbə onun güclü iradəsinin və qətiyyətinin göstəricisi idi.

Orta məktəbi bitirdikdən sonra Rafiq təhsilini Azərbaycan Memarlıq və İnşaat Universitetində davam etdirib. 2016-cı ildə ali təhsilini uğurla başa vurub, həmin il magistratura pilləsinə qəbul olub. Amma Vətən qarşısındakı borcunu hər şeydən üstün tutaraq hərbi xidmətə yollanıb.

Rafiq 2016-2017-ci illərdə Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edib, nümunəvi əsgər kimi fərqlənib. Hərbi xidmətdən sonra təhsilini davam etdirib. Sonra əmək fəaliyyətinə başlayıb. Savadı, məsuliyyəti, işinə olan sevgisi çalışdığı kollektivdə ona hörmət qazandırıb.

Gənc idi. Qarşıda onu böyük işlər gözləyirdi. O, gələcəyə inamla addımlayır, yorulmadan çalışırdı. Amma Vətənin dar günlərində bütün arzuları, məqsədi yalnız bir amala çevrildi. Rafiq Heydərov da hər bir qəhrəman Azərbaycan övladı kimi Vətənin harayına hay verdi.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Vətən sevgisi ilə böyüyən hər bir azərbaycanlı gənc kimi, Rafiq Heydərov da könüllü olaraq cəbhəyə yollandı. Ailənin tək oğlu olması belə, onu bu müqəddəs yoldan çəkindirə bilmədi.

Döyüş yoldaşlarının xatirələrində Rafiq Heydərov cəsarətli, qorxmaz və daim ön sırada olan bir döyüşçü kimi qalıb. O, Füzuli-Cəbrayıl istiqamətində gedən ağır döyüşlərdə böyük şücaət göstərib, düşmən mövqelərinin darmadağın edilməsində fəal iştirak edib. Cəbrayılın Daşkəsən kəndi uğrunda gedən döyüşlərdə də Rafiq və silahdaşları fərqləniblər. Azad edilən mövqedə Azərbaycan bayrağının dalğalanması həmin anı tarixi bir qələbə rəmzinə çevirdi. Bu bayraq altında 30 illik həsrətə son qoyuldu, milli qürur və Vətən sevgisi birləşdi.

2020-ci il oktyabrın 14-də Füzuli-Cəbrayıl istiqamətində gedən şiddətli döyüşlər zamanı Rafiq Heydərov qəhrəmancasına şəhid oldu. Oktyabrın 18-də II Fəxri xiyabanda son mənzilə yola salındı.

Rafiq çox gənc yaşında dünya ilə vidalaşıb. O, cəmi 25 il yaşayıb. Amma bu qısa ömür ilə bir insanın Vətəni yolunda necə şücaət göstərə, qəhrəmanlıq tarixində iz qoya biləcəyini nümayiş etdirib.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə şəhid Rafiq Heydərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

İnsanın cismani yoxluğundan sonra onu var edən, xatirələrdə yaşadaraq unudulmağa qoymayan əməlləridir. Buna görə də şəhidlər ölmürlər. Onlar xalqın yaddaşında, Vətənin azad səmasında yaşayırlar. Rafiq Heydərov da bu gün azad Qarabağın hər qarışında, doğma torpaqlarımızın nəfəsində, gənc nəslin qəlbində yaşayan qəhrəmanlarımızdandır. Belə oğullar Vətən torpağını müqəddəs, xalqımızı isə qürurlu edirlər.

Rafiq Heydərovun adı artıq yalnız bir ailənin deyil, bütöv xalqın yaddaşında yaşayır. Çünki qəhrəmanlar zamanın deyil, tarixin övladlarıdır. Onların adı Azərbaycan var olduqca, bu torpaqda bayrağımız dalğalandıqca yaşayacaq.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Mina terroruna qarşı mübarizəyə beynəlxalq səviyyədə dəstək verilməlidir

**Ermənistan Azərbaycan torpaqlarını 30 ilə yaxın işğalda saxladığı dövrdə ilkin qiymətləndirmələrə görə, torpaqlarımıza 1,5 milyondan artıq mina basdırılıb. Piyadalar Əleyhinə Minaların Qadağan Olunması Uğrunda Beynəlxalq Kampaniyanın kasetli silahlar koalisiyasının məlumatına görə, Azərbaycan dünyanın mina və partlamamış hərbi sursatlarla ən çox çirklənməyə məruz qalmış ölkələrindən biridir.**




44 günlük müharibədən sonra da Qarabağda və Şərqi Zəngəzurda separatçılar tərəfindən minaların geniş şəkildə yerləşdirilməsi ciddi təhlükə yaradıb. Minalar və partlamamış sursatlar onilliklər ərzində insanların həyatını təhlükə altında saxlayır. Bu təhlükə həmin ərazilərdə sosial-iqtisadi inkişafın ləngiməsinə, mədəni irsin bərpasına və yenidənqurma prosesinə, həmçinin keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışına ciddi maneələr yaradır. Hərbi silah kimi düşünülən minaların qurbanları hazırda daha çox mülki şəxslər olurlar. Odur ki, dövlətimiz bununla bağlı ciddi iş aparır.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-dan 2026-cı ilin aprelinədək 261 min 551 hektar ərazi minalardan təmizlənib. Ümumilikdə 246 min 463 mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. Bu günədək 259 mina partlayışı hadisəsi qeydə alınıb ki, nəticədə 421 nəfər mina qurbanı olub, onların 72-si həyatını itirib, 349 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Müharibənin Azərbaycanın qələbəsi ilə bitməsinə baxmayaraq, faktlar "yeraltı müharibə"nin hələ davam etdiyini göstərir. Mina hadisələri insanların gündəlik həyat fəaliyyətini məhdudlaşdırır, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan əhali üçün əlavə risklər yaradır. Onu da qeyd edək ki, qurbanlar arasında azyaşlılar, gənclər və qadınların olması mina təhlükəsinin cəmiyyətin ən həssas qruplarına da təsir etdiyini göstərir. Bu, həm də reabilitasiya, sosial müdafiə və psixoloji dəstək kimi əlavə humanitar tədbirlərin vacibliyini ön plana çıxarır.

Xatırladaq ki, 1994-cü il mayın 12-də imzalanmış atəşkəs sazişindən sonra Azərbaycan Ordusunun mühəndis-istehkam qoşunları Füzuli rayonunun işğaldan azad olunmuş 22 kəndində 15 minalanmış sahədən 19 min tank əleyhinə, 22 min isə piyadalar əleyhinə mina taparaq zərərsizləşdirmişlər. Həmin dövrdə ANAMA mövcud deyildi. Bu işi Müdafiə Nazirliyinin mühəndis-istehkam qoşunları görürdü. Nəzərə almaq lazımdır ki, həmin kəndlər cəmi 3 ay işğal altında qalmışdı. Amma buna baxmayaraq, o dövrdə həmin ərazidən ümumilikdə 41 mindən çox mina aşkar edilərək zərərsizləşdirilmişdir.

Mina və partlamamış hərbi sursat təhlükəsi itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərində axtarış və qazıntı işlərinin aparılmasına da ciddi maneə yaradır. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə 300-dən çox kəhriz (yeraltı su mənbələri) mina və partlamamış hərbi sursatlarla çirkləndirilib. Köndələnçay, Tərtər, Qarqar, Xaçın, Həkəri çayları minalarla çirkləndirilib, kanallar dağıdılıb və ətrafı minalanıb.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra Ermənistanın Laçın yolundan istifadə edərək Azərbaycan ərazilərinə minalar döşəməyə davam etməsi sübuta yetirilmiş faktdır. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bunun təsdiqidir. 23 saatlıq lokal xarakterli antiterror tədbirindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması isə düşmənin "yeraltı müharibəsi"nin miqyasını göstərir.

Minatəmizləmə fəaliyyətinin 90 faizindən çoxu Azərbaycanın daxili resursları hesabına aparılır. Bu sahədə bəzi xarici tərəfdaşlarla əməkdaşlıq edilsə də, ümumilikdə xaricdən dəstək məhduddur. Ölkəmiz erməni işğalını təkbaşına aradan qaldırdığı kimi, təcavüzkarın mənfur qalıqlarını da ərazilərindən özü təmizləyir. Hazırda minatəmizləmə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biridir. Vətən müharibəsində əldə edilən Zəfərdən sonra həmin ərazilərdə geniş quruculuq işlərinin sürətli həyata keçirilməsini və sakinlərin öz yurdlarına təhlükəsiz dönməsini təmin etmək üçün minatəmizləmə xüsusi əhəmiyyət daşıyır və burada aparıcı rol ANAMA-ya məxsusdur.

Bununla yanaşı, BMT Baş katibinin xüsusi təşəbbüsü ilə elan edilmiş Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günündə ANAMA yanında İctimai Şuranın, mina qurbanları və onların ailə üzvləri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun icra etdiyi Azərbaycanın ilk qadın minaaxtaranları layihəsinin əməkdaşları Qarabağda mütəmadi tədbirlər həyata keçirirlər. Bu tədbirlərin sayəsində Azərbaycanın üzləşdiyi mina probleminin miqyası, hökumətin "yeraltı müharibə" ilə apardığı mübarizə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planına əsasən, 2026-cı ilin sonunadək 280 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulub. Proqram çərçivəsində 2022-2025-ci illər ərzində 228. 227 hektar ərazi minalardan tam şəkildə təmizlənib.

Mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, həm də insanlıq əleyhinə törədilən cinayətdir. Ona görə də müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana ciddi təzyiq göstərməlidirlər. Mina qurbanlarının davamlı olmasının əsas səbəbi Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir. Düzdür, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum olmuşdu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür.

Azərbaycan mina probleminə beynəlxalq ictimaiyyətin diqqətinin cəlb olunmasına xüsusi önəm verir. Çünki ölkəmizin ərazisinin 12 faizi minalarla və partlamamış sursatlarla çirklənib. Bu, kənd təsərrüfatı üçün yararlı torpaq fondunun 28 faizi deməkdir.

Bu gün Azərbaycanın milli prioriteti Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Görünən odur ki, bu ərazilərin ermənilər tərəfindən minalanması bərpa-quruculuq işlərinə ciddi maneə olaraq qalmaqdadır. Azərbaycan təkbaşına bu çətinliklə mübarizə aparmaq əzmindədir. Həyata keçirilən minatəmizləmə prosesinə ANAMA-dan əlavə, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, qeyri-hökumət təşkilatı və beş yerli şirkət cəlb edilib. Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi mina terroruna bütün dünya ciddi reaksiya verməli, beynəlxalq təşkilatlar bu ölkənin qanlı əməllərini görməzdən gəlməməlidirlər.

***Rəhman SALMANLI, "Azərbaycan"***



# Gəncədə şəhidlərin və müharibə veteranlarının qadın ailə üzvlərinin əl işləri sərgilənib

**Gəncə şəhərinin Xan Bağı istirahət məkanında "Şəhid və müharibə veteranlarının qadın ailə üzvləri üçün sahibkarlıq kursları" layihəsinin yekun sərgisi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi şəhidlərin və müharibə veteranlarının qadın ailə üzvlərinin sahibkarlıq



bacarıqlarını inkişaf etdirmək, onların məşğulluğunu və iqtisadi fəallığını artırmaq, cəmiyyətə daha fəal inteqrasiyasına dəstək verməkdir.

Sərgi zamanı layihənin iştirakçıları hazırladıqları əl işlərini və müxtəlif məhsulları nümayiş etdiriblər.

Tədbirin sonunda kursu uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 4 iyul (Cümə günü) tarixli 216-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 5 şəvvalül-mükərrəm sənə 1337.
4 təmmuz 1919 sənə

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 35 rublə,
2 aylığı 60 rublə, 3 aylığı 90 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə,
2 aylığı 70 rublə, 3 aylığı 100 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 5 rublə,
axırıncı səhifədə sətri 4 rublə,
itən şeylər və yer axtaranlar üçün 3 rublə.

### ELAN

Açılıb tənbəki və papiros fabrikası. Ağazeynal Zeynalov. Vorontsovski küçədə 26 nömrəli evdə. Telefon nömrə 30-07.

*10265*

### MÜSƏLMAN MÜƏLLİMƏ VƏ MÜƏLLİMLƏRİ ÜÇÜN İKİ AYLIQ KURSLAR

İyulun 5-dən etibarən Bakıda müsəlman müəllimə və müəllimləri üçün 100 nəfərlik kurs açılır. Kursa daxil olanlar: 60 müəllimə və müəllimlər Şamaxı və Göyçay uyezdlərindən, 18 müəllimə və müəllimlər Bakı uyezdindən, 22 sentyabr ayından müəllimə və müəllimlik etmək istəyənlər. Kursda oxuyanlara yövmiyyə və xərcirahı [gündəlik xərclik və yolpulu] veriləcək, bunlar üçün "Svyataya Nina" məktəbində mənzil hazırlanır. Kursda oxuyanlar bir ildən əskik olmayaraq müəllimlik etməyə məcburdurlar. Xahiş edənlər Bakı və havalisi [ətrafı] məktəb müdirinin dəftərxanasına rücu [müraciət] etsinlər.

Pozenovski küçə, nömrə 15.

Qeyd: Müəllimələr üçün kurs əlahiddə mənzildə olacaqdır.

*10263*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, təmmuz ayının 5-də, səhər saat 11-də, Təsərrüfat şöbəsi dəftərxanasında şəhər kioskalarının icarəyə verməkdən ötrü torq olacaqdır. Kioskaların [yerləri]:

1) Bulvarda körpü ilə qarşı;
2) Bulvarda kupalnı [dəniz hamamı] ilə qarşı;
3) Azadlıq meydanında (Bolşoy Morskoy və Birjevoy meydanının küncündə).

Təfsilatı Təsərrüfat şöbəsi dəftərxanasında oxumaq olar.

*T-158*

**Hökumət Teatrosunda Axşam tamaşası**
**OPERA**
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Müdiriyyəti
Cümə günü şəvvalül-mükərrəm ayının 5-də 1337 sənəsi (iyul ayının 4-də 1919-cu ildə) mütəntən bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
**Üzeyir bəyin "Əsli və Kərəm" operası**
Biletlər teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam saat
8 tamamda.

### MƏXSUSİ PALTAR BİÇƏN

Sabiq Kiyev Zabitlər İqtisad Cəmiyyətində olmuş, zabitlərə məxsus masterskoy açılmışdır. Dumski meydan, Fəhlə Klubu ilə qarşı. Dərzi S. Krutin və D. Nasirov.

*4956*

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinin əmrnamələri:**

*Əmrnamə nömrə 113*
Parlaman kvestoru [təsərrüfat müdiri] müavini Müzəffər Nərimanov mükəlləfiyyəti-əsgəriyyəyə daxil olduğu üçün 1919 sənəsi iyun ayının 1-dən etibarən məmuriyyətindən əzl [kənar] edilir.

*Əmrnamə nömrə 114*
Parlaman Maliyyə və Büdcə komisyonu kargüzarı Hacıağa Nurizadə mükəlləfiyyəti-əsgəriyyəyə daxil olduğu üçün 1919 sənəsi iyun ayının 1-dən etibarən məmuriyyətindən əzl edilir.

*Əmrnamə nömrə 115*
Bakı sakini Mirzə Hüseyn Quluzadə 1919 sənəsi iyun ayının 1-dən etibarən Parlaman kvestoru müavinliyinə təyin edilir.

*Əmrnamə nömrə 116*
Şamaxı əhli Qəzənfər Salmanov 1919 sənəsi iyun ayının 1-dən etibarən Parlaman Maliyyə və Büdcə komisyonu kargüzarlığına təyin edilir.

*Əmrnamə nömrə 117*
Səkinə xanım Əlizadə 1919 sənəsi iyun ayının 17-dən etibarən Parlaman İdarəsinin müvəqqəti makina yazıçılığına təyin edilir.

*Əmrnamə nömrə 118*
Lyudmila Aleksandrovna Rits 1919 sənəsi iyun ayının 17-dən etibarən Parlaman İdarəsinin müvəqqəti makina yazı çılığına təyin edilir.

*Əmrnamə nömrə 119*
Həsən Mustafa oğlu 1919 sənəsi iyun ayının 16-dan etibarən Parlaman İdarəsi mütərcimliyinə təyin edilir.

*Parlaman rəisi: Həsən bəy Ağayev*
*Əslinə mütabiqdir.*
*Kargüzar: C[amal] Paşazadə*

**Əxzi-Əsgər İdarəsindən**

Bakı uyezdnı [qəza] Əxzi-Əsgəriyyə [Hərbi Çağırış] İdarəsi təyin edibdir əsgərlik vəzifəsini ifa etməkdən ötrü 1894, 1895, 1896, 1897, 1898, 1899-cu sənələrdə təvəllüd tapan [anadan olan] müsəlman cavanlarından ötrü zeyldə [aşağıda] yazan vaxtları:

Balaxanı və Sabunçu Polis müdiriyyəti üçün
1, 2 və 3-cü polis uçastokları – 2 iyul
4 və 5-ci polis uçastokları – 3 iyul
7-ci polis uçastoku 5 və 6 iyul
6-cı polis uçastoku – 7 iyul
Bakı şəhəri üçün
1, 5, 7, 8, 9 və 10-cu polis uçastokları – 10 iyul
2-ci polis uçastoku
Məhəmmədyar məscidi – 12 iyul
Gilək məscidi – 13 iyul
Cümə məscidi – 14 iyul
3-cü polis uçstoku
Təzəpir məscidi – 15 iyul
Qasımbəy məscidi – 16 və 17 iyul
4-cü polis uçastoku
Hüseynqulu və Hacı Hüseyn və Məhəmmədi məscidləri – 19, 20, 21 iyul
6-cı polis uçastoku
Təzə, Hacı Ağababa və Hacı Pirverdi məscidləri – 22, 23 və 24 iyul

1) Əsgərliyə dəvət olunur yerli əhali və kənar yerlərdən gələn, Bakıda sükunət edən [yaşayan] Azərbaycan vətəndaşları hərçənd siyahıda yazılmamış olsalar da və habelə metrik dəftərində yazılmamış olsalar da. Əsgəriyyə qulluğundan azad olmaq külfət qərarı üzrə və naxoşluğa görə və ya qeyri səbəblərə görə mümkün olar Əxzi-Əsgəriyyə İdarəsinin qətitəyyinə [qəti qərarına] görə. Ona görə, hərgah bir evdə əsgərlik yaşında bir nəfər və ya neçə nəfər adam varsa, hamısının borclarıdır gəlsinlər.

2) Əxzi-Əsgəriyyə İdarəsinə gəlmək vacibdir, həm çətin padşahlıq qulluğunda olan adamlar üçün də və dəmiryollarında və kanvoynı sotnidə [mühafizə dəs təsində] və ya çastnı [xüsusi] qulluqlarda olan adam üçün biqeyriəzvayenni qulluqçular [hərbi qulluqçulardan başqa].

3) Qeyri yerlərdə olan əsgərlik yaşında olan adamlara, onların ataları və qeyri əqvamları [qohumları] məlumat verməlidirlər.

4) Çağırılan adamlar borcludurlar gələlər Əxzi-Əsgəriyyə İdarəsinə, Persidski və Qubernski küçələrin küncündə olan Şaqidanovun evində, camaat vəkilləri ilə bərabər, hansı ki, siyahı yazmaqda iştirak edibdirlər, sübh saat 9-un yarısında.

İdarə özünü borclu bilir xəbərdar etməyə ki, bu ikinci prizıvdır [çağırışdır], ona görə hərgah gələcəkdə əsgərliyə düşən adam tapılsa, hansı ki, vaxtında gəlməyiblər, bu gunə [bu cür] adamlar əsgərlikdən qaçan hesab olunacaqdırlar; onların ana və ataları və evlərin böyükləri onların qaçmaqlarına kömək edən hesab olunacaqdırlar.

*İdarənin sədri: Talışxanov*

### TELEQRAF XƏBƏRLƏRİ

*Bolşevik məlumatı*

**Denikin ordusunda**

Tsaritsın - Denikin ordusu keyfəmayəşada [özbaşınalıqda] davam edir. Denikin ordusu tərəfindən rəva görülən vəhşətlər əhalini məcbur edir ki, onların cəbhəsindən bizim tərəfə keçsinlər.

Odessa - Xəbər verilir ki, Denikin hökuməti üzvləri arasında çoxdan bəri ixtilaf davam edir. Sol dəstənin nümayən dəsi Bernatski Krivoşeinin irticakaranə siyasətindən narazı qalaraq məmalikiəc-nəbiyyəyə [xarici ölkələrə] getmədən qabaq Denikinə göndərdiyi məktubunda demiş ki, hərgah Krivoşein bu siyasətində davam edərsə, o hökumət əzalığından [üzvlüyündən] istefa verəcəkdir.

Lion - Alınmış olan xəbərlərə görə, Almaniya kronprinsi Hollandadan Almaniyaya qaçmışdır. Bu xəbər Dördlər Şu rasında müxtəlif şayiata [şayiələrə] səbəb olmuşdur. Almaniya afiserləri öz sərkərdələrini verməyəcəklərini bəyan etdiklərindən, kronprins bu iqdamatda bu lunmuşdur [bu addımı atmışdır]. Hərçənd Müttəfiqlər kronprinsi təhti-məsuliyyətə [məsuliyyət altına] cəlb etməyirlər, fəqət hərgah kronprins Müttəfiqlər əleyhinə işləyəcək olarsa, onu Almaniyadan tələb edəcəklərdir. Almaniyada üsyan əmələ gəldiyi təqdirdə, Müttəfiqlər hökumətə müavinət edəcəklərdir.

- İstanbuldan xəbər verilir ki, İstanbulun Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] verilməsi barəsində olan qətna mə əhali arasında Müttəfiqlərə qarşı böyük həyəcan qalxızmışdır. Türklərlə yunanilər arasında qanlı müsadimələr [toq quşmalar] vaqe olmuşdur.

Odessa - İsveçrə ilə Almaniya arasında ticarəti əlaqə başlanmışdır. Müttəfiqlər bu əhvaldan çox narazıdırlar.

- İyunun 24-də Hamburqda dəhşətli iğtişaş əmələ gəlmişdir. Sonra bu iğtişaş şəhərin başqa hissələrinə keçib bir çox ərzaq mağazaları dağıdılmışlardır. Gecə bolşeviklər vağzalı işğal etmişlərdir. Hökumət qoşunları asayişi bərpa etmək istəmişlərdir amma buna müvəffəq olma mışlardır. Müharibə davam edir.

- Alınmış olan xəbərlərdən anlaşılır ki, fransız qoşunları Bessarabiyadan çıxmışlardır. Romaniya qoşunları tərki-silah edib [silahlarını atıb], müharibədə iştirakdan və rəislərinə itaətdən imtina edirlər.

- Bükreşdən [Buxarestdən] xəbər verilir ki, edam edilmiş sosialistlərin ailələri nəfinə [xeyrinə] 293 min rublə pul cəm edilmişdir. Bütün Həmkarlar İttifaqına müsaidə edilmişdir ki, sosialistlərə edilən təcavüzə etiraz olmaq üzrə bir günlük tətil elan etsinlər.

- Xəbər verilir ki, Dobrucada bolqarların əleyhinə göndərilmiş olan fransız saldatları onlarla müharibədən çəkinmişlər və qəti surətdə atəş açmaqdan imtina etmişlərdir.

- Hollandada hal-hazırda ciddi surətdə inqilab hərəkatı müşahidə edilməkdədir. Ümumcahan tətil[i] yolu ilə, irtica ilə mübarizə etməyi fransız sosialistləri təqdir etmişlərdir.

Daşkənd - Kvettanın şərq cəhətinin 150 verstliyində olan Tal şəhərini əfqan qoşunları işğal etmişlər.

Yekaterinodar - Denikin 200 ağac boyu Maniçin cənub tərəfini bolşeviklərdən təmizləyib Maniçdən 40 ağac irəliləmişdir. Bolşeviklərdən 4300 əsir və bir neçə top alınmışdır. Kazaklar Orenburqu işğal edərək Ural kazakları ilə birləşmişlərdir və sonra Novorossiyskdən bolşevikləri qovub çıxarmışlardır.

**Petroqradın halı**

Stokholm - Vıborqdan xəbər verilir ki, bu axırıncı günlərdə Kronştadt və Petroqrad səmtlərindən top səsləri gəlir. Petroqraddan gələn fərarilər xəbər verirlər ki, bolşevik başçıları həyəcana düşmüşlər. Bəziləri dövləti müxəlləfatını [dövlətə məxsus əşyaları] götürüb qaçmışlardır. Şəhər Çin, latış, fin qoşunları və Qırmızı ordu tərəfindən mühafizə edilir. Bolşeviklər şəhər divarlarına elannamələr yapışdıraraq bəyan edirlər ki, bolşeviklər şəhəri tərkə məcbur olsalar, bütün sərma yədarları edam edəcəkdirlər.

**Hindustanda zəlzələ**

Amsterdam - Hollanda Hindustanından verilən xəbərlərə nəzərən, Hindustanda olan zəlzələdən bir çox kəndlər zir-zəbər [alt-üst] olub 16000 nəfər də həlak olmuşlardır.

Kopenhagen - Estoniyalılar Kelmarı işğal etdilər. Bolşeviklər təcilən ricət edirlər [tələsik geri çəkilirlər]. Riqanı işğal edən latış qoşunları Livoniyaya tərəf yürüşdə davam edirlər. Onlar məşhur İkskul istehkamını işğal etmişlərdir.

**Kipr müsəlmanlarının xahişi**

London - Avam Kamerasında Emeri bəyan eyləmişdir ki, Kipr müsəlmanlarından aldığı teleqramda o yerin müsəlmanları Britaniya hökmranlığı altında qalmağı xahiş edirlər. Müsəlman təbəələrinin haqqında olan bu məsələ qayət ehtiyatla müzakirə ediləcəkdir.

Paris - Havas agentliyi xəbər verir ki, çinlilərin Parisdə olan beynəlmiləl sülh heyəti xəbər vermişdir ki, Kiao-Çao və Kanton barəsində olan sülh maddələri təbdil edilmədikcə [dəyişdirilmədikcə], Çin sülh mürəxxəsləri [nümayəndələri] müahidənaməni [sazişi] imza etməyəcəklərdir.

Berlin - Düsseldorf idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] altında elan edilmişdir.

Lahey - Rəsmi surətdə xəbər verilir ki, Şərqi Hindustanda olan tələfatın miqdarı 5100 nəfərdən ziyadə deyildir.

Paris - Xəbər verilir ki, İsveçiya ilə Daniya Almaniya ablukasında [blokadasında] iştirakdan imtina etmişlərdir.

Kopenhaq - Peştədən rəsmi surətdə xəbər verilir ki, Macarıstan qoşunları çex qoşunlarına qələbə çalmışlardır. Bütün cəbhədə Macarıstan qoşunları çex qoşunlarını təqib edirlər.

### SÜLH ƏTRAFINDA

**Avstriya sülh müahidənaməsi**
**Çex-slav hökuməti**

Avstriya Cənubi Karpatda muxtariyyətli əyalət daxil edilməklə Çex-slav hökumətinin istiqlaliyyətini tamamilə etiraf [qəbul] etməlidir. Avstriya ilə təzə hökumət sərhədi bir nəfər Avstriyadan və bir nəfər çex-slavlardan olmaq üzrə Müttəfiq dövlətlər tərəfindən təyin edilən 7 nəfər nümayəndədən ibarət xüsusi komissiya tərəfindən müəyyən ediləcəkdir. Çex-slavlar razıdırlar Müttəfiq dövlət başçıları ilə bərabər müahidənaməyə [sazişə] öylə şərtlər daxil etsinlər, hansılarını ki, çex-slavlar milli əqəliyyətin [azlığın] müdafiəsindən ötrü, nəqliyyat işlərini və hamı millətlərin müxtəlif ticarət haqlarını təmin etmək üçün lazım görürlər.

**Amerikada anarxiya hərəkatı**

Vaşinqtondan xəbər verirlər ki, müəyyən bir vaxtda 8 şəhərdə bomba atılmışdır. Hökumət məmurları böylə zənn edirlər ki, bu mütəşəkkil bir anarxiya hərəkatıdır ki, bundan məqsəd hökuməti düşürməkdir. Nəşr edilən intibahnamələrdə [vərəqələrdə] deyilir ki, sinfi mübarizə başlanmışdır, ancaq füqərayi-kasi bənin [proletariatın] qalibiyyətindən sonra bu mübarizə qurtaracaqdır.

**Əfqanıstanda**

Əfqanıstan əmirinin mütarikə [atəşkəs] haqqındakı xahişinə cavab olaraq Hindustan hökuməti bu şərtləri qoymuşdur:

1) Əfqan əsgərləri 20 mil məsafəsində hind əsgərlərindən kənara çəkilməlidirlər;
2) Əsgərlərin mövqeyi təbdil edilməlidir [dəyişdirilməlidir];
3) Hava dəstəsinə icazə verməlidir ki, əfqan əsgərləri üzərində kəşfiyyat yapsın. Əfqanlılar sərhəddə olan tayfaları məcbur etməlidirlər ki, hərbi hərəkatı qət etsinlər [kəssinlər].

- Şənbə günü saat 3-də Versal sarayının Ayna salonunda Müttəfiq dövlətlərlə Almaniya arasında sülh müahidə naməsi [sazişi] imza edildi. Nemeslərin nümayəndələri nazirlər Herman Müller və [Yohannes] Bell şənbə gecəsi Versala varid olmuşlardır [gəlmişlər]. Düşənbə [bazar ertəsi] günü səhər bunlar vəkalətnamələrini təqdim etmişlərdir. 400 səhi fədən ibarət sülh müahidənaməsini oxumaq imkanı bulunmadığından, Klemanso Sülh Konfransı namından [adından] al man vəkillərinə müraciətlə təsdiq eyləmişdir ki, bu müahidənamə [Brokdorf] Rantsauya təqdim edilən müahidəna mənin eynidir. Marşal Foş Fransa nümayəndəsi sifəti ilə orada iştirak eyləmişdir. Məclisə dəvət edilənlər arasında hərb zamanında təşkil edilən dörd kabinə sədrləri – [Rene] Viviani, [Aristid] Brian, [Aleksandr] Ribo, [Pol] Penleve və ElzasLoren nümayəndəsi [Aleksandr] Milyeran da var idi. Şənbə günü axşam Paris qələbə bayramı saxlamışdı. Baş küçələrdə məşəlli nümayiş icra edilmişdir. Şənbə günü bədəzzöhr [günortadan sonra] fransız parlamanı 4.300.000 frank təxsis eyləmişdir [ayırmışdır] ki, bu məbləğlə iyulun 14-də Qələbə bayramı təşkil edilsin. Təntənə məramnaməsində qoşunların rəsmikeçidi (paradı) əqd edilmişdir. Bu rəsmikeçiddə Fransa generallarından Foş, Joffr və Peten iştirak edəcəklərdir. Cümə günü Parlaman bir komissiya intixab eyləmişdir [seçmişdir]. Bu komissiya sülh müahidənaməsinə bələd olmalı idi. Bu ko missiyaya 9 nəfər sosialistlər də daxil olmuşlar. Yalnız iki nəfər ən sol sosialistlər daxil olmaqdan imtina etmişlərdir.

Lion - Sülh müahidəsi imza edildiyi heyndə [əsnada] 101 ədəd şənlik topu atılmışdır. Vilhelmin və sair alman generallarının təhti-məsuliyyətə [məsuliyyət altına] cəlb edilmələrinə qarşı Almaniya mürəxxəsləri [nümayəndələri] protesto edərək salondan çıxmışlardır. Çin mürəxxəsləri sülh müahidənaməsini imza etməkdən imtina etmişlərdir.

**Almaniya nəyə razıdır?**

İyunun 28-də Londondan verilən məlumata görə, rəsmi surətdə xəbər verilir ki, almanların əks təklifində izhar edilmişdir ki, sülh müahidənaməsində Almaniyaya təklif edilən şəraitin qəbulu qeyri-mümkündür. Bundan əlavə, bu şərait Vilsonun maddələri ilə müvafiq deyildir və yenidən bir cahan ixtilafı törədə bilər. Bununla belə, Almaniya razıdır ki, 1926-cı ildə min milyon ingilis lirəsi qızıl versin. 1927-ci il may ayından başlamış hər il faizsiz müəyyən məbləğ versin. Veriləcək məbləğin miqdarı 5 min milyon ingilis lirəsindən artıq olmamalıdır. Almaniya həmçinin razıdır ki, ordusunu azaldıb yüz minə qədər yetirsin. Bundan əlavə, öz hərbi gəmilərinin silahını da bu şərtlə götürməyə razıdır ki, ticarət gəmilərinin bir hissəsi özünə qaytarılsın. Almaniya müahidənamə mövcibincə [sazi şə əsasən] Polşaya verilən Vistulun bitərəf məntəqə olmasına və Vistul nəhrindən Polşanın istifadə etməsini də təmin etməyə razıdır. Lakin əhalinin rəyini bilmədən həman yerin verilməsindən imtina edir. Almaniya Yuxarı Sileziyanı, Şərqi Prussiyanı, Qərbi Prussiyanı və Memeli güzəşt etməkdən ciddi surətdə imtina edib, Dansiqin azad port olmasına razı deyildir. Müstəmləkata gəldikdə, hərgah Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] vücuda gəlsə və Almaniya hüquqa malik bir sifətdə üzvlər heyətinə daxil olarsa, Cəmiyyəti-Əqvam əsaslarına razı olar. Cəmiyyəti-Əqvam mandatı ilə müstəmləkələr idarə olunar.

**Fransa sosialistləri sülh haqqında**

"L. T." Fransa qəzetəsi yazır ki, sülh şəraitinin alman nümayəndələrinə verilməsi münasibətilə Fransa sosialistlərinin iclasları olmuşdur. Sosialistlər belə bir qətnamə qəbul etmişlərdir:

Sosialistlər Şurası belə görür ki, millətləri müharibədə müdafiə edən hökumətlərin vədləri hal-hazırda qəti şərait surətinə düşmüşdür ki, bu şəraitin hər bir sözündə haqq və ixtiyar xələldar edilir [pozulur]. Sosialistlər Şurası sədaqət və qardaşlıq arzularının qarşısı alınması əleyhinə protesto edir. Sosialistlər Şurası bütün füqərayi-kasibə təşkilatına təklif edir ki, imperializm maskasını üzərindən atanlar əleyhinə ciddi hərəkatda bulunsunlar.

**Almaniya donanmasının batırılması haqqında**

Mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, Fransa Bəhriyyə Nəzarəti [Donanma Nazirliyi] Almaniya donanmasının almanlar tərəfindən qərq edilməsi haqqında nəşr etdiyi məlumatda deyir ki, hərçənd batırılan gəmilər 20-40 metrə dərinliyində dayanmışlar, lakin bu 46 gəmini qaldırmaq üçün çox məbləğ sərf etməyə dəyməz. Almanların öz gəmilərini batırmaları Fransaya böyük zərərdir. Çünki Müttəfiqlər bizim itirdiyimiz gəmilər əvəzində alman gəmilərindən bizə verməyi vəd etmişdilər. Hətta İngiltərə hökuməti belə etiraf edir ki, bununla Fran sa hamıdan artıq mütəzərrir oldu [zərər çəkdi]. Bizə çatacaq Almaniya gəmiləri kruvazerlərdən [kreyserlərdən], yaxşı hərbi gəmilərindən və son sistem müxriblərdən [destroyerlərdən] ibarət idi. Bunlar bizim donanmanı artırıb 1914-cü ildə malik olduğumuz donanma misalı olardı. Bununla da biz ticarət münasibatımızı mühafi zə edə bilərdik. Vaxtı ki, almanlar bizi bizə çatacaq gəmilərdən məhrum etdilər, bizim ixtiyarımız vardır ki, tezliklə zərərlərimizin əvəzini tələb edək. Bu zərərlərin miqdarını asanlıqla müəyyən etmək olar. Çünki batırılan gəmilərin qiyməti bir bilyon 1/22 frank. Almaniyanın bu hərəkəti artıq zərər verdiyinə görə, Fransa gəmilər inşasından ötrü Almaniyadan böyük məbləğ tələb etməlidir.

Almanların öz donanmalarını qəsdən batırmalarına şübhə olmadığına baxmayaraq, İngiltərə-Amerika nümayəndələri bu rəydədirlər ki, almanlar silahın azalması əsasını qoymaqla dünyaya böyük xidmət göstərmiş oldular. Bu iki məmləkət bütün dünyanın 3/4 dəniz qüvvəsinə malikdir. Almanlar əvvəlcədən vü cuda gətirilmiş İngiltərə donanması ilə rəqabət edirdilər. Almaniya və ya başqa bir hökumət külli miqdarda donanmaya malik olduqca, donanmanın azalması mümaniətə [maneəyə] düçar olacaqdı. Buna görə arzu olunurdu ki, gəmilər Fransaya və ya İtaliyaya verilsin. Bu bir çətin məsələ idi ki, Almaniya onu indi həll etdi.

**İtaliya sosialistləri İtaliya haqqında**

İtaliya sosialistlərinin mürəvvici-əfkarı [yayın orqanı] olan "Avanti!" qəzetəsi yazır ki, biz öylə bir baziçə [oyun] içrə qalmışıq ki, bir tərəfdən bu baziçə Adriatik dənizində İtaliyaya düşmən ünsürlərin qüvvəsini artırır, digər tərəfdən də İtaliyanın öz qüvvələrini zəif salmağa çalışır. İtaliya əleyhinə olan bu kampaniyaya soxulmuş Fransa və İngiltərənin bir para məsul və siyasi firqələri məlum deyil ki, nə dərəcədə Müttəfiq dövlətlərin və Müttəfiqlərə qoşulan hökumətlərin siyasətinə müəyyən nüfuz yetirməyə nail ola caqlar. Əhval xeyli ağırdır. Ona görə İtaliya hökuməti səbat göstərməlidir. İtaliya Avstriyanı məğlub edib Avstriya amalı ilə mübarizədə bulunmağa özünü məcbur görür.

### QƏZETƏLƏRDƏN

**General Baratov**

"D. V." qəzetəsi iyunun 21-də xəbər verir ki, Yekaterinodarda olan Baratov Cənubi Rusiya ordusu baş komandanı tərəfindən mühüm siyasi sifarişlərlə bu günlərdə Tiflis şəhərinə azim olacaqdır [yola düşəcək]. General Baratovun bu əziməti [gedişi] Gürcüstan[ın] Zaqafqaziyanın başqa cümhuriyyətləri ilə münasibat düzəltmək məsələsi ilə əlaqədardır.

**İrana ilhaq**

"Aşxatavor" "Rə'd" qəzetəsindən iqtibasən yazır:

İran Hərbiyyə naziri Sipəhdar Makuya varid olduqda yanına əhalidən 40 nəfər ağsaqqaldan mürəkkəb [ibarət] bir heyəti-nümayəndə gəlib camaat tərəfindən rica etmişlər ki, ora əhalisini İran təbəiyyətinə qəbul etmək və Maku vilayə tini İran hüduduna daxil edilməsini əhali tərəfindən İran hökuməti nəzdində təvəssüt [vasitəçilik] etsin. O cür təvəssütü zorən Ermənistana mülhəq edilmiş [birləşdirilmiş] Naxçıvan və qeyri uyezdlərin əhalisi də [Fətulla xan Əkbər] Sipəhdardan rica etmişdir. Neçə gün bundan əqdəm [qabaq] İranın İrəvan konsulu neçə ingilis zabiti ilə məa [birgə] Təbrizə azim olmuşlar [yola düşmüşlər]. Fövqəlzikr [yuxarıda adı çəkilən] uyezdlərin nümayəndələri indiyədək Təbrizdədirlər.

**İngiltərə Fəhlə Firqəsi və sülh müahidənaməsi**

İngiltərə Fəhlə Firqəsinin Milli İcraiyyə Komitəsi böylə bir dəvətnamə buraxmışdır:

*"Fəhlə Firqəsinin Milli İcraiyyə Komitəsi elan edilən sülh müahidənaməsinin [sazişinin] bir çox maddələrini rəisicümhur Vilsonun məruzəsinə və beynəlmüttəfiq [müttəfiqlərarası] Bern Konfransına zidd hesab edir. Bu müahidənamə ümumi sülh nöqteyi-nəzərindən mükəmməl olmayıb, Yevropada hələ hökmfərma olan [hökm sürən] sərmayədar imperializm kompromislərindən ibarətdir. Fəhlə sinfinin ədalətli sülh haqqındakı təsəvvürünə mütabiq olmayan bu müahidənamə hazırlandığı zaman nə qədər ki, mütəşəkkil mə sai [əmək] Sülh Konfransına təqdim edilməmişdir, biz müahidənamədə əsasları xələldar edəcək [pozacaq] məsuliyyəti öhdəmizə götürmürük. Buna görə biz əhaliyə və mütəşəkkil demokratiya qüvvələ rinə müraciətlə bütün millətlərin yaxınlaşması üçün sülh amalının intişarını [yayılmasını] və müdafiəsini təklif edirik. An caq beynəlmiləl təşkilatı olan fəhlə hərəkatının təsiri altında həmin müahidənamənin bütün qüsurları rəf oluna [aradan qaldırıla] bilər. Bu müahidənamə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] vücuda gətirməsi ilə düzələ bilər.*

*Bu müharibə qismən müstəmləkə iddiası nəticəsi olduğundan və müahidənamədə isə hamı tərəfeyn millətlər [hər iki tərəfdəki bütün millətlər] üçün ticarət şəraiti bərabər olmadığından, Almaniyanın Cəmiyyəti-Əqvamdan müstəmləkə üçün mandat almaqdan imtina etməsi rəqabətə və narazılığa bais olacaqdır ki, bu da gələcəkdə beynəlmiləl ixtilaf törədəcəkdir. Eyni zamanda, Müttəfiq dövlətlər kontrolu altında olan müstəmləkələrin genişləndirilməsi müttəfiq millətlər üçün donanmaya, orduya məxaric artması ilə ağır bir yük olacaqdır.*

*Tələb etmək olmaz ki, Almaniya xarabaları bərpa edib quruda, suda və havada müharibə ilə əhaliyə toxunan zə rərləri versin. Biz zənn ediriz ki, xəsarətə baxan komissiyada Almaniyanın nümayəndəsi olmalıdır və Almaniyadan tələb edilən məbləğ öz əhalisinin ehtiyacını ödəmək vəzifəsi ilə müvafiq olmalıdır. Biz təəssüf edirik ki, Almaniyanın tərksilah edilməsi üçün qəti tədbirləri havi olan [ehtiva edən] sülh müahidənaməsi ümumi tərksilah qəsdi ilə başqa dövlətlərin silahlarının azalması üçün heç bir ölçü qoymamışdır.*

*Fransanın öz kömür mədənləri bərpa edilənə qədər Almaniyada hasil olan kömürü almağa Fransanın ixtiyarı olduğuna razı olub, Saar nahiyəsinin uzun müd dət Almaniyadan ayrılması təşəbbüsatı əleyhinə protesto edirik. Bundan əlavə, müahidənamənin siyasi və iqtisadi kontrol qoyması əleyhinə də etiraz edirik. Biz ümidvar oluruz ki, Fransa ElzasLorendə öz iddiasını möhkəmləndirməklə bu uzun mübahisəni Yevropa həyatından rədd edib, Cəmiyyəti-Əqvam kontrolu altında həmin vilayət əhalisinin rəyini xəbər almağa razı olar. Təzə Elzas-Loren vücuda gətirməkdən qaçmaqdan ötrü Almaniya ilə Belçika arasında olan Malmedi və qeyri mübahisəli yerlər məsələsi oralarda Almaniya hakimiyyəti məhv edilmədən qabaq Cəmiyyəti-Əqvam kontrolu altında rəyiamm [referendum] ilə həll edilməlidir. Nahiyələrin əhalisi Müttəfiq dövlətlərin hərəkətlərindən Cəmiyyəti-Əqvama şikayət etməkdənsə, böylə olması gözəldir.*

*Biz Şərqi Prussiyanın cənubi və şərqi nahiyələrində rəyiamm tətbiq edilməsini təbrik edib, bu üsulun Almaniya, Polşa və Çex-slav sərhədləri bərpasında tətbiq edilmə[mə]sinə təəssüf edirik. Millətlərin istiqlaliyyəti əsasına müvafiq Almaniya avstriyalıları əhalisinə azad və hədsiz ixtiyar verilməlidir ki, Almaniya Hökumətləri Federasiyasına daxil olmalarını və ya müstəqil qalmalarını özləri həll etsinlər. Başqa cür qərar ədalətsizlik və milli amalı sıxmaq olar ki, bu da Yevropa sülhünü təhdid edə bilər.*

*Hər kimin olursaolsun qalib gəlməsini nəzərdə tutub bütün dünyanın fəhlə sinfi beynəlmiləl toqquşmada artıq üsrət [çətinlik] çəkir. Ciddi surətdə arzu ediriz ki, indilikdə sülh şəraitini Vilsonun məruzəsi ilə geniş bir surətdə müvafiq etməkdən ötrü çalışılsın və hamı müəyyən milli arzular mümkün qədəri tamamı ilə təmin edilsin. Tainki təzə və ya köhnə ixtilaflar çıxmasın. Çünki bu mürurizamanla [vaxt keçdikcə] Yevropanı, xüsusən ümumi sülhü xələldar edər."*

**Cəmiyyəti-Əqvam əleyhinə**

"Matin" qəzetəsinin Nyu-York müxbiri teleqraf edir ki, Amerika Senatında Cəmiyyəti-Əqvam düşməni olan general Conson Cəmiyyəti-Əqvamı ancaq müdhiş bir hərbi ittifaq hesab edib, atəşin bir nitqi ilə Cəmiyyəti-Əqvam layihəsini rədd etməyə dəvət etmişdir. Natiq öz nitqində Cəmiyyəti-Əqvamın təzə müharibələri rədd edəcəyi təsdiqini yalan hesab edib demişdir ki, Cəmiyyəti-Əqvam layihəsi Müttəfiq dövlətlərə imkan verir ki, Monronun nüsxəsini öz istədikləri kimi təfsir [şərh] etsinlər. Bundan əlavə, Cəmiyyəti-Əqvam layihəsi Amerikanı məcbur edir ki, Cahan müharibəsində qalib gələn dövlətlər tərəfindən alınan yerlərin müdafiəsi üçün müharibəyə daxil olsun. Sonra natiq gizlin müahidənamələri [sazişləri], o cümlədən Şantunqu Yaponiyaya vagüzar edən [tapşıran] əhdnaməni, ələlümdə [başlıca olaraq] İngiltərə ilə Amerikanın Fransanı hərbi qüvvədən təmin edəcəyi müqavilənaməsini şiddətli bir surətdə tənqid etmişdir. General Consonun nitqi dəfələrlə alqışlanmışdır. Bu alqışlarda Məclisi-Əyana [Senata] külli miq darda cəm olan əhali iştirak etmişdir. General Conson öz nitqində demişdir ki, Monronun nüsxəsinə dəxli olan maddənin müəllifi ya soyuqqanlı bir Amerika vətənpərvəri olmalıdır, yaxud Monronun nüsxəsini (yəni Amerika amerikalılar üçündür sözünü) Cəmiyyəti-Əqvam kontrolu altına salmaq istəyən əcnəbi təbəəsidir.

**Müttəfiqlərin planı**

Məlumatlı dairədən alınmış və son zaman Paris mətbuatında görülən xəbərlərə müvafiq gələn məlumata görə Kolçak, Finlandiya və Müttəfiqlər tərəfindən Petroqradın işğalı təsəvvüründən məqsəd işbudur: Kolçak yaxud Yudeniç Petroqrada daxil olandan sonra Parisdə olan Rus Komitəsinin rizası və London və Parisdə olan köhnə Rusiya səfirlərinin rəsmi müavinətləri ilə Petroqradda yeni hökumətin təşkil ediləcəyi elan olunacaq, Mosk va Şura Hökumətinə müqabil, Ümumrusiya Hökuməti adlanacaqdır. Bu hökumət bilatəxir [dərhal] Müttəfiqlər tərəfin dən təsdiq ediləcəkdir. Bu hökumətin Avropada və Yaponiyada səfirləri təyin ediləcəkdir. Yeni Kabinə üzvləri Petroqradda qeyd edilmişdir. Knyaz [Georgi Yevgenyeviç] Lvova Rəisivükəlalıq [Baş na zirlik] təklif edilmişdir, fəqət hələlik cavab verməmişdir. [Vasili Alekseyeviç] Maklakov bu barədə Savinkov ilə danışığa girişmişdir.

**Kubanda Şura**

İyunun 20-də Yekaterinodarda Cənubi Rusiya Quvayi-Müsəlləhəsi [Silahlı Qüvvələri] Baş komandanı general Denikinlə Don, Kuban və Terek hökumətləri sədri və əsgəri atamanın şurası vaqe olmuşdur. "Utro Rossii" qəzetəsi Şura haqqında böylə xəbər verir:

İclasda ali hökmdar amiral [admiral] Kolçak hökumətinin etiraf [qəbul] edilməsi məsələsi müzakirə edilmişdir. Kazak nümayəndələri ali hökmdar Kolçak hökumətinin etiraf edilməsinə razı olmuşlardır. Kolçakın siyasi hökumətindən isə kazak nümayəndələri boyun qaçırmışlardır. Baş komandan Don, Kuban və Terek nümayəndələrinə xüsusi şura qurmağı təklif etmişdir ki, bəlkə bu qərar üzrə xüsusi şura amiral Kolçakla görüşənə qədər Cənubi Müvəqqəti Rusiya Hökuməti hesab olunsun. Rada dairələrində söyləndiyinə görə, kazak nümayəndələri kazak oblastlarının Cənubi Rus İttifaqı vücuda gətirilməsini qərara aldıqlarına görə, xüsusi şuraya daxil olmayacaqlardır. Xüsusi şura haqqında hələ doğru bir xəbər yoxdur. Çünki orada iştirak edənlər bu əhvalatı gizlin saxlayırlar.

**Simferopol altında**

Krımda Dabrovol ordusu hücumu bir tərəfdən Simferopola, digər tərəfdən Canköyə hücum olur. İyulun 23-də bütün cəbhədə hücum başlanmışdır. Həman gün rəsmi məlumata görə Qarasubazar işğal edilmişdir. Qarasubazar və Simferopol xətti üzrə hücum davam edir. Simferopolun 20 verstliyində olan Zuya istasyonu işğal edilmişdir. Canköy səmtində Çuk marı, Kulay və Nəriman kəndləri alınmışdır.

**Cənubi Rusiyada aclıq**

Odessadan xəbər verirlər ki Cənubi Rusiyada bolşeviklər hökumət etdikləri yerlərdə bu il taxıl əkilməmişdir. Ən yaxşı yerlərin yarısı ancaq əkilmişdir. Cənubi Rusiyanı böyük aclıq təhdid edir. Kəndlilər izhar edirlər ki, onlar şəhəri bədbəxtliklərə bais hesab edib, şəhərə taxıl verməyəcəklərdir.

**Professorun qətli**

Kiyev Fövqəladə Komitəsinin əmrinə görə məşhur professor Florinski və bir çox alimlər qətl edilmişlərdir.

### VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Gürcüstana mal mübadiləsindən ötrü aparmaq üçün iki vaqon arpa unu, iki vaqon sulufun [darının] aparılmasına izin vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Türüq və Məabir Nəzarətinə dəmir yollarına lazım olan mallara mübadilə üçün 2 vaqon suluf, 2 vaqon arpa unu aparılmasına izin verməli.

- Azərbaycan Hökumətinin əmrinin surəti:

Xidmətində yararlıq göstərdiyindən dolayı generalleytenant Hərbiyyə naziri müavini Əlağa Şıxlinski general ot artillerii [artilleriya generalı] mənsəbinə tərfi edilir.

*Rəisi-vükəla [Baş nazir]: Yusifbəyli*

### NƏZARƏTLƏRDƏN
### [NAZİRLİKLƏRDƏN]

**Nota**

Azərbaycan Xariciyyə Nəzarəti İngiltərə Komandanlığına işbu məzmunda bir nota təqdim etmişdir:

2 iyul 1919-cu sənə.

İşbu sənənin 11 iyununda Azərbaycan Hökuməti general Kori vasitəsilə Britaniya hökumətinin; Könüllü ordusu ilə Zaqafqaziya miyanında [arasında] demarkasiyon xətti çəkiləcəyi haqqında məlumat aldığı üçün inanırdı ki, Könüllü ordu su Britaniya təklifinə itaət edərək Dağıstanı boşaldıb, xətt arxasına çəkiləcək dir.

Halbuki, Könüllü ordusu o xətt arxasına çəkilməməkdən əlavə, başqa bir iqdamatda bulunmuşdur [addım atmışdır] ki, Zaqafqaziya millətlərinə böyük təsir yetirməklə istənilməyən nəticələr verə biləcəkdir.

Dün bizim Dağıstanda olan nümayəndəmiz Haqverdiyev teleqrafən Xariciyyə Nəzarətinə bildirmişdir ki, general Erdeli təcili surətdə Dağıstandan çıxmağını təklif etmişdir. Teymurxanşura demarkasiyon xəttinin arxasında olduğu üçün ge neral Erdelinin təklifi Britaniya qətnaməsinə müğayir [zidd] olduğu kimi, Azərbaycan Cümhuriyyətinin hüququna da təca vüz etməkdir.

Könüllü ordunun qeyri-qabili-təhəmmül müamiləsindən naşi [dözülməz rəftarına görə] Azərbaycan hökuməti ciddi protesto etməklə inanır ki, Britaniya Komandanlığının bu işə müdaxilə etməsi Könüllü ordunu Azərbaycan hüququ və Bri taniya qətnaməsinə ehtiram etməyə məc bur edəcəkdir.

*Xariciyyə naziri:*
*M[əmməd] Y[usif] Cəfərov*
*Dəftərxana müdiri:*
*C[ahangir] b[əy] Qayıbov*

- Keçən sənə dekabr ayının 5-dən işbu sənənin 1 iyununadək Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Dəftərxanası tərəfindən Bakı nahiyə müfəttişliyindən maəda [başqa] işbu müavinətlərdə bulun[ul]muşdur: 643 müsəlmana 98425 rublə, 207 erməniyə 18300 rublə, 404 rusa 12225 rublə, 25 lehə [polyaka] 2725 rublə, 4 yəhudiyə 750 rublə.

- Şamaxı qəzası nahiyə müfəttişliyi binagüzarlığı [sərəncamı] ilə məhəlli [yerli] qaçqınlar üçün emalatxana güşadından [açılmasından] ötrü əlavətən 70 min rublə təxsis edilmişdir [ayrılmışdır].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən Şamaxı qəzasında qaçqınlar üçün emalatxana güşadı və təşkilindən ötrü bir nəfər məmur göndərilmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Qarabağ müvəkkili Behbudova xəbər vermişdir ki, Zəngəzur qaçqınları üçün təxsis edilmiş [ayrılmış] 18 milyon təsdiq edilənədək onun ixtiyarında olan nəqdiyyəni ancaq Zəngəzur qaçqınlarına xərc etsin. Bundan əlavə, 200 min rublə göndərilmişdir. Hər həftə Behbudov qaçqınlar haqqında məlumat verməlidir.

- Gürcüstan hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəliyinə Tiflisdə yaşayan İrəvan quberniyası müsəlmanları tərəfindən bir böylə kağız gəlmişdir:

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 4 iyul (Cümə günü) tarixli 216-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Tiflisdə yaşayan İrəvan quberniyası müsəlmanları mütəşəkkil olaraq "İrəvan quberniyası müsəlmanları həmtorpaqlıları" namında bir cəmiyyət təşkil etmişlərdir. Cəmiyyətin məqsədi İrəvan qu berniyası müsəlmanlarının siyasi və ərazi hüququnu müdafiə etməklə bərabər, füqəra sinfinə müavinət etməkdir. Cəmiyyətin heyətirəyasətinə bunlar intixab edilmişlərdir [seçilmişlər]:

Sədr: Nəsrulla Şeyxov; katib: Zeynal Məhəmmədov, xəzinədar: Həsən Qurbanov.

- Axırıncı məlumata görə Naxçıvan, Şərur, Dərələyəz, Ordubad mahallarında ermənilər tərəfindən təxrib edilmiş [dağıdılmış] köylərin miqdarı 124-dür. Bu günlərdə 45000 nəfərə baliğ [çatan] ünas və zükur məqtul olmuşdur [qadın və kişi qətl edilmişdir].

- Dün Azərbaycan Xariciyyə Nəzarətində Gürcüstan ilə əqd edilmiş hərbi müqavilənamələr mübadilə edilmişdir.

- İrəvandan işbu məzmunda bir teleqram alınmışdır:

Bakı, Azərbaycan Xariciyyə nazirinə.

Daima Azərbaycan ilə Ermənistan miyanında [arasında] dostluq axtaran erməni hökuməti Azərbaycan Hökuməti tərəfindən edilmiş Ermənistan və Azərbaycan nümayəndələri və Müttəfiqlər nümayəndəsindən mürəkkəb [ibarət] Parla man Komisyonu təşkilindən ibarət təklifə öz razılığını izhar edir.

*Xariciyyə naziri: Tiqranyan*

## XARİCİ SİYASƏTİMİZ

### - 2 -
### Beynəlmiləl əlaqə

Avropa mədəniyyəti yer üzünə yayıldıqca, millətlər arasında sırf bir mədəni yavuqluq ehtiyacı duyuldu. Bu yavuqluq insanların bir-birindən asılı olduğuna, qarşı ehtiyac və qarşı fayda məsələsini doğurdu. Millətlər və dövlətlər bir-biri ilə əlaqələrini qanuni şəklə salmağa çalışdılar. Beynəlmiləl hüquq meydana çıxdı. Dövlətlər faydalarını nəzəri-etibara alaraq hər kəs beynəlmiləl qanununu öz xahişi ilə tanımaq istədi. Dövlətlər arasında əlaqə başlandı. Elçilər göndərdilər, müahidələr əqd olundu [sazişlər imzalandı]. Məmləkət qapısı əcnəbilərə açıldı. Mənəvi və maddi məhsullar mübadiləsi başlandı.

Böyləcə, sırf bir fayda və mədəni məsələlərdən doğaraq bir qanun əmələ gəldi və bu qanunu tanımaqla millətlər bir- biri ilə əlaqəyə girişdilər.

Lakin beynəlmiləl əlaqəyə girənlərin hamısı hüquqda bərabər olmadılar. Bunun üçün də şərtlər lazım gəldi. Əvvəlcə sırf xristian dövlətlərinə aid olan bu əlaqə və hüquq sonra başqalarının malı olmağa başladı. Paris Konfransının 7-ci maddəsi Osmanlı dövlətini "Avropa konsertinə" qəbul etməklə, hüquqda başqa dövlətlərlə bərabər etməli idi. Lakin bir çox maneələr göründü. Şərq üsulu ilə idarə olunan bir məmləkəti avropalılar öz aralarında həmhüquq olaraq görməyi istəmədilər. Beynəlmiləl əlaqə, rabitəyə tam hüquqla girməyi üçün məmləkətdə islahat lazım idi. Ələlxüsus qanunları və məhkəməni düzəltməli idi. Şəriət işlərini mülki qanunlardan aralamalı idi. Türkiyə bu barədə ağır tərpəndiyi üçün Avropa Paris əhdnaməsinə əməl eyləmədi və Türkiyənin bütün hüquqlarına təcavüz etməyə başladı.

Yaponiya böylə tərpənmədi. Avropa təcavüzündən qurtarmaq üçün Avropanın fənn və idarəsini əxz etmək lazım gəldiyini anladı. Keçən əsrin ortasından baş layaraq islahat başlandı və bununla bərabər əcnəbilərə qapıları açdı və əhdnamələrlə əlaqələrini təyin etdilər. Qanun lar və məhkəmələr islahı dünyada Yaponiyanın köhnə vəziyyətini dəyişdi. Çin-Yapon müharibəsi yaponların qüvvət və qüdrətini aləmə bildirdi və bundan sonra böyük dövlətlər yaponların haqqını tanımaq istədi və konsoloslar məhkəməsi kimi məmləkətin daxili işinə qarışan şeylər ləğv olundu. Halbuki İranda və Osmanlıda konsoloslar məhkəməsi son vaxta kimi davam etmədədir.

Keçək Azərbaycana.

Azərbaycan birinci islam məmləkətidir ki, qanunlarının və məhkəməsinin islaha ehtiyacı yoxdur. Burada rusun Avro pada məşhur qanun və məhkəməsi daha da ədalətli bir şəklə qoyuldu. Millətlər, cinslər və siniflər bərabərliyi bilfeil [əməli olaraq] tanındı.

Azərbaycan birinci islam cümhuriyyətidir. Demokratik bir idarəsi ilə islam tarixinə yeni səhifələr əlavə edir. Əcəba tam mənası ilə bir Avropa tərziidarəsində təşəkkül edən bu dövlətin beynəlmiləl münasibatda vəziyyəti nə təhər ola caq? Bu hamımızı maraqlandıran bir məsələdir.

Təbiidir ki, sağlam bir vücuda malik ədalətli bir idarəsi, Məclisi-Məbusanı, gözəl qanun və Avropa üsulunda məhkəməsi olan dövlət beynəlmiləl münasibatda avropalılarla həmhüquq olmalıdır.

Ölkəmizin sərvəti çoxdur. Faydalanmaq istəyən dövlətlər bizə əl uzatsınlar, müahidə [saziş] yapaq. Bizim də bir çox ehtiyacımız var. Bunları da dəf etmək üçün xaricə müraciət edəcəyik.

*(mabədi var)*

*Yusif Vəzirov*

## BƏYANİ-HƏQİQƏT

Müdiri möhtərəm! Qəzetənizin sütunlarında aşağıdakı sətirlərə yer verməniz istirham [xahiş] edirəm.

"Azərbaycan" qəzetəsinin 169[-cu] nömrəsində "Möhkəm idarə, möhkəm əxlaq istər" sərlövhəli məqalədə "Ümidvar" əfəndi İrəvan quberniyasının zərərdidə və qaçqınlarına tövzi etmək [payla maq] üçün mənim vasitəmlə Azərbaycan hökuməti tərəfindən göndərilən paraların mənim nəfimə [xeyrimə] ticarətə buraxılmasını isbat etmək istəyir və bunun la məni müttəhim edir.

Əsl mətləbə şürudan [başlamazdan] əvvəl, "Ümidvar"ın məzkur [deyilən] məqaləsinin mənə aid olan nöqtələrinə indi yədək cavab yazmadığıma səbəb mənim İngiltərə Komandanlığı tərəfindən Tiflisdə həbsə alındığım olduğunu qeyd etməyi xaliəzmənə [mənasız] bilməyirəm.

İrəvan quberniyasının möhtac müsəlmanlarına maddi müavinətdə bulunmağı Azərbaycan Hökumətindən istirham və bir neçə başqa məsələlərə məzkur hökumətin nəzəri-diqqətini cəlb etmək üçün Araz Türk Hökuməti tərəfindən nümayəndə sifəti ilə Badkubəyə [Bakıya] gəldim. Azərbaycan Hökuməti İrəvan qu berniyasının müsəlman mühacirlərinə bir milyon para verilməsini təhti-qərara aldı və paraların tövzisini mənə və kəndisi tərəfindən təyin olunmuş bir nümayəndəyə tapşırdı. Paraların Zaqafqaz bonu olacağını nəzərə alaraq, Araz Türk Hökuməti həman paranın başqa bir paraya çevrilməsini mənə əmr etmişdi. Buna şahid əlan [indi] Badkubədə yaşayan Əmir bəy Nərimanbəyov və Bağır Rzayev cənablarıdırlar. Bu[n]lardan əvvəlincisi məzkur [deyilən] hökumətin sabiq sədri, ikin cisi isə onun müavini idi.

Həmin əmrə də səbəb İrəvan quberniyasında Zaqafqaz bonlarının işləməməsi idi. Pulları təslim almaqdan əvvəl dəfəatla Azərbaycan Hökumətindən bon əvəzinə Nikolay və ya Kerenski parası verilməsini rica etmişdim. Hökumət isə paraları Məvərayi-Qafqaz [Zaqafqaziya] bo nası verib başqa pula çevirməyi bizim öhdəmizə buraxdı.

Böylə olduqda, nümayəndəsi olduğum Araz Türk Hökumətinin əmri mövcibincə [əmrinə əsasən] və Azərbaycan Hökumətinin rizası ilə paraları pozmağa [dəyişdirməyə] başladıq və Tiflisdə bir qədər Os manlı altun lirası və Kerenski parası aldıq.

O günlərdə Tiflisə varid olan [gələn] Naxçıvan nümayəndəsi Bəhram xan Naxçıvanski cənabları ilə Badkubəyə gəlməyim vacib oldu. Bonların mabəqisini [qa lanını], çevrilmiş paraları arxadaşım Azərbaycan Hökuməti nümayəndəsinə təslim edib Tiflisdən Badkubəyə gəldim.

Badkubədə mənimlə Azərbaycan Parlamanının sabiq üzvü Qasım bəy Camalbəyov arasında bir toqquşma nəticəsin də Camalbəyov məni müttəhim etmək üçün yolları arayıb, paraların çevrilməsindən istifadə edib, bunu mənim kəndi nəfimə [xeyrimə] ticarət etmək şəklində meydana buraxdı.

Bu əsnada Badkubəyə Naxçıvandan təzə bir heyət gəldi, vəziyyət dəyişildi. Paraların həmin heyətə təslim olunmasını hökumət təhti-qərara aldı. Qızılları, kerenskiləri və bonların mabəqisini tamamilə hökumətə iadə etdim [qaytardım]. Çevrilmiş paraların təfavüt müamiləsi [fərq əməliyyatı] piyasa qərarı ilə hökumət sandığı [xəzinəsi] üçün 200 min rubldən ziyadə mənfəət etdi.

Bu işlərdən mənə heç bir maddi mənfəət olmazdı və olmadı.

Çevrilmiş paralar eynən alınmış qiymətdən hökumətə verildi. Əgər mən paraları çevirməkdə şəxsi qərəzlər təqib etsəydim və ticarət fikrində olsaydım, çevrilmiş paraları eynən hökumətə paraların tamamını bon iadə edib, təfavütünü kəndi nəfimə saxlayardım və bu nun üçün qızılları və Kerenski paraları Tiflisdə arxadaşıma təslim etməyib satmağa Badkubəyə gətirərdim.

"Ümidvar" əfəndi sözlərini təsdiq və isbat üçün mənim Batuma və Rəştə getdiyimi yazır.

Fəqət "Ümidvar" cənabları səhv edir.

Mən Batuma getməmişəm. Məni tanıyan irəvanlı və naxçıvanlıların əksəri buna şahiddirlər.

Rəştə getməyim isə para məsələsi ilə əsla mərbut [bağlı] olmayıb, Naxçıvandan gələn xüsusi bir heyətə nümayəndə hüququmu qaytardıqdan sonra vəzifə başında olmadığım bir zaman vaqe olubdur.

Rəştə mən şəxsi işlərim üçün getdim.

"Ümidvar" cənabları paraların uzun bir müddət mənim yanımda qalıb İrəvan möhtaclarına çatdırılmamasını mənə qüsur tutur.

Həqiqətdə paralar mənim ixtiyarımda ancaq 18 gün qalıbdır.

Zənni-acizanəmcə şayani-təəssüf [təəssüf ediləsi] bir hal varsa, o da "Ümidvar" cənablarının söylədiyi əxlaqsızlıq sayəsində milli məfkurə uğrunda fədakaranə çalışdığından dolayı vaxtında vətənindən fərar etməyə məcbur olan, maddi zərərlərə düçar olub bilaxirə [axırda] İngiltərə Komandanlığı tərəfindən qonşularımız ermənilərin fitnəsi ilə Tiflisdə həb sə alınan bir vətən oğlunun haqqında izhari-məhəbbət və həbsə alınmasından dolayı lazımi etiraz əvəzində, zəif və isbatsız bir laqqırtıya təkyə edərək [istinad edərək] əleyhinə çalışmaq olsa gərəkdir.

*Paşa Bayramov*

## MƏTBUAT

**Sülh və Bakı qəzetələri**

Versal sülh müahidənaməsinin [sazişinin] almanlar tərəfindən imzalanması kimi böyük, mühüm, tarixi bir hadisəni paytaxtımız necə qarşıladı? Paytaxtımızın rəyini tamamilə bilmək üçün mühitimizdəki ümum cərəyanların mütaliatını [fikirlərini] hər kəsin öz qəzetəsindən öyrənəlim.

Rusca "Azərbaycan" rəfiqimiz bu hadisəni ən mühüm siyasi cahan məsələsi adlandıraraq, əvvəla almanları imzalamağa vadar edən bir çox daxili və xarici səbəblər olduğunu qeydlə deyir ki:

*"Biz güman ediriz ki, heç bir millət özünün böylə münhəzim [məğlub] olmasına yüngül nəzərlə baxıb təhəmmül edəmməz [dözə bilməz]. Ələlxüsus mütəkəbbir və ən yaxın zamanəyədək qüdrətli alman milləti bütün xalqın ruhunda, qəlbində yerləşmiş olan böyük alman milləti qayəsindən asanlıqla vaz keçəmməz və ancaq cahan mədəniyyət meydanında mü təşəkkil və ənud [inadlı] fəaliyyət onun yarasını sağalda bilər."*

Sonra Paris Konfransının bu müvəffəqiyyətinin verəcəyi nəticələrdən bəhslə rəfiqimiz yazır ki:

*"Almaniya ilə sülh əqdi yarınkı günə qarşı bir növ etiqadsızlıq hasil edən amilləri zail edər [aradan qaldırar] və əli-qolu açılmış Müttəfiqlər dünyanın külli miqdarlı siyasi, iqtisadi və milli məsələlərinin həllinə tez və qəti bir surətdə şüru edərlər [başlayarlar]. Bu sülh son zamanlar ifrat sosialistlər tərəfindən təhdid edən müdhiş cahan ictimai inqilabı təhlükəsini də zail edər. Sülh şəraiti-həyatiyyəsinə [sülh şəraitində yaşamağa] və sülhlə istehsala qayıtmaq, ablukanın [blokadanın] götürülməsi və iqtisadi əlaqə və rabitə üsu lu dünyanı ehtikar mancanağından qurtarar və sülhlə iqtisadi və mali tərəqqi və naşvünümaya bais olar."*

"Bakinskaya jizn"in zənnincə:

*"Almanlar tərəfindən sülhnamənin imzalanması Avropada mövcud üsuliidarənin dəyişməsi uğrunda inqilabi müba rizənin qüvvələnməsi əlamətidir."*

Çünki sülhnamə imzalandıqdan sonra abluka götürüləcək, əlaqə başlanacaq, beynəlmiləl təbliğat başlanacaq, yüz minlərlə saldat əvəzinə Avropa məmləkətlərinə on minlərlə mübəlliğlər [təbliğatçılar] göndəriləcəkdir. Bu surətlə:

*"Demokratiya prinsiplərinin vücuda gəlməsi uğurundakı beynəlmiləl mübarizəyə alman millətinin təşkil edici ruhu və beynəlmiləl cahangirlik müqabilinə mübarizə edənlər sırasına sabit əqidə sahibi olan idraklı beynəlmiləl üxüvvət [qardaşlıq] tərəfdarları daxil ediləcəklərdir. Bilxassə ki, Versalda imzalanan sülhnamə alman millətinin mövcudiyyətini təhdid edir."*

İctimaiyyuni-İnqilabiyyun firqəsi naşiri-əfkarı [Sosialist İnqilabçılar partiyasının yayın orqanı] olan "Znamya truda" qəzetəsincə:

*"Sülh imzalanmış, fəqət hərb bitməmişdir. Sülh imzalanmışdır, fəqət Versal rahat olammaz. Çünki Brest-Litovsk sülhpərvərlərinin də başına o iş gələcəkdir."*

Məzkur [adı çəkilən] qəzetə sülhnamənin imzalanması ilə alman millətinin dəhşətli bir təzyiqə düşdüyünü və fəqət bununla bərabər Versala təslim olmaqdan başqa çarəsi bulunmadığını qeydlə yazır ki:

*"Xarici qaba qüvvə təzyiqi ilə imza edilmiş olan vəhşiyanə sülh uzun müddət davam edəmməz. Axırda puç ediləcəkdir. Fəqət bunun üçün qələbə çalmış və irtica ilə müttəfiqən inqilabçı məmləkətlərə iqtisadi məhkumiyyət gətirən cahangirliyi [imperializmi] yox etməlidir. Bunu da 'üçüncü bir qüvvə', yəni qalib gəlmiş məmləkətlərin xalqı qiyam nəticəsində edə bilər. Bu qüvvə nə vaxt xüruc edəcək [meydana atılacaq], onu demək olmaz. Fəqət gələcəkdir və gəlməlidir. Ancaq o vaxt qaliblərin ziyafəti qurtaracaq və mübarizə edən iki koalision birləşərək bir inqilabçı koalisionu əmələ gətirəcəkdir."*

"Bakinskaya jizn" digər bir məqaləsində deyir ki:

*"Müharibə bitdi, fəqət hürriyyət, müsavat, üxüvvət [qardaşlıq] əsasları və günü keçmiş, xırda millətlərin haqqi-istiq lalını tanımayan, millətləri iki qismə ayırıb birisinə hakimlik, ağalıq, digərinə ancaq qulluq, məhkumluq haqqı verən ha zırkı beynəlmiləl münasibat xarabazarı üzərində ədalət və bərabərlik bərpası ideyası uğrunda mübarizə hələ qurtarmamışdır."*

Bitərəf "Vesti" qəzetəsi də məzkur cəridələrlə [adı çəkilən qəzetlərlə] həmrəy olaraq deyir ki:

*"Bəlkə də polad qılınclar əvəz edilirlər, fəqət sabiqki açıq vuruşmalı müharibələr əvəzinə müdhiş qanlı müsadimə lər [toqquşmalar], yekdigərini [bir-birini] zəif salmaq uğrunda mübarizələr, mühacimələr [həmlələr] başlanacaq, yeni üsullu hərblər gələcəkdir və kim bilməyir, bəl kə öylə bir zaman gələcəkdir ki, bəşəriyyət canını dişinə tutaraq 1914 sənəsi müharibəsinin qurtarması haqqındakı bu cür qətnamə imzalanan günü lənətlərlə yad edəcəkdir."*

Bolşevik "Nabat" qəzetəsi böylə bir sülhü almanlar üçün fəlakət tələqqi edir və bu fəlakətdən qurtarmaq üçün bolşevik rəçətəsi yazır. Onun zənnincə, almanları bu fəlakətdən ancaq füqərayi- kasibə inqilabı, yəni bolşevik xürucu [çıxışı] azad edə bilər. Versal müahidənaməsini keçən ilki Brest-Litovsk müsalihəsi [barışığı] ilə müqayisə edərək məzkur qəzetə yazır ki:

*"Həyasızlıqda, quldurluq və qarətgarlik niyyətində Versal müahidənaməsi alman cahangirləri tərəfindən bolşevik Rusiyaya təlqin edilmiş olan BrestLitovsk sülhnaməsinə nə qədər təvəffüq edirsə [uyğun gəlirsə], o qədər də Versal müahidənaməsinin şərtlərinə əməl olunması boş xəyal, qüvvəsinin müddətidavamı qısa olub, beynəlmiləl füqərayi-kasibə [proletar] inqilabı da o qədər yaxındır və bu inqilabın xəllaqları [yaradıcıları] böyük inqilabçılar və mübəlliğlər [təbliğatçılar] deyil, çürüməkdə olan cahangirliyin açılan murdarlığı, həyasızlığıdır."*

Amma dəvədən düşüb höthötünü əldən qoymayan "Yedinaya Rossiya"çılar başqa dürlü düşünürlər. Qara Nikolayın sadiq nökərləri Versal sülhnaməsini nəinki Müttəfiqlər üçün bir qələbə, hətta istibdad Rusiyasının təcdidi [bərpası] üçün də bir falinik [uğurlu əlamət] kimi tələqqi edirlər. Onların zənnincə, Müttəfiqlər qalib gəlmişlərdir, indi də qələbələrinin bəhrəsini yeyirlər. Və çünki bu qələbədə vaxtilə çar Rusiyası dəxi iştirak etmişdir, ona görə, yəqin Rusiya dəxi əkdiyinin məhsulunu yeyəcəkdir. Almanlar nəinki riza qəzaya verəcəklər [başlarına gələnə razı olacaqlar], hətta bəlkə çox da xoşhallıqla sülhü qarşılayacaqlardır. Bundan sonra Müttəfiqlərin əliqolu açılıb Rusiyanı diriltməyə başlayacaqlar, hətta Almaniya özü də general Denikin və amiral Kolçak qüvvələrinə "ariyentiravatsiya" olaraq [onlarla uyğunlaşaraq] Rusiyanın düşməni olan vahid cəbhə və əyalətlər (yəni inqilab və elani-istiqlal etmiş xırda millətlər) ilə mübarizəyə başlayacaqlardır.

Puç xəyalının şirinliyindən aləmi-xülyada böyük ləzzət apararaq birdənbirə "Yedinaya Rossiya" qəzetəçiləri özlərini Nikolay behiştində hiss edir və böyüklükləri yadına düşərək inqilabçı rus millətini də, elani-istiqlal etmiş xırda millət ləri də mühakiməyə çəkir, müqəssir görür və nəhayət istibdad cəlladı hüzurunda bulunduraraq qılınc çəkir və guya töv bə et, vəilla [yoxsa] boynunu vuracağam dəmək kimi yazır ki:

*"Rusiyanın təcdid və ehyasını təbşir edən [bərpasını və dirilməsini müjdələyən] bu yaxın gələcəyi Rusiya həyatı xaricində qalmaq təhlükəsini istəməyənlər və onunla birgə çalışmaq fikrində olanlar vaxtlı-vaxtında hesaba almalıdırlar. Tez-gec bu işi azğın vahid cəbhə (sosialistlər) də anlamalıdırlar, Rusiya əleyhinə olan, vaxtı keçmiş alman-türk ittifaqının əsərini təşkil edən əyalətlər də."*

Vahid rusiyaçılar nə cür anlayırlar anlasınlar. Amma sabiq ağalarımızın müsaidəsi ilə cəsarət edib deyiriz ki, əvvəla onlarınkı boş xəyaldır və saniyən [ikincisi], vahid cəbhəçilər deyənmi olacaq, vahid rusiyaçılarmı deyən olacaq, hanki olur olsun, hər halda nə böyük inqilab puç olub hürriyyət boğulacaq, nə də əsarət zəncirindən yenicə qurtarmış millətlər yenidən zənciri-məhkumiyyətə boyun əyəcəklər.

## BAKI XƏBƏRLƏRİ

**Lənkəranlıların nəzəri-diqqətlərinə**

Lənkəranın şimdiki fəna əhvalını müzakirə etmək və bir nicat yolu bulmaq qəsdi ilə bir heyəti-mütəşəbbisə [təşəbbüs heyəti] tərəfindən bu gün saat 5-də Birinci Realnı məktəbi salonunda bütün lənkəranlıların ümumi iclasları təyin edilmişdir. Lənkəranlılardan rica olunur, fəlakətdə qalmış qardaşlarının və bacılarının xatirəsi üçün vəqti-müəyyəndə təşrif gətirsinlər.

**Müsəlman tələbələri**

İşbu sənədə Bakı edadiyyələrini bitirmiş müsəlmanların siyahısı:

Birinci gimnaziya:
1) Bədəlzadə A.
2) Cabbarzadə A.
3) Məhəmmədzadə Həmid
4) Xudaverdizadə A.

İkinci gimnaziya:
1) Aslanzadə Teymur
2) Hacızadə M.
3) Quluzadə M. Q.
4) Hüzeynzadə A.
5) Hüseynzadə D.
6) Cəfərzadə.
7) Seyidəlizadə M.

Üçüncü gimnaziya:
1) Kərimzadə A.

Ticarət məktəbi:
1) Ağazadə Balaağa
2) Cəbizadə [Bala]
3) Zeynalzadə Kərim.

Politexnik məktəbi:
1) Əlizadə Firidun.

Realnı məktəbi:
1) Babazadə
2) Bağırzadə
3) Hüseynzadə
4) Hüseynzadə B. D.
5) Quluzadə
6) Quluzadə M.
7) Dadaşzadə
8) Tağızadə
9) Tağızadə İbrahim

**Yeni əsər**

Almaniya ərkani-hərbi əzasından [Hərbi Qərargahı üzvlərindən] qaimməqam [pod-polkovnik] Vaytman tərəfindən qələmə alınmış, ən son olduğu üçün Almaniya ordusunda işlədilməkdə olan əsgəri təlimnamə Məhəmməd Cəmil bəy tərəfindən almancadan türkcəyə tərcümə edilərək Azərbaycan şivəsinə uyğun edilməklə asanlaşdırılmışdır. Əsərin birinci nüsxəsi çapdan çıxıb satışa qonulmuşdur. İkinci nüsxəsi isə sonunda qayət həzin notası ilə bərabər bir Azərbaycan mar şı olmaq üzrə ən yaxın zamanda çapdan çıxıb satışa qonulacaqdır. Kitabın oxunulmasını tövsiyə ediriz.

**Gürcüstan ilə mal mübadiləsi**

İşbu günlərdə Gürcüstandan iki vaqon qənd gələcəyi gözlənir. Bununla bərabər, Tiflisdən 100 dənə boş vaqon gön dərilir ki, Gürcüstana buğda aparsın.

## ERMƏNİSTANDA

**Azərbaycan ermənilərinin köçürülməsi**

Nuxu, Ərəş, Göyçay və Şamaxı ermənilərinin həmvətən ittifaqlarının xüsusi nümayəndəsi Vrtanes Papazyan nam iyunun 27-dən İrəvandan "Aşxatavor"a teleqram edir:

Fövqəlzikr uyezdlərin [yuxarıda adı çəkilən qəzaların] ermənilərini Azərbaycandan Ermənistana köçürməyi Ermənistan Şurayi-Vüzərası [Nazirlər Kabineti] qəbul edib, bu xüsusda Azərbaycan Hökuməti ilə müxabirə [yazışma] başlamağı və işə lazım qədər pul təxsis etməyi [ayırmağı] qərarlaşdırmışdır. Azərbaycan ilə müxabirə etmək düsturüləməli [təlimatnaməsi] [Tiqran] Bekzadyana həvalə edilmiş dir. İşi qaydaya salıb müntəzəmən icra etmək üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] nümayəndəsi Aleksandr Hakopyan təyin edilmişdir. Müşarünileyh [adı çəkilən şəxs] məzkur [deyilən] ittifaqlar tərəfindən intixab edilmiş [seçilmiş] iki vəkil ilə bir yerdə iş görməlidir.

Mühacirləri təzə yerlərə köçürmək və rahat etmək üçün 9 milyon 744 min yüz manat buraxılmışdır. O cümlədən yol məsarifinə 1 milyon, köçərilərin bir aylıq iaşəsi 4 milyon 200 min manat, sonku 2 ay üçün istiqraz ilə 3 milyon 600 min və idarə məsarifi üçün xərc edilmək müqərrər olunmuşdur [qərara alınmışdır].

**Erməni mətbuatı**

Azərbaycan ilə Gürcüstan arasında əqd edilmiş etilaf [razılaşma] bütün erməni firqələrinin xoşuna gəlməyib, onların narazılığını mövcib [narazılığına sə bəb] olmuşdur. Vazehdir [aydındır] ki, erməni qəzetələri etilafın lehinə deyildir. Çünki etilafdan məqsəd Denikin təhlükəsi ilə mübarizədir. Bu isə ermənilərə əlverişli məsələ deyildir. Zira üç tərəfdən müsəlmanlarla əhatə olduqlarından, onların ümidgahları bir Rusiya, özü də Denikin Rusiyasıdır.

Kirvələrin özləri etilafdan ictinab etməkləri [qaçmaqları] bəs deyil, çalışırlar gürcüləri də işdən ikrah etsinlər və məqsədlərinə nail olmaq üçün Azərbaycan əleyhinə hər cür böhtan və provokasiya yapmağa başlayırlar.

Erməni Milli firqəsinin mürəvviciəfkarı [fikirlərini yayan orqanı] "Joxovrdi dzayn" qəzetəsi[nin] "Türkiyə nömrə 2" ünvanlı məqaləsi başdan ayağa bir provokasiya, böhtan və fitnədir.

İştə məqalənin tərcüməsi:

*Denikin təhlükəsindən naşi [ötrü] gürcü mətbuatı erməni hökumətindən tələb edir ki, həman təhlükəyə müqavimət etmək üçün Gürcüstan-Azərbaycan arasında münaqid [bağlanan] etilafa daxil ol sun. Halbuki, Zaqafqaziya cümhuriyyətlərinin, xüsusən Ermənistan və Gürcüstanın mənafeyi Rusiya ilə nəinki dostluq, bəlkə siyasi rabitə sazlamağı tələb edir. Rusiya ilə böylə əlaqədə olmaq tarixi bir həqiqətdir. O cəhətə ki, Gürcüstan ilə Ermənistan özlərinin varlıqlarına möhlik [öldürücü] zərbə yetirməksizin müsəlman təhlükəsinin qabağında davam edə bilməz.*

*Rusiya ilə bu iki mədəni tayfanın arasında dostluq möhkəmləşdirən silah deyil, yaxınlaşmaqdır.*

*Gürcüstan və Ermənistan mabeynlərində [aralarında] nə qədər narazılıqlar və törədilmiş məsələlər olsa da, təbii müttəfiqdirlər və hər ikisi bir qədər səy edərsə, çox asanlıqla yaxınlaşa bilərlər. Azər baycan isə özü böylə asanlıq ilə həman cümhuriyyətlərlə yaxınlaşa bilərmi?*

*Həman suala biz açıq cavab verə bilərik ki, bu gün ümumi təhlükə qarşısında Azərbaycan Gürcüstan ilə ittifaq yapa bilər. Amma Gürcüstanın səmimiqəlbliliyinə inanıb, Azərbaycana etibar etməyirik. Gərək hər bir gürcü, gərək erməni bunu aşkar nəzərdə tutsun ki, Zaqafqaziya xüsusunda Türkiyə bəslədiyi arzu Azərbaycana məxsusdur. Çünki müxtəlif ad daşıyan bu iki hökumət əslən birdirlər. Ancaq xarici şərait onları ayırmışdır. Demək olar ki, Azərbaycan ikinci Türkiyədir. Türkiyə kimi, bu da Batumu və həvalisi [ətrafı] ilə Axısxanı, Axalkələyi, Ərdahanı, Borçalını, bütün Rusiya və Türkiyə Ermənistanını müsəlmanların əmlaki-məxsusəsi hesab edir. Dara düşəndə Azər baycan zahirən Ermənistanın yaşamaq haqqını etiraf edə bilər. Gürcüləri inandırar, hətta şərtnamə ilə təsdiq edər ki, Batum, Axısxa və qeyriləri onlarındır. Amma öylə ki, bu Türkiyə "nömrə 2" əslən nə olduğunu biruz eyləmək imkanı tapdı, fövrən [dərhal] sadədil [sadəlövh] Gürcüstan və Ermənistan Cümhuriyyətlərini[n] özlərinin hesab etdikləri şeyləri iddiaya başlar.*

*Azərbaycanın əmalı xüsusunda türklərin Qafqaziyada hökmranlığı zamanında qonşumuz Gürcüstan, ələlxüsus Er mənistan barəsində oynadığı xain və qətliam rolunu yad etmək kifayətdir. Müttəfiqimiz fövrən bizə düşmən olub, ar xamızdan bizə xain yaraları yetirməkdən çəkinmədi.*

*Azərbaycan nəinki türkləri bizə qonaq gətirdi, hətta onların zamanında bizim ölkəni qan və zülüm ilə doldurub zəif saldılar. Nuxu, Ərəş, Göyçay və Şamaxı uyezd lərinin sülhpərvər (?) erməniləri qırğınını və Bakı qətliamını yad ediniz.*

*Bunu da yad ediniz ki, fövqəlzikr dörd qəza, hətta türklər çəkildikdən sonra kənar adamlar üçün getməli yer deyildir və orada indiyədək minlərcə erkəklər qul, qadınlar da kənizdirlər. Öz istiqlaliyyətinin yövmi-sənəliyi [ildönümü] günü Ağdaş qəza qaimməqamı [qəza rəisi] keçən ildə öz "kirvələrinin" yanlarında əsir mənziləsində [əsir kimi] yaşayan bütün erməni qaçqınlarını qılınca çəkmək Azərbay can üçün təbii şeydir. Azərbaycan öz Sultanovları vasitəsilə Qarabağ ermənilərini qana qəltan etmək başladığını da əlavə etməlidir. Xayır, Azərbaycan tünd Türkiyədir, nəinki Türkiyənin özü. Çünki o, özünü erməni qanı ilə məst olmaqdan məhrum edəmməyir, həman Denikin təhlükəsi müqabilində, həman o zaman ki, ümumi düşmənlə mübarizə eyləmək üçün Ermənistanı ittifaqa dəvət edir.*

*Özümüzü aldatmaq bizim üçün ehtiyac yoxdur – o cəhətə ki, Azərbaycan həmişə baxır Türkiyəyə, özü də balaca Tür kiyədir ki, az bir vaxtda külli miqdarda canilərlə dolu bir tarixə malik olmağa müvəffəq olmuşdur.*

*Biz inanmayırıq ki, bu cümhuriyyət[lə] əqdietilaf edib xəyanətə qurban olmamaq mümkün olsun. Biz inanmayırıq Azərbaycana, ondan ötrü inanmayırıq ki, Türkiyəyə. Türkiyə nömrə əvvəl və Türkiyə nömrə sani [iki] gərək Gürcüstana və gərək Ermənistana bərabərlikdə müzirdirlər [ikisinə də eyni dərəcədə ziyan vururlar]. Xüsusən erməni tayfası barəsində hər iki Türkiyənin də qərardarları aydın və qətidir.*

*Ermənilərin öz qədim yerlərində azad yaşamağa ixtiyarını nəinki tanımırlar, hətta Ermənistanda onların mövcud olmaqlarını da rəva görməyirlər. Odur ki, xah Türkiyə, xah onun layiqli övladı Azərbaycan bəslədikləri arzularına, yəni Ermənistana, hətta mümkün olsaydı bütün kürreyiarzi ermənisiz qoymağa əcələ ilə nail olmaq üçün heç bir cinayətkaranə vasitələrdən ictinab etməzdilər [çəkinməzdilər].*

*Biz nəcib gürcü millət xadimlərinə və mətbuatına sual veririk: Cəllad ilə qurban arasında əqdimüqavilə əqdini onlar necə rəva görürlər?*

**Ermənistana cavab**

Azərbaycan Cümhuriyyəti Xariciyyə naziri, erməni hökuməti nəzdində Azərbaycan siyasi mümə ssili [nümayəndəsi] [Məhəmməd] xan Təkinskiyə Qarabağ barəsində Ermənistanın verdiyi notasına cavab göndərmişdir. Bu cavabda denilir:

**"Azərbaycan Hökumətinin 1919-cu sənə 15 yanvar tarixli qərarı ilə doktor [Xosrov bəy] Sultanov Azərbaycan Hökuməti tərəfindən general-qubernatorluğa təyin edilib, həman sənə aprelin 3-də Müttəfiqlər Komandanlığı tərəfindən bu xidmətdə rəsmi surətdə təsdiq edilmişdi. General-qubernator daireyinüfuzuna keçən yerlər Şişə, Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdləridir. Bu yerlər Azərbaycanın ayrılmaz və mübahisəsiz bir hissəsidir. Ona görə də, erməni hökumətinin Sultanovun hərəkəti və Azərbaycan qoşunlarının bu yerdə durması barəsində olan protestosu Azərbaycanın daxili işlərinə qatışmaqdır. Buna da heç bir zaman imkan vermək olmaz. Və nota da qətiyyən müzakirə edilə bilməz. O ki qaldı Şişə dairəsində olan iğtişaş məsələsinə, general-qubernatorun ciddi təd birləri sayəsində o iğtişaş yatırılmışdır."**

Bu cavabın Ermənistan Hökumətinə təqdim edilməsi Təkinskiyə mühəvvəl edilmişdir [tapşırılmışdır].

**Ermənistanda böhrani-vüzəra [hökumət böhranı]**

Bakıda alınmış olan xəbərlərə nəzərən, Ermənistan Hökuməti bütün heyəti ilə istefa vermişdir.

**Yeni Zaqafqaziya Konfransı**

Ən mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, yeni Zaqafqaziya Konfransı dəvət etmək istəyirlər. Üç Qafqaz cümhuriyyətlərinin nümayəndələrindən başqa, Kuban Cümhuriyyətinin nümayəndəsi və Dabravol ordunun nümayəndələri də iştirak edəcəklərdir. Konfransın məqsədi bir neçə siyasi və iqtisadi məsələləri həll etməkdir. O cümlədən, Zaqafqaziya ilə Kuban arasında mal mübadiləsi, Denikin ilə Zaqafqaziya cümhuriyyətləri arasında müəyyən xətt təyini məsələləri müzakirə ediləcəkdir.

## TEATRO VƏ MUSİQİ

**"Əsli və Kərəm"**

Bu gün cümə günü iyulun 4-də axşam Hökumət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Üzeyir bəy Hacıbəyovun yazmış olduğu "Əsli və Kərəm" operası mütəntən [təntənəli] surətdə mövqeyi-tamaşaya qoyulacaqdır. Bi letlər teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

- Qəzetədə elan edildiyi üzrə Hacıbəyli qardaşları dəstəsi tamaşalar göstərmək üçün Tiflis şəhərinə getməli idi. Lakin müdiriyyətdən asılı olmayan səbəblərə görə Tiflis səfəri hələliyə təxirə salınmışdır.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndim! Şu neçə kəlmə ərzimin mübarək qəzetənizdə dərc olunmasını acizanə rica edirəm.

Neçə aylardan bəri mən dəfələrlə Ramanada ikinci uçastok pristavına yazdığım rəsmi məktublarda məzkur [deyilən] pristav vasitəsilə özümün tezliklə qulluqdan azad olmağımı hökumətdən rica etmişəm. Nədənsə, hökumət məmurları mənim qulluqdan azad olmağımı bugün-sabaha salıb bu vaxta qədər nəzərietinaya almayırlar.

Kəndxuda maddi cəhətdən təmin edilmədiyi halda, hər gün divanxanada öz vəzifəsini ifa etməyə məcbur olur və böylə olan surətdə də öz xüsusi işlərini tərk etmək lazım gəlir. Hal-hazırda bu bahalıq vaxtda insan nə qədər vətənini sevən, millətpərəst olsa da kəndi ailəsi həm millətinin birər üzvü olduğu üçün onların da zillətdə yaşamağına razı olammaz zənn ediriz.

Yuxarıda yazdığım səbəblərdən dolayı həmin iyul ayının 10dan etibarən mənim üçün heç vəchlə öz vəzifəmi ifa et mək mümkün olmayacağını həm höku mətə, həm də camaata xəbər verməklə bərabər, məzkur [deyilən] vaxtdan sonra olacaq işlərdə də mən məsul olmayacağımı hamıya elam edirəm [bildirirəm].

*Abutalıb Rəsulov*
*(3 iyul 1919 sənə)*

**Bəhri-Xəzər dənizində passajir və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**İtibdir**

Mürvət Mustafazadənin 2-ci polis idarəsindən aldığı pasportu, "Vastoçnı" Cəmiyyətinin 22-ci körpüsündən 520 pud 20 gir vənkə dəmir kuporos (38 boçkada) üçün verilən 322251 nömrəli qəbzi itibdir. Etibardan saqitdir [etibarsızdır].

*10260*

**Satılır**

"Şreder" fabrikası royalı ilə mənzil mayehtacı [əşyaları]. Ünvan Kolyubakinski küçədə, 17 nömrəli evdə, Spasski küçənin tinin də, səhər saat 10-dan 12-dək, axşam saat 4-dən 6-dək baxmaq olar.

*10270*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzihəml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyuba-şevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Xırda Neft Mədənçiləri İttifaqı İdarəsi**

Bununla İttifaqın üzvlərinə elan edir ki, ittifaqın kontoru Birinci Kannıtepinski və Vorontsovski küçələrinin küncündə (Mərkəzi həbsxana ilə qarşı Atababayevin dəyirmanı ilə bərabər) vaqe olur.

Telefon nömrələri: 9-12 və 28-50.

*10264*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahimov***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

"Dobruca": Balkan yarımada-sının şimalında tarixi bölgə. Günümüzdə Ru-mıniya və Bolqarıstan arasında bölünmüş- dür.

"Hollanda Hindustanı": Hollandiyanın Hindustan yarımadasındakı müstəmləkələ-rinə qeyri-rəsmi olaraq verilən ad.

"Livoniya": Müasir Latviya və Estoniya ərazilərindən bir qismini əhatə edən tarixi bölgə.

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

***Sülh ətrafında***

"Versal sarayının Ayna salonu": Böyük Versal Sarayının ən məşhur daxili məkanlarından biri olan Güzgülü qalereya nəzərdə tutulur. Versal Sülh Müqaviləsi bu qalereyada imzalanmışdır.

***Qəzetələrdən***

"Matin" [Le Matin]: 1882-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

"Monro": ABŞ prezidenti Ceyms Monro tərəfindən 1823-cü ildə elan edilən və ABŞ-ın xarici siyasət prinsiplərini ehtiva edən Monro Doktrini nəzərdə tutulur.

"Qarasubazar": Krımın cənubun-da şəhər; indiki Beloqorsk.

***Nəzarətlərdən***

"demarkasiyon": demarkasiya; sərhədin təyin edilməsi və nişanlarla ay-rılması.

***Xarici siyasətimiz***

"konsoloslar məhkəməsi": Konsulluq Məhkəməsi; hər hansı bir ölkədə, ölkə vətəndaşı ilə əcnəbi vətəndaş arasındakı hüquqi anlaşmazlıqlarda əcnəbi ölkə kon-sulluğunun məhkəmə səlahiyyətinə sahib olması şəklində imtiyaz.

***Bakı xəbərləri***

"edadiyyə" (yaxud "edadi məktəb"): təhsildə universitetdən əvvəlki mərhələ kimi başa düşülməlidir.

***Ermənistanda***

"Öz istiqlaliyyətinin": qəzetdə "O istiqlaliyyətinin" getmişdir.

"Azərbaycan öz Sultanovları vasitəsilə": Azərbaycanın Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov nəzərdə tutulur.

***İtibdir***

"Mürvət Mustafazadə": "Azər-baycan" qəzetinin 214-cü nömrəsində eyni elan yer almış, şəxsin adı "Mirvat" kimi yazılmışdır.

"dəmir kuporos": kimyəvi maddə; sulfat turşusunun dəmir duzu; mürəkkəb və boyaq istehsalında, kənd təsərrüfatında ağacların qorunmasında istifadə edilir.

***Satılır***

"Şreder": Sankt-Peterburqda XIX sərin əvvəllərində qurulmuş fortepiano fabriki.





# Mədəniyyət





● Ustad sənətkar

# Müğənni ömrünün izləri mahnılarıdır

**Qəlbindəki həyat eşqi və nikbinlik, ruhundakı sevgi və müdriklik ifa etdiyi nəğmələrə qoşulub pərvazlanır, dinləyicilərin könlünə yol tapırdı. Xalq artisti Mirzə Babayev zəngin repertuarındakı mahnıların hər birini özünəməxsus ahənglə, şövqlə oxuyurdu. Təsdiq edirdi ki, əgər müğənni istedadlıdırsa, səsi ilə dinləyiciləri öz sehrinə, ovsununa salmağı bacarırsa, mövzusundan asılı olmayaraq, ifa etdiyi hər bir mahnı eyni dərəcədə seviləcək, dillər əzbərinə çevriləcək.**



"Limanlar", "Saçlarına gül düzüm", "Uzaq yaşıl ada", "Kəpənək", "Çay", "Zəfəran", "Bir axşam", "Dayan, zaman", "Gəlmədi", "Kimlər gəldi, kimlər getdi", "Çiçək kimi", "Tanqo", "Axı niyə danırsan?", "Pəncərəmə qondu çiçək", "İndi günah nə səndədir, nə məndə", "Qurban olum", "Düşürsən yadıma", "Könlüm sənindir", "Bir utan qızına aşiq olarmı adam", "Mən səni sevirəm" və başqa mahnıları kimi. Bu nəğmələri dinlədikcə nəinki bəyəndilər, alqışladılar, həm də öz ruhlarının doğması bildilər. Çünki sənətkar sanki oxuduğu mahnılarla onların ən munis duyğularını dindirir, həmsöhbət olurdu.

Azərbaycan estrada sənəti yeni nəfəs qazandığı vaxtlarda Mirzə Babayev bu yeniliyin ön sıralarında dayanan sənətkarlardan oldu. Onun səsi klassik estrada ifaçılığı ilə caz elementlərini, lirika ilə müasirliyi özündə birləşdirirdi. Mirzə Babayev mahnını, sadəcə, oxumurdu, hər mahnıda bir obraz yaradırdı.

Əslən qədim İçərişəhərin məşhur "Ağşalvarlılar" məhəlləsindən olan, 1913-cü il iyulun 16-da Bakının Maştağa kəndində dünyaya gələn Mirzə Babayevin uşaqlıqdan taleyi üzünə gülüb. Təhsilə xüsusi önəm verən, musiqini çox sevən ailəsi vardı. Atası Əbdülcabbar kişi 8 övladının - bir qız və 7 oğlunun savadlı, dünyagörüşlü insanlar kimi yetişməsinə səy göstərib. Bəy qızı olan anası Sona xanım Xanlarova isə musiqi vurğunu idi. Rəfiqələrini qonaq çağıran Sona onlara qarmonda musiqilər ifa edib. Balaca Mirzənin o anlar duyduğu heyranlıq sonralar heç zaman qəlbini tərk etməyib. Mirzə Babayevin musiqiyə marağı, heyrəti, heyranlığı uşaqlıq çağlarından belə başlayıb.

Amma orta məktəbi bitirəndə musiqi sənətini seçməyib. Məşədi Əzizbəyov adına Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Memarlıq fakültəsində oxuyub. Tələbəlik illərində institutun bədii özfəaliyyət kollektivinin fəal üzvlərindən idi. Tələbə yoldaşları və müəllimləri Mirzə Babayevin bənzərsiz, məlahətli səsi ilə ifa etdiyi mahnıları böyük maraqla dinləyir, bəyənir, alqışlayırdılar.

O, həm də yaxşı şəkillər çəkib. Rəssamlıq qabiliyyəti və bu sənətə marağı Sənaye İnstitutunu bitirəndən sonra Mirzəni Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə aparıb. Memar və rəssam kimi fəaliyyətə başlayacağı vaxtda döyüşçü olub. 1941-ci ildə müharibənin başlanması bir çoxu kimi, onun da həyatını dəyişib. Mirzə Babayev 1941-ci ildən 1945-ci ilədək döyüşlərdə iştirak edib. Leytenant rütbəsi alıb, Fəxri fərman və medallarla təltif olunub.

Müharibə başa çatdıqdan sonra Mirzə Babayev yarımçıq qalan işlərini, reallaşdırmağa fürsət tapmadığı arzularını həyata keçirmək üçün cani-dildən çalışmağa başlayıb. O, istedadlı, savadlı, peşəkar memar və rəssam idi. Bakıda "Vətən" kinoteatrı, Gəncədə, Sumqayıtda, Mingəçevirdə, Ağdamda bir neçə inzibati bina Mirzə Babayevin layihəsi əsasında tikilib. Nizami muzeyinin zallarının tərtibatında iştirak edib.

1948-ci ildə də musiqi sənəti üzrə ali təhsil almaq niyyəti ilə Azərbaycan Dövlət Konservatoriyasına üz tutub. Bülbülün sinfinə daxil olub. Səs tembrini nəzərə alan Bülbül onu opera müğənnisi kimi yetişdirmək istəyirdi. Xalq artisti Tofiq Quliyev isə Mirzənin səsini estrada mahnılarının ifası üçün daha uyğun hesab etmişdi. Odur ki, onu o vaxtlar Daxili İşlər Nazirliyinin nəzdində yaratdığı caz orkestrinə dəvət etdi. Qısa müddət sonra Mirzə Babayev estrada mahnılarının ifaçısı kimi tanınmağa, sevilməyə başlayıb. Sonralar Tofiq Quliyevi minnətdarlıqla yad edən sənətkar deyib: "Tofiq Quliyev olmasaydı, mən memar kimi fəaliyyətimi davam edəcəkdim".

1953-cü ildə konservatoriyanı bitirən M.Babayev müxtəlif illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin estrada orkestrində, Azərbaycan Dövlət Filarmoniyasında, Azərbaycan Dövlət Konsert Birliyində fəaliyyət göstərib. O, ifa tərzi ilə də, repertuarında olan mahnılarla da müqayisəolunmaz müğənni kimi musiqisevərlərin diqqətini cəlb edib. Özünəməxsus səsi, ifası ilə pərəstişkarlar qazanıb, şöhrətlənib.

Kino tamaşaçılarının yaddaşında Mirzə Babayev həm də istedadlı, bənzəri olmayan aktyor kimi qalıb. Kinorejissorlar onu böyük həvəslə filmlərə dəvət edirdilər. Mirzə Babayev 40-dan çox filmdə rol alıb. O, Azərbaycandan başqa, Odessa, Daşkənd, Aşqabad kinostudiyalarında istehsal olunan filmlərdə də çəkilib.

Mirzə Babayev filmlərdə həm aktyor kimi, həm də mahnıların ifaçısı kimi iştirak edirdi. "Dərviş Parisi partladır", "Kölgələr sürünür", "Qaraca qız", "Sən niyə susursan", "Telefonçu qız", "Dəli Kür", "Qorxma, mən səninləyəm", "Bəyin oğurlanması" və digər filmlərində oynadığı rollar epizodik olsa da, onun yüksək aktyorluq məharətini göstərirdi. Mirzə Babayevin "O olmasın, bu olsun", "Onu bağışlamaq olarmı?", "Dərviş Parisi partladır", "Telefonçu qız" və başqa filmlərdə ifa etdiyi mahnılar həmin ekran əsərlərinin uğur qazanmasına təsir göstərib.

Onun Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafına xidmətləri diqqətdən kənarda qalmayıb. Mirzə Babayev 1960-cı ildə Əməkdar artist, 1992-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb. 2002-ci ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Yaradıcılıq yolunun enişli-yoxuşlu yollarında ona maneələr törətməyə, ruhdan salmağa çalışanlar az olmayıb. Sovet dövründə bir çoxu Mirzə Babayevin ifa tərzini, səhnə hərəkətlərini qəbul etmirdi. İmkan verməyiblər ki, "O olmasın, bu olsun" filmində Məşədi İbad roluna çəkilsin. Mirzə Babayev Məşədi İbadın yalnız musiqi partiyalarını oxuya bilib. Ancaq onu həvəsdən salmaq, əlini işdən soyutmaq istəyənlər məqsədlərinə çatmayıblar. Mirzə Babayev böyük istəklə Tofiq Quliyev, Emin Sabitoğlu, Oqtay Rəcəbov, Vasif Adıgözəlov və başqa bəstəkarların mahnılarını ifa edərək məşhurlaşdırıb, filmlərə çəkilib.

"Atam 105 il, nənəm isə 127 il yaşayıb. Mən də nənəm kimi 130 il yaşayacağam", - deyən Mirzə Babayevin ömür payı 89 il olub. Mirzə Babayev 2003-cü il yanvarın 13-də bu dünyayla vidalaşıb. Amma sənətkar bu gün də ifa etdiyi nəğmələrlə, kinofilmlərdə canlandırdığı rollarla, memarı olduğu tikililərlə, bir də yaddaşlarda qalan, üzlərə təbəssüm qonduran duzlu-məzəli sözləri ilə xatırlanır, unudulmur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Səhnə xadimləri

# Kinomuzun "ana"sı

**Azərbaycan teatr və kino sənətinin inkişafı naminə böyük xidmətlər göstərmiş Xalq artisti Sədayə Mustafayevanın anadan olmasından 100 il keçir. Görkəmli aktrisa xalqımızın yaddaşında müxtəlif film və tamaşalarda yaratdığı parlaq obrazları ilə qalıb. Çəkildiyi vaxtdan uzun illər keçməsinə baxmayaraq, həmin film və tamaşalara bu gün də böyük maraqla baxılır və sevilir.**



Mədəniyyət tariximizdə özünəməxsus yeri olan Sədayə Mustafayeva çətin, amma maraqlı, çoxlarına nümunə olacaq bir ömür yaşayıb. O, 1926-cı il iyulun 15-də Şəkidə dünyaya göz açıb. Uşaq vaxtlarından həyat üzünə gülməyib. 5 illik orta təhsilini bitirdikdən sonra atası İsmayılı və qardaşı Məhəmmədi müharibəyə aparıblar. Bununla da həyatının çətin günləri başlayıb. Doğmalarını göz yaşları içində müharibəyə yola salan balaca Sədayə Şəkidəki İpəkçilik kombinatında işləməyə başlayıb. Gözlənilmədən iş prosesində tikiş maşınından çıxan məkik Sədayənin üzünü zədələyib. Onun halına acıyan fəhlələr deyiblər ki, bu balacaboylu, çəlimsiz qızın belə ağır yerdə işləməsi çox çətindir. Günlərin birində Şəkidə onun atasını, xüsusilə nəslini yaxşı tanıyan bir zorxanaçı bu arıq qızcığazın qolundan tutaraq Şəki Dövlət Teatrına aparıb. Teatrda onu qəbul ediblər və ilk addım olaraq S.Vurğunun "Vaqif" pyesində rəqqasə rolunu veriblər. Balaca Sədayə bu rolun öhdəsindən bacarıqla gəlib.

Bununla da Sədayə xanımın həyatının onu zirvələrə aparacaq, xalqa tanıdacaq və sevdirəcək yeni mərhələsi başlayır. Elə ilk məşqlərdən, ilk tamaşalardan onun xüsusi bacarığının olduğu üzə çıxır. Gənc aktrisanın oynadığı rollar həm rejissorların diqqətini cəlb edir, həm də tamaşaçı sevgisi qazanır. Bir neçə il Şəki Dövlət Dram Teatrında işləyən və müxtəlif tamaşalarda bir-birinə bənzəməyən maraqlı obrazlar yaradan Sədayə sonra fəaliyyətini Ağdaş və Göyçaydakı teatrlarda davam etdirib. Zaman keçdikcə bu sahədə böyük təcrübə toplayıb, şöhrəti yavaş-yavaş qonşu şəhər və rayonlara yayılıb.

1950-ci ilin mart ayında aldığı bir dəvət həyatında mühüm rol oynayıb. Həmin il Gəncə Dövlət Dram Teatrının direktoru, Xalq artisti, teatr və kino aktyoru, rejissor Məhəmməd Bürcəliyev Sədayə xanımı rəhbərlik etdiyi teatra dəvət edib. Gəncə teatrında işə düzələn Sədayə ömrünü bu sənət ocağına bağlayır. Bundan sonra onun qarşısında geniş yaradıcılıq yolları açılır. Bacarığını, peşəkarlığını göstərmək üçün daha da əlverişi şərait yaranır. Sədayə Mustafayeva teatrda çalışdığı illər ərzində səhnədə 400-dən artıq obraz yaradır.

Göstərilən etimadı doğruldan Sədayə xanım "Vaqif"də Xuraman, Gülnar, "Aydın"da Gültəkin, "Pəri Cadu"da Pəri, "Solğun çiçəklər"də Sara, Pəri, Gülnisə, "Otello"da Emilya, "III Riçard"da Yelizaveta, "Sokratla söhbətlər"də Ksantipa, "İtkin gəlin"də Səbihə, "Yad qızı"nda Həcər xanım, "Dairəni genişləndirin"də Aliyə, "Təbilçi qız"da Nila, "Kəndçi qız"da Bənövşə, "Dəli Kür"də Şahnigar, "Ana vüqarı"nda Ana, "Bəraət"də Rəşidə, "Atayevlər ailəsi"ndə Dilşad, "Xurşidbanu Natəvan"da Natəvan, "Qonşular"da Mətanət, "Almaz"da Almaz, "Sən həmişə mənimləsən"də Nargilə, "Mahnı dağlarda qaldı"da Rəxşəndə və başqa rolları məharətlə oynayıb. Yaratdığı bu obrazlar Sədayə Mustafayevanın yaradıcılığında olduqca mühüm yer tutur. Onun tamaşalarda yaratdığı obraz nümunələri gənc aktyorlar üçün, sözün həqiqi mənasında, bir məktəbdir.

Teatr səhnəsində yaratdığı obrazlarla tamaşaçı sevgisi qazanan Xalq artisti Sədayə Mustafayeva filmlərdə də bacarığını sınaqdan keçirib. Görkəmli aktrisa bu gün də böyük maraqla baxılan 20-dən artıq filmə çəkilib. "Qanun naminə"də Xatun, "Mən ki gözəl deyildim"də Gözəl, "Şərikli çörək"də Şamama, "Qaynana"da Mülayim, "Ölsəm, bağışla"da Suğra xala, "Ağ atlı oğlan"da Mirvari nənə, "Həm ziyarət, həm ticarət"də Ana rollarını oynayıb. Bundan başqa, Sədayə xanım Amerika kinematoqrafçılarının istehsal etdiyi "İlk körpü" filmində Əsmər rolunu canlandırıb.



Sədayə xanım 1952-ci ildə Gəncə teatrının direktoru Məhəmməd Bürcəliyevlə ailə həyatı qurur. Aktrisa müsahibələrinin birində əsl rahatlıq və daimi xoşbəxtliyini ailə həyatı qurduqdan sonra tapdığını deyib.

Sədayə Mustafayevanın Azərbaycan teatr və kino sənətinin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Görkəmli aktrisaya 1958-ci ildə "Əməkdar artist", 1981-ci ildə isə "Xalq artisti" fəxri adları verilmişdir. 2003-cü ildə isə Sədayə Mustafayeva Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Sədayə xanım filmlərimizdə daha çox ana rollarına çəkilib. Özü də bu barədə söhbət açanda "nədənsə rejissorlarımız məni həmişə ana obrazında görür", - deyərmiş. Tamaşaçılarımız aktrisanı daha çox "Qanun naminə" bədii filmindən Mehmanın anası kimi tanıyırlar. Aktrisa deyərdi ki, 30 yaşından ana rollarına çəkildiyimə görə, dişlərimi tamamən dəyişməli oldum: "Öndəki 4 qızıl dişim çəkiliş zamanı mane olduğundan bir aya hamısını çəkdirdim. Ana və Nənə rolları ilə uzlaşsın deyə qara saçlarımı da daim ağ rəngə boyayardım".

Xalq artisti Sədayə Mustafayeva 2004-cü il avqustun 13-də 78 yaşında Gəncədə dünyasını dəyişib.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Sənət dünyası

# Toğrul Sadıqzadənin yaradıcılıq dünyası

**XX əsr Azərbaycan təsviri sənətinin inkişafında xidmətləri olan Xalq rəssamı Toğrul Sadıqzadənin bu il 100 yaşı tamam olur. T.Sadıqzadə Bakıda anadan olmuşdur. Məşhur yazıçı Seyid Hüseyn və şairə Ümmügülsüm xanımın ailəsində dünyaya göz açmışdı. Valideynləri o kiçik yaşında olarkən represiyaya məruz qalmışlar.**



T.Sadıqzadə ixtisas təhsilini əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, sonra Ümumittifaq Dövlət Kinemotoqrafiya İnstitutunda almışdır.

1952-ci ildən sərgilərdə əsərləri ilə iştirak edən Toğrul 1954-cü ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul edilmişdir. Sənətkarın Bakıda (1962, 1964, 1977, 2006), Estoniyanın Tartu (1967), Rusiyanın Moskva (1968) şəhərlərində fərdi sərgiləri təşkil olunmuşdur. Onun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və digər qalereya və şəxsi kolleksiyalarda saxlanılır. Qardaşı Xalq rəssamı Oqtay Sadıqzadə də təsviri sənət tariximizdə silinməz imzaya malik rəssamlarımızdandır.

T.Sadıqzadə süjetli tematika, mənzərə, portret və natürmort janrlarında yaddaqalan sənət nümunələri yaratmışdır. Onun yağlı və sulu boya texnikasında ərsəyə gətirdiyi sənət nümunələri özünün məna-məzmun zənginliyi, süjetin bədii həlli baxımından mükəmməlliyi, kolorit və kompozisiya həllinin bitkinliyi ilə seçilir. Toğrulun süjetli tematika və mənzərə janrında işlənmiş əsərlərinə "Səadət", "Göyçə gölü", "Tikintidə", "Sənaye mənzərəsi", "Köhnə neft mədənlərində", "Müharibənin dəhşətləri", "İnsan iz qoyur", "Qobustan mənzərəsi", "Fırtına quşu haqqında nəğmə", "Nəğmə" və başqalarını göstərmək olar.

T.Sadıqzadə yaradıcılığında əsas xüsusiyyət kimi özünün düşüncələrini, təbiət haqqında fəlsəfi yaşantıları və yanaşmalarının əksini təcəssüm etdirməyə çalışıb. Rəssamın tematik əsərlərində sovet ideoloji sisteminin tələbləri çərçivəsində yaratdığı əsərlər də kifayət qədərdir. Belə əsərlər ideya məzmunu baxımından bu gün aktuallıq kəsb etməsə də sənətkarlıqla işlənilmə prinsiplərini özündə saxlayır.

T.Sadıqzadə bir sıra maraqlı portret əsərlərinin müəllifidir. O, portret janrı haqqında deyirdi: "Portret janrı doğrudan da asan olmur. Xüsusilə ənənəvi bədii ifadə vasitələrilə. Hər modelin öz aləmi, öz rəngləri, siluet həlli, proqram mahiyyətli səviyyəsi var. Süjetdə mövzunun, ideyanın konkret, obrazlı, emosional ifadəsi çox gərəklidir". Rəssamın portret əsərlərindən şair-filosof Nizami Gəncəvi, şair-mütəfəkkir İmadəddin Nəsimi, məşhur İran şairi və filosofu Sədi Şirazi, rəssam Səttar Bəhlulzadə, müğənni Şövkət Ələkbərova, yazıçı Mikayıl Rzaquluzadə, şair Bəxtiyar Vahabzadə, rəssamın qızı İlahə və başqalarının adlarını çəkmək olar. Sənətkarın bu cür şəxsiyyətlərin yüksək ustalıqla bədii obrazlarını kətana köçürmək istəyi onun həm vətənpərvərlik və həm də peşəkar rəssamlıq qabiliyyətindən irəli gəlir. Bu əsərlərə tamaşa etdikcə onun bədii təxəyyülü nəticəsində tanınmış incəsənət xadimlərinin yaddaqalan portret cizgilərini görmək və duymaq olur.

T.Sadıqzadənin natürmort janrında yaratdığı əsərlərini onun ən uğurlu işlərindən hesab etmək olar. "Natürmort" (1953), "Natürmort. Orta əsrlər Azərbaycan keramikası" (1955) adlı nümunələr sənətşünaslar tərəfindən Azərbaycan təsviri sənət tarixində ən uğurlu əsərlər kimi qiymətləndirilmişdir.

T.Sadıqzadənin "Əsli və Kərəm" və Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasına klassik miniatür ənənələri əsasında yaratdığı illüstrasiyalar rəssamın yaradıcılığında ayrıca yer tutur. Bu silsiləyə aid olan işlərdən "Əsli və Kərəm güllərin arasında", "Aşıq sazı ilə evin qarşısında", "Taxtda uzanmış cavan", "Leyli və Məcnun", "Dəfn mərasimi", "Məzarın yanında oturan qız" və başqalarının adlarını qeyd etmək olar.

T.Sadıqzadənin xarici ölkələrə ezamiyyət zamanı yaratdığı əsərlər də diqqət çəkir. Sənətkarın xarici ölkələrdə görüb müşahidə etdiyi, rəssam duyumu ilə kətanda bədiiləşdirdiyi məkan və surətlər estetik təsir gücü və işlənilmə texnikasının ustalığı ilə seçilir. T.Sadıqzadə ABŞ, Tunis, Misir, Fransa, Yaponiyada yaradıcılıq ezamiyyətlərində olmuşdur. Rəssamın Yaponiyaya həsr etdiyi əsərlər ona geniş şöhrət qazandırmışdır. T.Sadıqzadə Xirosimada baş vermiş insanlıq faciəsinin acı səhnələrini və reallıqlarını bədii biçimdə tabloya köçürmüşdür. Rəssamın belə işlərindən "Xirosima partlayışdan sonra", "Xirosima qurbanları", "Külə dönmüş ağaclar", "Xirosima anası", "Qara əjdaha" və digərlərinin adlarını göstərmək olar.

Xalq rəssamı Toğrul Sadıqzadənin bədii yaradıcılıq nümunələri Azərbaycan təsviri sənət tarixində həmişə yaşayacaqdır.

*Əsəd QULİYEV,*
*sənətşünas,*
*Rəssamlar İttifaqının üzvü*




# "Kür" sənədli filmi beynəlxalq layihədə qalib olub

**Gürcüstanda keçirilən Svaneti Beynəlxalq Film Festivalının Beynəlxalq pitçinq bölməsinə Azərbaycandan 2 tammetrajlı sənədli film layihəsi seçilib.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Kinematoqrafçılar İttifaqından məlumat verilib.

Bildirilib ki, festival çərçivəsində montaj mərhələsində olan filmlərin pitçinqi üçün "Work-in-Progress" bölməsi və inkişaf mərhələsində olan film layihələri üçün "Pitçinq Forum" təşkil edilib. Pitçinqlərdə Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna, Misir, Qazaxıstan, İtaliya kimi ölkələrdən film layihələri iştirak edib.

Montaj mərhələsində olan layihələrin münsiflər heyəti Doha Film İnstitutunun rəhbəri Xəlil Benkriani, Tribeka Film Festivalının bədii rəhbəri Frederik Boyer, Venesiya, Lokarno, Roma Film festivallarının sabiq direktoru Marko Müller və məşhur iranlı rejissor Amir Naderidən ibarət idi.

Azərbaycanı təmsil edən "14 gün dustaqlıqda" filmi (rejissor Afaq Yusifli, prodüserlər Tahir Tahiroviç, Murad Allahverdi, Afaq Yusifli) "Work-in-progress", "Kür" tammetrajlı sənədli filmi (rejissor Murad Allahverdi, prodüser Afaq Yusifli) isə Pitçinq Forumda təqdim edilib. "Kür" layihəsi Pitçinq Forumun baş mükafatına - "Ən yaxşı pitçinq və Ən yaxşı layihə"yə layiq görülüb.



Pitçinq Forumun münsiflər heyəti Turin Film Laboratoriyasının təmsilçisi Alona Şumakova, "Qara Gecələr" Film Festivalının proqramçısı (PÖFF Estoniya) Edvinas Puksta, Gürcüstan Film Akademiyasının sədri Nikolas Abramaşvilidən ibarət olub.

Jürinin qalib layihə üçün qeydi belədir: "Filmin toxunduğu çox vacib mövzu təkcə öz ölkəsini yox, bütün regionu əhatə edir. Filmin monumentallığı, tarixi elementləri və ekoloji xüsusiyyəti diqqət çəkir".

Qeyd edək ki, bu artıq "Kür" film layihəsinin 4-cü beynəlxalq uğurudur. Bundan əvvəl layihə "KinoLab" layihəsinin pitçinqinin qalibi, CineDoc Mentorluq proqramının iştirakçısı və pitçinqin qaliblərindən biri, Dəyişiklik Beynəlxalq Müştərək istehsal təlim proqramının iştirakçısı olub.

Rejissor Murad Allahverdinin layihədə iştirakına Azərbaycan Kinematoqrafçılar İttifaqı maddi dəstək göstərib.

# İdman

## Bürünc medal qazanan Azərbaycan güləşçisi: "Bu, bəxt məsələsi deyil, çəkilən əziyyətin nəticəsidir"

**"Medal qazandığım üçün sevinirəm. Əslində, çempion da ola bilərdim, sadəcə, alınmadı və üçüncü yerə sahib oldum. Aylardır bu yarışa hazırlaşırıq, böyük əziyyət çəkmişik. İnanıram ki, növbəti yarışlaradək buraxdığım səhvləri aradan qaldırıb, çempion olacağam. Azarkeş dəstəyi də çox möhtəşəm idi, tribunaların coşğusu mənə əlavə ruh verdi".**



AZƏRTAC xəbər verir ki, bunu Bakıda təşkil olunan U-17 dünya çempionatında bürünc medal qazanan Azərbaycanın yunan-Roma güləşçisi Orxan Həbibli (65 kiloqram) deyib.

Bürünc medal uğrunda görüşü şərh edən idmançı qələbənin təsadüfi olmadığını vurğulayıb: "Rəqib böyük təzyiq göstərirdi. Mən lazımi xalları qazandıqdan sonra müdafiəyə çəkildim, ona görə də üstümə çox gəlirdi. Mən gücümü bərpa edirdim, o isə hücum edirdi. Özümü toparlayıb sonadək dözdüm. Görüş demək olar ki, hesabladığım kimi alındı. Bu, bəxtlə bağlı məsələ deyil, çəkilən əziyyətin nəticəsidir".

Yarımfinal qarşılaşmasından da söz açan güləşçi diqqətsizlik üzündən xal itirdiyini bildirib: "Yarımfinalda çox gözlədim, parter vəziyyətində müdafiə olunmağa çalışdım. Lakin sonda yaranan boşluqdan rəqib istifadə edərək xal qazandı. Buraxılan xalların əvəzini çıxmaq isə sonra çətinləşdi".

## Dünya üçüncüsü olan Azərbaycan güləşçisi: "Əsas hədəfim çempionluq idi"

**"Əslində, mən bu yarışa qızıl medal qazanmaq üçün gəlmişdim, əsas hədəfim çempionluq idi. Təəssüf ki, dünən yarımfinalda buraxdığım bəzi səhvlərə görə məğlub oldum. Rəqibim məndən zəif idi, sadəcə, arxayınlıq məğlubiyyətə gətirib çıxardı. İnşallah, daha çox çalışıb gələn il bürünc medalı qızılla əvəz etməyə çalışacağam".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda təşkil olunan U-17 dünya çempionatında bürünc medal qazanan Azərbaycanın yunan-Roma güləşçisi Ömər Salmanov (48 kiloqram) jurnalistlərə açıqlamasında deyib.

İdmançı yarımfinaldakı məğlubiyyətinin səbəblərinə toxunub: "Xalçada bir fənddə qolumu açıq saxlamışdım. Bir anlıq diqqətsizlik etdim, rəqib də bundan istifadə edərək fənd tətbiq etdi. Nəticədə hesab 2:1 oldu və məğlubiyyətlə barışmalı oldum".

O, medal görüşünə yaxşı kökləndiyini vurğulayıb: "Xalçaya tam hazır çıxmışdım ki, ən azından üçüncü yeri tutum, yarışı medalsız başa vurmayım. Şükürlər olsun ki, məqsədimə çatdım və bürünc medala sahib oldum".

Qeyd edək ki, Milli Gimnastika Arenasında keçirilən mundialda 60-dan çox ölkədən 700-ə yaxın yeniyetmə güləşçi iştirak edir. Azərbaycanı turnirdə 29 idmançı təmsil edir.

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsində çıxışlar başa çatıb

**İyulun 28-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.**







AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Məhkəmə iclasının əvvəlində məlumat verilib ki, prosesdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları da müşahidəçi qismində iştirak edirlər.

Məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların çıxışları ilə davam etdirilib.

Dövlət ittihamını müdafiə edən prokurorlar Anar Ələkbərov və Sevinc Qasımova çıxışlarında bildiriblər ki, məhkəmə istintaqı zamanı tədqiq olunmuş sübutlarla digər təqsirləndirilən şəxslər kimi Qarik Martirosyan, Davit Allahverdiyan, Levon Balayan, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryanın da Ermənistan tərəfindən Azərbaycan Respublikasının suveren ərazilərinin işğal edilməsi, habelə işğal altında saxlanılması, müxtəlif qanunsuz fəaliyyətlərin həyata keçirilməsi, Ermənistanın formalaşdırdığı və himayə etdiyi cinayətkar birliklərin tərkibində və təcavüzkar müharibənin aparılmasında iştirakları təsdiq olunub.

Prokurorlar qeyd ediblər ki, iş üzrə toplanmış mötəbər sübutlar birinci instansiya məhkəməsinin gəldiyi nəticələrin qanuni və əsaslı olduğunu təsdiqləyir, apellyasiya şikayətlərində irəli sürülən dəlillər isə öz təsdiqini tapmayıb.

Daha sonra çıxış edən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı bildirib ki, birinci instansiya məhkəməsinin çıxardığı ittiham hökmü həm milli qanunvericiliyin, həm də beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının tələblərinə tam uyğundur.

Prokuror vurğulayıb ki, ifadələr, ekspert rəyləri, protokollar, maddi sübutlar, sənədlər, video və fotomateriallar qarşılıqlı şəkil və məcmu halında araşdırılıb, hökm hər bir təqsirləndirilən şəxsin konkret əməlləri, ittiham olunduqları cinayətlərdə iştirak forması və iş üzrə müəyyən edilmiş faktlar əsasında çıxarılıb.

Dövlət ittihamçısı apellyasiya şikayətlərinin təmin edilməməsini, Bakı Hərbi Məhkəməsinin ittiham hökmünün isə dəyişdirilmədən qüvvədə saxlanılmasını məhkəmədən xahiş edib.

Hakim bununla da məhkəmə çıxışlarının başa çatdığını bildirib və müdafiə tərəfi qanunvericiliklə nəzərdə tutulmuş replika hüququndan istifadə edib.

İlk olaraq təqsirləndirilən şəxs Bako Sahakyanın müdafiəçisinə replika hüququndan istifadə etmək üçün söz verilib. Vəkil replikasında apellyasiya şikayətlərinin təmin edilməsini, birinci instansiya məhkəməsinin hökmünün ləğv olunmasını və Bako Sahakyan barəsində bəraətverici hökmün çıxarılmasını məhkəmədən xahiş edib.

Daha sonra replika hüququndan istifadə etmək üçün söz təqsirləndirilən Bako Sahakyana verilib. Bako Sahakyan qeyd edib ki, ona verilmiş replika hüququndan növbəti məhkəmə iclasında istifadə etmək istəyir.

Ardınca təqsirləndirilən Arayik Harutyunyanın müdafiəçisinə replika hüququndan istifadə etmək üçün söz verilib. Müdafiəçi hüquqlarını qoruduğu şəxsin barəsində bəraətverici hökmün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Arayik Harutyunyan da replika hüququndan istifadə edərək ona qarşı irəli sürülmüş ittihamları qəbul etmədiyini bildirib.

Məhkəmənin növbəti iclası iyulun 31-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# BEYNƏLXALQ HƏYAT

## Donald TRAMP: "Türkiyə ordusu möhtəşəmdir"

### Rəcəb Tayyib ƏRDOĞAN: "Tramp Türkiyəyə F-35 qırıcı təyyarələrinin satışı məsələsində müsbət mövqe tutub"

**ABŞ Prezidenti Donald Tramp İsrail Baş naziri Benyamin Netanyahunun Türkiyəyə F-35 qırıcı təyyarələrinin mümkün satışına etirazlarını rədd edib. O, "Air Force One" təyyarəsində jurnalistlərə bildirib: "Heç kim mənə nə satmalı olduğumuzu deməyəcək".**



D.Tramp Türkiyəni "böyük müttəfiq" adlandırıb və Prezident Rəcəb Tayyib Ərdoğanı Suriya da daxil olmaqla regional məsələlərdə "çox yaxşı iş görən dost" kimi gördüyünü açıqlayıb. Ankaranın İsrail və ya Netanyahunun "böyük fanatı olmadığını" etiraf edərkən ABŞ Prezidenti Vaşinqton və Ankara arasında ikitərəfli tərəfdaşlığın güclü olaraq qaldığını vurğulayıb. Tramp həmçinin qeyd edib ki, Türkiyə ordusu möhtəşəmdir: "Çox böyük bir ordu. Çox güclü bir ölkə".

İyul ayında Türkiyədə keçirilən NATO sammitində Tramp Ankaraya çatdırılmaların bərpasını mütləq nəzərdən keçirəcəyini bildirib və Türkiyəni "digər ölkələrdən daha sadiq" adlandırıb.

Prezident Rəcəb Tayyib Ərdoğanın dediyinə görə, Tramp Türkiyəyə F-35 qırıcı təyyarələrinin satışı məsələsində müsbət mövqe tutub. Xatırladaq ki, 2019-cu ildə - Trampın birinci prezidentliyi dövründə ABŞ Ankaranın Rusiya S-400 hava hücumundan müdafiə sistemlərini almasına qarşı çıxmış, Türkiyəni F-35 proqramında iştirakdan kənarlaşdırmışdı. Vaşinqton iki sistemin birgə istismarının Rusiyanın Amerika təyyarələrinin xüsusiyyətləri və aşkarlama üsulları haqqında məlumat əldə etməsinə imkan verəcəyindən ehtiyatlanırdı. Türkiyə isə dəfələrlə iki sistem arasında heç bir ziddiyyət olmadığını bildirmiş və məsələni araşdırmaq üçün komissiya yaratmağı təklif etmişdi. Ankara həmçinin F-35 proqramı çərçivəsində öhdəliklərini yerinə yetirdiyini və proqramda iştirakın dayandırılmasının qaydaların pozulması olduğunu iddia edərək qırıcıların təkcə Türkiyəni deyil, həm də NATO-nu gücləndirəcəyini vurğulamışdı.

## İsrail və Livan arasında Romada yeni danışıqlar gözlənilir

**ABŞ Dövlət Departamenti təsdiqləyib ki, Vaşinqtonun vasitəçiliyi ilə İsrail və Livan arasında növbəti danışıqlar mərhələsi gələn həftə Romada keçiriləcək. Avqustun 4-6-da hər iki ölkənin texniki qrupları İsrail və Livan tərəfindən ötən ay imzalanmış mümkün sülh razılaşması üzrə çərçivə sazişinin həyata keçirilməsini müzakirə edəcəklər.**



Dövlət Departamentinin məlumatına görə, danışıqlar pilot zona prosesinin genişləndirilməsinə, qalan bütün sərhəd məsələlərinin həllinə və hərtərəfli sülh və təhlükəsizlik sazişinin hazırlanmasına yönələcək.

Mignews.com portalı xəbər verir ki, İsrail Müdafiə Qüvvələri qoşunların Livanın cənubundakı pilot zonadan çıxarılmasının birinci mərhələsini başa çatdırıb. Öz növbəsində Livan hakimiyyəti İsrailin Livan silahlı qüvvələrinin ərazidə yerləşdirilməsinə mane olduğunu bildirib.

Dövlət Departamenti ilk pilot zonaların tətbiqi təcrübəsinin onların əməliyyat mexanizmlərinin təkmilləşdirilməsinə və layihənin tədricən genişləndirilməsinə imkan verəcəyini vurğulayıb. Vaşinqton həmçinin üçtərəfli çərçivə proqramını davamlı sülhə nail olmağın yeganə yolu adlandırıb. Prezident Donald Tramp administrasiyasının isə onun tətbiqinə sadiqliyini bir daha təsdiqləyib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Əmiraslanovlar ailəsi Məmmədovlar ailəsinə əzizləri

**ZAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3204
Sifariş 948

Qiyməti 60 qəpik